# GİZLİ KİLSƏ

HAZIRLANMASI • QURULMASI • YAŞAMASI



Erik Foley
Riçard Vurmbrand

# GİZLİ KİLSƏ

HAZIRLANMASI ◆ QURULMASI ◆ YAŞAMASI

**Erik Foley**
**Riçard Vurmbrand**

Originally published in English as three separate books:
*Preparing for the Underground Church*
*Planting the Underground Church*
*Living in the Underground Church*
by Eric Foley with Merv Knight

© 2017 by Eric Foley.
Published originally by Voice of the Martyrs, Korea
© 2025 for the Azeri edition

## 1-Cİ BÖLÜM

# GİZLİ KİLSƏYƏ HAZIRLIQ

# “Gizli kilsəyə hazırlıq” kitabına giriş

***Merv Nayt** (Avstraliyada “Şəhidlərin səsi” təşkilatının təsisçisi)*

Mən ilk dəfə Pastor Riçard Vurmbrandla 1 avqust 1969-cu ildə tanış oldum. O, Sidneydə keçiriləcək görüşlər üçün Avstraliyaya gəlmişdi. O zaman bilmirdim ki, Allah növbəti 31 il ərzində birlikdə xidmət etmək üçün bizi bir araya gətirir. Onu tanıdıqca bir daha inandım ki, Allah onu çox sınaqlardan keçirib və Öz hikməti ilə Qərbdə Gizli kilsənin səsi olmaq üçün hazırlayıb. Onunla birgə işləmək və öyrənmək fürsətinə görə çox minnətdaram.

Pastor Riçard Vurmbrand kommunist rejimi altındakı Rumıniyadan azadlıqda yaşayan kilsələrə yeni bir xəbər gətirdi. O dedi:

“Gizli kilsədən gətirdiyim xəbər budur: ‘Bizi tərk etməyin! Bizi unutmayın! Bizə lazım olan alətləri verin! Biz həmin alətləri istifadə etmək üçün bədəl ödəyəcəyik!’ Mənə həmin bu xəbəri azad dünyadakı kilsələrə çatdırmaq həvalə edilib”.

Avstraliyadakı səfəri zamanı Riçard Vurmbrand ailəsinə belə yazmışdı: “Mən həm də bütün işimiz üçün narahatam. Kommunist ölkələrində əzab çəkənlərə kömək etməkdən danışarkən insanlar bunu çox yaxşı qarşılayır. Amma azad dünyanın qayğısına heç kim qalmır. Bu, mənə bir yəhudi əhvalatını xatırladır: ‘Bir dilənçi qapı-qapı gəzərək yalvarırdı, amma heç kəs ona heç nə vermirdi. O, bir gün buzun üstündə sürüşüb ayağını sındırdı.

Sonra onu xəstəxanaya apardılar. Hamı onun halına acıdı, onun üçün yaxşı yeməklər gətirdilər. O, həyat yoldaşına dedi ki, nə yaxşı ayağımı sındırdım’. İnsanlar birinin başına bəla gəldikdə ona kömək etməyi, amma bunun qarşısını almaq üçün heç nə etməməyi üstün tuturlar. Şəhidlərə yardım işi müsbət qarşılanır. Amma Cənub-Şərqi Asiyanın kommunist rejiminə keçməsinin qarşısını almaqdan danışanda bu, artıq siyasət sayılır”.

Narahat bir ürəklə, Riçard Vurmbrand öz vətənində olduğu kimi kilsənin azad dünyada da eyni yolla getdiyini gördü. O, Gizli kilsənin xəbərini çatdırarkən “özünüzü həbsdə olanların yerinə qoyaraq onları yada salın” (İbranilərə 13:3) deyə tövsiyə etdi. Eləcə də, Riçard bildirdi ki, azadlıqda yaşayan məsihçilər qarşıdakı çətin günlərə hazırlaşmalı və məsihçi dəyərlərinin zəifləməsinin qarşısını almalıdırlar. O, belə günlərin yaxınlaşdığını məsihçilərə xəbərdar etdi.

Pastor Riçard Vurmbrand kilsəni, yəni Məsihin Gəlnini çox sevirdi. O, Rumıniyanın dəhşətli kommunist həbsxanalarında 14 il amansız işgəncələrə, qorxulara, təhqirlərə və əzablara dözdü, çünki Məsihə və Onun Kilsəsinə böyük məhəbbəti var idi. Dəmir Pərdənin arxasında olan kommunist diktaturası əsl kilsəni gizlənməyə gətirib çıxarmışdı, çünki o, Müjdə uğrunda mübarizə aparırdı.

Pastor Vurmbrandı azad kilsələrdəki rəhbərlərin kommunist ölkələrindəki təqiblərə və öz azadlıqlarının azalmasına qarşı laqeyd yanaşmaları məyus edirdi. O düşünürdü ki, bu vəziyyətə təcili diqqət yetirməlidirlər. Avstraliyadan Cənubi Afrikaya səyahət edən pastorun qəlbi Kilsənin gələcəyi və rifahı barədə narahat idi. O, vəzlərinin birində azad dünyadakı Kilsənin Gizli kilsəyə hazırlaşmalı olduğunu vurğulamışdı. Bu mühazirənin yazıya alınmış mətni, indi əlinizdə tutduğunuz bu kitabça halına gəldi.

Pastor Vurmbrand bizimlə olarkən deyirdi ki, Rumıniyada allahsız totalitar rejim kilsəyə hücum edəndə, nə özü, nə də

kilsə bu vəziyyətə hazır deyildi. Bu onu kədərləndirmişdi. O, bu kitabçada sadiq məsihçilərin birlikdə ibadət etmək və imanlarını bölüşmək üçün yollar axtardığı çətin dövrdən danışır. Kilsənin qarşılaşdığı vəziyyət barədə qısa məlumat verir.

Pastor Vurmbrand Rumıniyanı tərk etdikdən sonra azad dünyada kilsəyə xidmət etmək üçün çağırıldığı kimi, bu kitabça da bu gün kilsənin üzləşdiyi çətinliklərə hazırlaşmaq üçün vacib bir məlumat daşıyır. Bu kitabı oxuyan hər kəsi Riçardın xəbərdarlıqları, çağırışları və məsləhətləri barədə ciddi düşünməyə çağırıram.

# GİZLİ KİLSƏYƏ HAZIRLIQ, GİRİŞ - KOREYA NƏŞRİ

İlahiyyat üzrə fəlsəfə doktoru **Erik Foley**
Koreyada "Şəhidlərin səsi" təşkilatının
icraçı direktoru

# I. Azad dünyada məsihçiliyi müdafiə edə bilən yeganə inqilab

Təqiblər kilsəyə həmişə gözlənilmədən gəlir. İsa əvvəlcədən dünyanın Onun davamçılarına nifrət edəcəyini xəbərdarlıq etsə də, kilsə buna hazır deyil. Kilsə düşmənlərinə qarşı yaxşılıq etdiyi üçün dünyanın ona hörmət göstərəcəyini zənn edir. Kilsə fikirləşir ki, yalnız Allaha ibadət etməyi tələb etdiyinə görə heç kimə təhlükə yaratmır.

Buna görə də Vurmbrand bilirdi ki, azad dünyadakı məsihçiləri kilsələrini gizlətməyə hazırlamaq çox çətin olacaq. Azad dünyadakı məsihçilər onları məqsədli və sistemli şəkildə təqib edən düşmənlərinin olduğunu təsəvvür etməkdə çətinlik çəkirlər.

Azad dünyada yaşayan məsihçilər hökumətlərinə böyük etimad bəsləyirlər. Siyasi rəhbərlərlə razılaşmasalar da, onlar inanırlar ki, ölkələrinin qanunları və mədəniyyəti onlara etiqadlarına uyğun sərbəst şəkildə yaşamaq üçün azadlıqlarını qoruyacaq. Onlar əmindirlər ki, məhkəmələr bu azadlıqları müdafiə edəcək və fərdi hücumlar olduqda ədaləti təmin edəcəklər.

Azad dünyada kilsələr az olsalar da, kilsə üzvləri adətən nüfuzlu, varlı, ziyalı və yaxşı beynəlxalq əlaqələri olan insanlardır. Beləliklə, həvari Paul "Məsih İsada mömin həyat yaşamaq istəyən hər kəs təqib olunacaq" xəbərdarlığını etsə də, azad dünyadakı məsihçilər yaşadıqları yerdə özlərini təqiblərdən qorunmuş hesab edirlər.

Lakin dörd onillik əvvəl Pastor Vurmbrand "Gizli kilsəyə hazırlıq" mövzusunda ilk dəfə təqdimat verəndə bilirdi ki, azad dünyada kilsə bir gün ciddi təqiblərə məruz qalacaq. O, bunun yalnız siyasi rejim dəyişikliyi ilə baş verəcəyinə inanmırdı.

Əksinə, o, kommunist həbsxanalarında keçirdiyi on dörd illik məhbus həyatına və sonrakı illərdə kommunist ölkələrində təqib olunan məsihçilərlə işləyərkən qazandığı təcrübəyə əsasən bunun baş verəcəyinə inanırdı. Vurmbrand başa düşdü ki, kommunizmin dərinliklərində siyasət, iqtisadiyyat və ya hərbi güclə əlaqəsi olmayan gizli bir qüvvə mövcuddur. Kommunizm yalnız bir gəmi idi və onun istiqaməti Allaha qarşı üsyanı göstərirdi.

Möhtərəm Riçard Vurmbrand *Marks və Şeytan* kitabında bu gizli bulaq haqqında yazmışdı. O, "Allahdan qorxan bir ailədə həyata başlayan" Karl Marksın "bir zamanlar məsihçi olduğunu" qeyd etmişdi. Vurmbrand bu kitabında Karl Markısın "həyatının hansısa məqamında baş vermiş kəskin dəyişikliyə görə Allaha və məsihçi dəyərlərinə qarşı dərin şəxsi üsyanı necə apardığını" izah etmişdi. Kommunizmi yaratmazdan əvvəl Marks yazırdı: "Mən yuxarıda hökmranlıq Edəndən (Allahdan) qisas almaq istəyirəm".[1]

Buna görə də möhtərəm Vurmbrandın diqqəti kommunizmi məğlub etməyə deyil, onun şeytani bir qüvvə kimi ifşa edilməsinə yönəlmişdi və insanlar bu qüvvənin təsirindən ruhən azad olmalı idilər. Kommunistlər düşmən deyildi, düşmən şeytan idi. Şeytan üçün əsas məsələ nə iqtisadiyyat, nə də siyasətdir. Bunlar sadəcə bəhanələrdir.

Əsas məsələ həmişə şeytani hakimiyyətin məhv edilməsidir, çünki bütün hakimiyyət – hətta təhrif olunmuş və sui-istifadə edilən hakimiyyət belə Tanrıdan gəlir. Şeytan kommunizmdən iqtisadi və siyasi hakimiyyət sahəsində qarışıqlıq yaratmaq üçün istifadə etdi. Şeytan fəhlələri kapitalistlərin zülmündən "azad olmağa" çağıraraq onları üsyana təşviq etdi.

Lakin Pastor Vurmbrand azad dünyada müxtəlif yerlərdə çıxış edərkən görürdü ki, şeytan yalnız iqtisadi və siyasi savaşlarla kifayətlənmir. Əlbəttə ki, onun işi yalnız Dəmir Pərdənin

---

1 Riçard Vurmbrand, 1986. *Marks və Şeytan*. Bartlsvil, Oklahoma: Canlı Qurban Kitab Şirkəti, kitabın arxa üzü.

arxasında məhdudlaşmayıb. Riçard Vurmbrand *Marks və Şeytan* adlı əsərində belə yazır:

> “1968-ci ildə üsyanlar zamanı Paris Universitetində divara yapışdırılmış şeytançılığın yeddinci dərəcəsinin sirrini oxuyarkən dəhşət hissi keçirdim. Bu sirr sadələşdirilərək belə təqdim olunmuşdu: ‘Qadağan etmək qadağandır’”.[2]

*Qadağan etmək qadağandır.* Şeytan kommunizm vasitəsilə böyük qarışıqlıq yaratmışdı. Lakin Pastor Vurmbrand və onun dövründəki digər məsihçilər anladılar ki, şeytanın strategiyası yalnız siyasi və iqtisadi sahələrlə məhdudlaşmır. Nəhayət, şeytanın strategiyası şəxsi kimlik sahəsində daha da qüvvətləndiriləcəkdi. Bu da azad dünyanın siyasətini və iqtisadiyyatını elə dəyişəcəkdi ki, bunu çox az adam əvvəlcədən görə bilərdi. O, bu sahə vasitəsilə təkcə siyasət və iqtisadiyyatda deyil, həm də elm, təhsil, əyləncə və hətta ruhani sahələrdə də “qadağan etmək qadağandır” ideyasını azad dünyanın etikası etməyə müvəffəq oldu.

Bu sahə daha çox “seksual inqilab” kimi tanınırdı və məhz burada şeytan kilsəyə qarşı son zərbəsini vurmağa çalışacaq, onu tarixdə ən böyük qadağan edən kimi ələ salacaq.

---

[2] Riçard Vurmbrand, 1986, səh. 107.

# II. Kilsənin sadəcə mövcudluğu zülmkar kimi necə qələmə verilir

İndi azad ölkələrdə yaşayan bir çox məsihçi hələ də anlaya bilmir ki, seksuallıq barədə cəmiyyətlə eyni düşünmədiyimiz üçün kilsələrimiz bir gün gizli fəaliyyət göstərməyə məcbur qala bilər. Halbuki, təxminən 80 il əvvəl bəzi məsihçilik düşmənləri artıq anlayırdılar ki, məsihçiliyi məhv etmək üçün sosializm deyil, seksuallıq daha təsirli ola bilər. Məsələn, bəzi fransız yazıçıları bunu açıq şəkildə yazmışdılar:

"Məsihçiliyə qarşı qəti döyüş yalnız 'seksual inqilab' səviyyəsində aparıla bilər".[3]

Bəs niyə seksual inqilab azad dünyada məsihçi kilsəsi üçün bu qədər təhlükəlidir? Çünki seksuallıqla bağlı fərqli düşüncələr, iqtisadi və siyasi məsələlərdən daha dərinə gedir və insanın şəxsiyyətinə birbaşa toxunur. Bu fərqli düşüncələr Tanrı və insan haqqında anlayışımızın özəyinə toxunur. Məsihçilik müəyyən bir siyasi və ya iqtisadi sistemə bağlı deyil, bu iman hər cür şəraitdə fəaliyyət göstərə bilər. Lakin onun mövcudluğu üçün cinsə dair Tanrının qoyduğu prinsiplərə sadiqlik vacibdir. Con Ristin sözləri ilə desək: "İnsan tarixindəki əsas mübarizə, tək olan Tanrı ilə, tam azad olmaq istəyən insan arasında gedir".[4] Cinsi etika münasibətləri ya Tanrının məqsədlərinə itaətlə və

---

3 Metyu Hanley. 2016. *Müasirlik Metafizik Çöküş kimi*. "Catolic Thing" *vebsaytı.* https://www.thecatholicthing.org/2016/07/28/modernity-as-metaphysical-collapse/ .

4 Con M. Rist, 2014. *Deformasiyaya Uğramış Avqustin*: *Qərb Əxlaq Ənənəsində Sevgi, Günah və Azadlıq*. Kembric: Kembric Universiteti Nəşriyyatı, səh. 10.

sədaqətlə xidmət edir, ya da insana ən təkəbbürlü və dağıdıcı şəkildə müstəqilliyi qazandırır.

Seksin elm və ateizmlə ittifaqı onun müstəqilliyini elan etməsi idi. Maarifçilik dövründə elm öz tədqiqat sahəsini yalnız "empirik olaraq təsdiqlənən faktlarla" [5] məhdudlaşdırdı. Artıq elm Tanrının bir şeyi hansı məqsədlə yaratdığını, yəni onun *ilahi* səbəbini (son məqsəd və ya niyyəti) araşdırmaqdan imtina edirdi.

Əslində, elm ümumiyyətlə, Tanrını nəzərə almırdı, çünki Tanrı "gözlə görülüb, təcrübə ilə sübut oluna bilən" bir şey sayılmırdı. Bu, qısa müddətdə elmdə Tanrını qəbul etməməyə əsaslandıran elmçilik fəlsəfəsini yaratdı. Elm, öz prinsiplərinə tam sadiq qalmaq üçün belə nəticəyə gəlir ki, "təcrübə ilə sübut edilə bilməyən heç bir şeyin varlığı qəbul edilə bilməz".[6]

Cinsi etika münasibətləri əvvəlcə Markiz de Sad, daha sonra Vilhelm Reyx tərəfindən araşdırıldıqdan sonra cinsi əlaqə artıq nəsil artırmaq məqsədi daşımırdı. Əslində, elmə əsasən cinsi əlaqənin heç bir məqsədi ola bilməz. Elm cinsi etika münasibətlərini bu şəkildə araşdırdıqda, Aqusto del Noçenin narahatlıqla qeyd etdiyi kimi, "qalan yalnız həyati enerjisidir".[7] Bu həyati enerjiyə qarşı hər hansı məhdudiyyət "zorakılıq"[8] kimi qiymətləndirilməlidir. Stefan Adubatonun qeyd etdiyi kimi, bu "kəşf" kilsəni qəti şəkildə zalım və zorakı rolunda təqdim etdi:

> "Əsasən 'puritan' əxlaqi dünyagörüşü insanın azadlığını və tamlığını məhdudlaşdırmaqda ittiham olunurdu. Elmi və psixoloji araşdırmalar göstərirdi ki, cinsi təzyiq

5 Maykl Kuk, 2016. *Cinsi İnqilab Nə Üçün Baş Verdi? "Intellectual Takeout" vebsaytı*. http://www.intellectualtakeout.org/blog/why-did-sexual-revolution-happen.

6 Eyni mənbə.

7 Peter Leytart, 2015. Seksuallıq və Ənənə. "First Things" vebsaytı. https://www.firstthings.com/web-exclusives/2015/10/sex-and-tradition

8 Stefan Adubato, 2016. İnqilabi Cazibə. "Homiletic and Pastoral Review" jurnalı. http://www.hprweb.com/2016/06/a-revolutionary-attraction/

> insana zərər verir. Buna görə də, bəziləri seksuallığın azad ifadəsini müdafiə edirdi: ‘Seksuallıq sadəcə xoş bir təcrübədir və bundan başqa bir şey deyil. Onun müalicəvi işi, nevrotik davranışı cinsi davranışla əvəz etmək və mənəvi tənzimləmənin insanın özünü idarə etməsi ilə əvəz edilməsidir’. Seksual İnqilab yeni utopiya erasını qarşılamağa hazırlaşırdı”.[9]

Kommunist inqilabı fəhlələrə kapitalistləri “zülmkar” kimi göstərib onlara qarşı mübarizəyə çağırdı. Eləcə də indi seksual inqilab insanları kilsəni cinsi azadlığa qarşı “zülmkar” kimi göstərərək ona qarşı çıxmağa çağırır.[10] Peter Leytart deyir ki, seksual inqilab insanlara belə bir mesaj verir: “Əgər mənə nəyisə etmək olmaz deyirsinizsə, bu mənim ləyaqətimə hörmətsizlikdir. Cinsi sahədə qoyulan hər bir qayda qeyri-təbiidir və insan azadlığına qarşıdır”.

> “Seksual inqilabçılar cinsi əxlaq qaydalarını alt-üst edirlər. Təvazökarlıq, saflıq və nəfsə hakim olmaq kimi əvvəllər yüksək qiymətləndirilən xüsusiyyətlər indi anormal görünür. Artıq ‘cinsi pozğunluq’ anlayışı aradan qaldırılmalıdır. Onlar düşünürlər ki, seksin məqsədi sadəcə zövq almaqdır, başqa məqsədi – məsələn, övlad dünyaya gətirmək olmamalıdır. Ona görə də homoseksual münasibətləri sevginin ən saf və azad forması kimi qəbul edirlər”.[11]

Əgər seksin heç bir məqsədi yoxdursa və sadəcə fiziki və emosional bir şey kimi qəbul olunursa, onda onun əsl mahiyyəti

---

[9] Stefan Adubato, 2016.

[10] Maykl Kuk, 2016.

[11] Peter Leytart, 2015. *Seksuallıq və Ənənə. “First Things” vebsaytı*. https://www.firstthings.com/web-exclusives/2015/10/sex-and-tradition

çox azalıb. Halbuki insanlar seksuallığı tarix boyu "daha dərin bir şey kimi qəbul ediblər və o, təkcə bədən və hisslərdən ibarət olmayıb".[12] Cinsi əlaqə insanın mərkəzində olan "əsas enerji" kimi qəbul olunursa, seksuallığın fiziki və emosional təcrübələri insanın kimliyinin əsas hissəsinə çevrilir. Kilsənin qoyduğu cinsi qaydalardan azad olmaq istəyənlər, özlərini ən güclü hiss etdikləri cinsi istəklərlə tanımağa başlayırlar. Bədən isə sadəcə "istəklərimizi həyata keçirmək üçün istifadə olunan bir vasitəyə çevrilir."[13]

---

[12] "Əslində düzgün şəkildə bizim bütün həyat tərzimizin qaydaya salınması cinsəlliyimizi müəyyən edir – yəni onu qurur və onun həyata keçirilməsi üçün məhdudiyyətlər və istiqamətlər verir." – Efrayim Radner, 2016. *Qoruma Vaxtı: İlahiyyat, Ölüm və İnsan Həyatının Forması*. Veyko, TX: Beylor Universiteti Nəşriyyatı, Loc. 979.

[13] Çarlz J. Çaput, O.F.M. Kap., 2016. *Briqham Yonq Universitetində çıxış: Oyanışlar – İndiki Dövrdə İmanlı Kimi Yaşamaq.* "Archdiocese of Philadelphia" *vebsaytı.* http://archphila.org/address-at-brigham-young-university-awakenings-living-as-a-believer-in-the-nation-we-have-now-2/#_ednref4

# III. Kilsə, Rəbbə bənzəməkdənsə, daha çox onu təqib edənlərə oxşayır

Bu, bir çox məsihçilərin günah hesab etdiyi seksuallığın başa düşülməsi və ifadə formasıdır. Adətən bu mövzu homoseksuallıq və transgenderliklə əlaqələndirilir. Lakin əslində, bədəni istəklərimizə və qərarımıza uyğun şəkildə "formalaşan gil" kimi görmək düşüncəsi — bir çox məsihçinin gündəlik həyatda sakit şəkildə qəbul etdiyi və tətbiq etdiyi anlayışdır.

Həvari Paulun Romalılara 2:3-4-cü ayələrdə dediyi kimi, Allah bizə günahı göstərir ki, başqalarını mühakimə etməyək. Əksinə, Onun səbir və mərhəmətinə güvənərək, *özümüzdə də eyni günahın olduğunu anlayıb səmimi şəkildə tövbə edək.*

Biz məsihçilər, bədənimizlə necə davranmalı olduğumuzu dərk etməliyik. Bu xüsusilə Koreya kimi ölkələrdə vacibdir, çünki burada plastik cərrahiyyə — bədəni arzuladığımız formaya salmaq istəyi o qədər normal sayılır ki, artıq çox orta məktəb qızları üçün bu, məzuniyyət hədiyyəsinə çevrilib. Bu da, əslində, bədənə münasibətdə "gil kimi formalaşdırıla bilən" həmin yanaşmanın təzahürüdür.

Süleymanın Məsəlləri 16:31-ci ayədə bizə deyilir: "Ağaran saçlar şərəf tacıdır, salehlik yolunun qazancıdır". Biz yaşımızı *tac* kimi geyinməyə çağırılmışıq. Əslində bu tac başqaları üçün verilmiş Məsih mərkəzli bir həyata şəhadətlik, bir şəhid tacıdır. Biz isə həyati enerjini təsvir etmək üçün yaşımızı gizlədirik. Amma Müqəddəs Kitab məsihçiləri həyati enerji ilə dolu görünməməlidir.

Müqəddəs Kitab bizə bədənlərimizdə ölümü başa düşməyi və qəbul etməyi öyrədir. Ölümə ondan qorxmalı, qaçmalı və ya

inkar etməli olduğumuz bir şey kimi deyil, hər gün xatırlamalı və fikirləşməli olduğumuz bir həqiqət kimi baxmalıyıq. Bu, diqqətimizi indiki dünyaya deyil, gələcək yeni yaradılışa yönəltmək üçündür. Həvari Paulun dediyi kimi: "Çünki İsanın həyatı fani cismimizdə aydın görünsün deyə biz yaşaya-yaşaya İsa üçün həmişə ölümə təslim edilirik".[14] Başqa sözlə, bizim məsihçi bədənlərimiz bu dünyanın həyatını davam etdirmək üçün bir reklam lövhəsi deyil. Bədənlərimiz ona görə yaradılıb ki, bütün insanların müvəqqəti olduğunu və əminliyimizin bu dünyanın enerjisində deyil, gələcək dünyanın enerjisində olduğunu göstərsin.

Müqəddəs Kitab əslində homoseksual evlilikdən daha çox, məsələn, hörüklü saçlar, qızıllar, mirvarilər və bahalı paltarlar vasitəsilə bu dünyəvi şeyləri nümayiş etdirməməyi tövsiyə edir.[15] Amma biz bu göstərişləri demək olar ki, önəmli saymırıq, halbuki onlara əməl etməklə bədənlə bağlı daha vacib şeyləri öyrənirik.

Beləliklə, bu istəklərin bizi maraqlandıran cinsi ifadələrlə eyni kökdən gəldiyini çox vaxt görə bilmirik. Erkən Koreya kilsəsinin atası Kim Kyo Şin, qızının aldığı krem şüşəsini tapdıqdan sonra, məsihçilərin özümüzü makiyajdan daha çox yaxşı əməllərlə bəzəməyə çalışmasının vacibliyini göstərmək üçün həmin şüşəni daşa çırpdı. O qızına dedi: "Daş kremlə örtüləndə, onun təbii görünüşünü görə bilirsənmi?"[16] Bu gün Kim Kyo Şinin həyatımızda sındırmaq istədiyi çox şey olduğunu anlamaq asandır.

Hətta bu gün bizim məsihçilər arasında yayılmış nikah anlayışı belə, homoseksual nikahla eyni kökdən qidalanır. Çünki bu anlayış mənəvi yoldaşlıq, qarşılıqlı razılıq və romantik

[14] 2 Korinflilərə 4:11.

[15] "Qadınlar da ədəbli görkəmlə, abır-həya və ağıl-kamalla bəzənsinlər. Dəbdəbəli saç düzümü ilə, qızıllarla, mirvarilərlə və yaxud bahalı paltarlarla deyil, mömin olduqlarını bəyan edən qadınlara yaraşan tərzdə xeyirli işlərlə bəzənmələrini istəyirəm." 1 Timoteyə 2:9, 10.

[16] Kim Kyo-Şinin xatirələri. http://www.biblekorea.net/articles/Recollection_of_Kyo-shin_Kim.doc, səh. 200.

məhəbbətə əsaslanır. Lakin Stefan Adubatonun qeyd etdiyi kimi, Məsih və kilsə arasındakı münasibəti əks etdirən nikahın əsasında romantika deyil, daha çox şəhidlik dayanır:

> “Kişi və qadın öz nikahlarında belə bir çağırış alırlar: onlar özləri üçün ölür və həyat yoldaşları vasitəsilə Məsihlə birləşirlər. Bu baxımdan, onlar Məsihlə bir olmaq və Onu ucaltmaq üçün əsl mənada canından keçən şəhidlərin qəhrəmanlıq addımını təkrarlayırlar. Beləliklə, evli kişi və qadın daha az dramatik formada, evliliklərinin və insan həyatının dəyərinin onlardan daha böyük bir şeyə bağlı olduğunu göstərirlər”.[17]

Hətta uşaqlar belə, bu gün Allahın hədiyyəsi kimi qəbul edilməkdənsə, bizim öz seçimimiz və planımızla gil kimi formalaşdırılır. Sosioloq Paul Yonnet bunu belə izah edir:

> “Bu gün uşaqlar valideynlərin müəyyən etdiyi cədvəllərə və vasitələrə uyğun şəkildə dünyaya gətirilir və həyata daxil edilir. Bu, mütləq şəkildə bioloji ana və atanın fiziki iştirakı ilə baş vermir. Beləliklə, uşaq indi hüquqi baxımdan ‘verilən hədiyyə’ deyil, ‘arzu olunan’ bir obyekt olmaqla əldə edilir”.[18]

Uşaqlar, biz məsihçilərin də formalaşdırılmasında iştirak etdiyi bir cəmiyyətə, artıq bizim plan və arzumuza uyğun şəkildə dünyaya gətirilirlər. Məsələn, burada, Koreyada uşaqlar yaxşı iş tapmaq, evlənmək və bir uşağa sahib olmaq, bir neçə uşaq barədə

---

17 Stefan Adubato, 2016. *İnqilabi Cazibə. “Homiletic and Pastoral Review” jurnalı.* http://www.hprweb.com/2016/06/a-revolutionary-attraction/

18 Efrayim Radner, 2016. *Qoruma Vaxtı: İlahiyyat, Ölüm və İnsan Həyatının Forması*. Veyko, TX: Beylor Universiteti Nəşriyyatı, Loc. 2291.

danışmağa belə dəyməz və getdikcə çətinləşən “yeddi şeydən imtina”[19] cəmiyyətində böyüyürlər.

Təəccüblü deyil ki, Eden bağının şərqində bizə verilən rahatlığı axtaran bu gənclərin qarşısını, öz xudbinliklərinin sərt qılıncı kəsir, nəticədə Allahın onlara verdiyi kimliyi mənasızlıq kimi qəbul edirlər. Onlar özlərini K-pop və Koreya seriallarının təsiri altında formalaşdırırlar.

Nəticədə, doğum səviyyəsi o qədər aşağı düşüb ki, Koreya əhalisi qarşıdakı yüz il ərzində indiki sayının yarısına enəcək, qalanların da yarısından çoxu 65 yaşdan yuxarı olacaq.[20] Doğumun müqəddəs hədiyyə və məsuliyyət olduğunu yalnız müsəlmanlar anlayacaq. Digərləri isə özlərini yaratmağa çalışacaq, əslində isə onlar özlərini məhv edəcəklər.

---

19 Hyonq-A Kim, 2015. *Yeddi Şeydən İmtina Nəsli: Cənubi Koreya Gənclərinin Qarşılaşdığı Böhran. “APPS Policy Forum” vebsaytı.* http://www.policyforum.net/the-seven-give-up-generation/.

20 Yun Ja-Yonq, 2016. *Əhali 100 İldə Yarıya Enəcək. “Korea Times” vebsaytı.* http://www.koreatimes.co.kr/www/common/vpage-ptasp?categorycode=488&newsidx=219771.

# IV. Tövbə: gizli kilsəyə ilkin hazırlıq

Pastor Vurmbrand deyir ki, gizli kilsəyə hazırlaşmağın ilk addımı məsihçi həyat tərzimizi yalnız qorumağa çalışmaq deyil, onu tam yaşaya bilmədiyimiz üçün tövbə etməkdir. Başqalarına cinsi münasibətlər barədə dərs verməzdən və ya onların günahına qarşı çıxmazdan əvvəl, biz özümüz tövbə etməliyik. Eləcə də, qurduğumuz həyatın xilası üçün onu Allaha təhvil verməli və məsihçi ənənəsinin bu mövzuda həmişə nəyi qoruduğunu öyrənməliyik. Kimliyimizi özümüz müəyyənləşdirmək əvəzinə, özümüzdən əl çəkərək Həvari Yəhyanın sözlərini qəbul etməliyik: "nə olacağımız hələ üzə çıxmayıb. Lakin bilirik ki, Məsih zühur edəndə biz Ona bənzəyəcəyik, çünki Onu olduğu kimi görəcəyik."[21]

Özümüzü istədiyimiz kimi yaratma düşüncəsi məsihçiliklə uyğun deyil. Amma keçmişdə cinsi inqilabda iştirak etdiyimiz üçün Məsihdə bizə qarşı heç bir məhkumluq yoxdur. Pastor Vurmbrand kommunistlərin bizim düşmənimiz olmadığını demişdi; eyni şəkildə, cinsi inqilabda iştirak edənlərin də Allahın sevgisinə ehtiyacları var. Allahın sevgisi bizi öz xudbinliyimizdən çıxmağa və Yaradanın sevgi dolu qoynuna qayıtmağa çağıran bir işıq kimi təzahür edir.

Amma bu işığı cinsi inqilabın tərəfdarlarına gətirməzdən əvvəl, öz təcrübəmizə əsaslanaraq məsihçi teologiyasını yenidən formalaşdırmağa çalışdığımız aciz cəhdlərimizə görə tövbə etməliyik. Məsihçi ilahiyyatı bəzən bu məsuliyyəti yalnız bir neçə nəfər daşısa belə, iki min ildən artıqdır ki, o, əsas formasını qoruyub. Necə ki, biz özümüzü yenidən yaratmamalıyıq, eləcə də bizə miras qalan imanı dəyişməməliyik. Metodist ilahiyyatçı Tomas Odenin dediyi kimi, ilahiyyatçının məzar daşında yazıla

[21] 1 Yəhya 3:2

biləcək ən gözəl söz budur: "O, ilahiyyata heç bir yenilik əlavə etmədi".[22] Biz Lerinsli Vinsentin dedikləri ilə razılaşaraq məsihçinin çağırışını anlayırıq. Biz "hər yerdə, hər zaman, hər kəs tərəfindən inanılan"[23] bu imanın qorunub saxlanmalı və ona ciddi diqqət yetirilməli olduğunu başa düşürük.

Bu çox vacibdir, çünki cinsi inqilabın bəzi məsihçi tərəfdarları imanı yenidən formalaşdırmaq üçün "sevgi" və "azadlıq" kimi sözlərdən istifadə edirlər. Halbuki bu anlayışlar məsihçilikdə dünyadakından tamamilə fərqli məna daşıyır. Onların mənası postmodern təcrübədən deyil, məsihçi tarixindən və ilahiyyatının ənənəsindən götürülməlidir.

Tarix boyu məsihçi imanına görə, "azadlıq" məhdudiyyətlərin aradan götürülməsi deyil. Bu, günahdan qurtulmaqdır, ya da Avqustinin ifadəsi ilə desək, artıq günah etmək istəmədiyimiz o kamillik halına çatmağa mane olan "əngəllərdən" azad olmaqdır.[24] Bu azadlığı anlamaq üçün onun "son halını", yəni 1 Yəhya 3:2-ci ayədə deyildiyi kimi, "nə olacağımızı" bilməliyik. Dünyada bu yalnız qismən başa düşülür, amma onu tamlığı ilə yalnız Məsihin yanında olduğumuz zaman aydın anlayacağıq. Con Rist, məsihçi azadlığının klassik anlayışını və onun müasir dövrdə necə kiçildiyini belə izah edir:

> "Biz hər zaman yalnız o qədər azadıq ki, həmin mükəmməl son vəziyyətə yaxınlaşırıq. Əgər biz Avqustinin əsl məqsədimizin Allahda dincəlmək olduğu fikrini bir kənara qoysaq və stoiklərin məhdudiyyətləri qəbul etmə

[22] Keyt Şellnat, 2016. *Vəfat Etdi: Klassik Məsihçiliyi Yenidən Kəşf Edən Metodist İlahiyyatçı Tomas Oden*. "*Christianity Today* vebsaytı". http://www.christianitytoday.com/gleanings/2016/december/died-thomas-oden-methodist-theologian-who-found-classical.html

[23] Lerinsli Vinsent. *Nəsihət*, II fəsil, §6; NPNF Seriyası II, XI cild, səh. 132.

[24] Con M. Rist, 2014. *Deformasiyaya Uğramış Avqustin: Qərb Əxlaq Ənənəsində Sevgi, Günah və Azadlıq*. Kembric: Kembric Universiteti Nəşriyyatı, səh. 9.

> üsulundan da imtina etsək, onda yeganə yol mümkün qədər çox şəxsi azadlığı axtarmaq – “məhdudiyyətlər və maneələr” olmadan yaşamaqdır. Bu maneələrə əxlaqi amillər, gələcək nəsli dünyaya gətirmək və tərbiyə etmək kimi öhdəliklər və həmçinin fiziki amillər daxildir: məsələn, kişi və ya qadın olmağın məhdudiyyətlərindən azad olmağı arzulaya bilərik”.[25]

Azadlığın günahdan azad olması kimi başa düşülməsi, Allahın çox sevilməyən məhəbbəti kimi görünən şeyləri anlamağa kömək etmək üçün vacibdir.

Tarixi məsihçi imanında Tanrının sevgisi sadəcə təsdiqləmə, qəbul etmə və ya “yaxşı niyyət” məsələsi deyil. David Şindlerin dediyi kimi, bu sevgi çox daha dərin və tamamilə başqa bir anlayışdır. Tanrının sevgisi “həyatımızı və dünyada olanları gerçək edən ən əsas şeydir, həyatımızın və hər şeyin əsas nizamıdır”. Daha dəqiq desək, bu, “həyatımızda olanlara hər zaman və hər yerdə ən dərin və doğru kateqoriya və məna verən şeydir”.[26] Günahkar dünyada, Tanrının sevgisi Onun lütfü ilə hər şeyi düzəltməkdir. Yəhya 3:16-cı ayədə İsa Nikodimə deyir: “Çünki Allah dünyanı elə sevdi ki, vahid Oğlunu verdi; bunu ona görə etdi ki, Ona iman edən hər kəs həlak olmasın, amma əbədi həyata malik olsun”. Burada Allah Öz Oğlunu sadəcə sevgisini nümayiş etdirmək üçün göndərmədiyini vurğulayır. Əksinə, Tanrı Yəhya 3:17-ci ayədə deyir: “Allah dünyanı mühakimə etmək üçün deyil, Oğlunun vasitəsilə xilas etmək üçün Onu dünyaya göndərdi”. Tanrının sevgisi, günahlı yaradılışı təkrar tənzimləmək deməkdir, belə ki dünya öz yaradılışı və biz də onunla birgə boğulmayaq. Tanrı istəklərimizi düzgün axara qoymalıdır, buna görə də biz əvvəlcə Onun sevgisini təsdiq kimi deyil, bədənimizin ağrılı

---

[25] Eyni mənbə.

[26] David L. Şindler. 2001. *Sevginin Nizamı: Liberal Cəmiyyətlər və Allahın Yadigarı*. Nyu York: Um. B. Eerdmans Nəşriyyatı. Loc. 25-35.

çarmıxlanması kimi təcrübədən keçiririk. Çünki biz yanlış şəkildə tənzimlənmişik, buna görə də Ona müqavimət göstəririk. Tanrının bizə olan məhəbbəti sevgilinin məhəbbəti kimi deyil, düşmənin sevgisi kimidir.

Bu, təbii olaraq arzuladığımız sevgi deyil. Bu, bizi "bədənimizdə deyil, Rəbdə sevindirir".[27] Pastor Vurmbrandın müasir tələbələrindən biri belə qeyd edir: "Vurmbrand qardaş həbsxanada böyük sevinc yaşayırdı, lakin bütün dövrlərdə onun bədəni buna sevinmirdi. Çünki onun bədəni əziyyət çəkirdi, amma ruhu yüksəlirdi".[28] Bu, Allahın məhəbbətinin təzadıdır və bədənimizin qarşılaşa biləcəyi ən acınacaqlı şeylərdən biridir. Allah bizdə yaxşı, doğru olanı təsdiq etmir. Əksinə, Vəhy 21:5-ci ayəyə əsasən, O, "hər şeyi yenidən qurur". Şoversin dediyi kimi, burada yenilənməyə ehtiyacı olduğunu ağlımıza belə gətirə bilmədiyimiz şeylər də var.

> Çoxsaylı arzularımız əslində yaxşıdır və çox güman ki, Allahdan gəlir, amma bizdə köhnə təbiətimizin heç bir hissəsi qalmamalıdır. Biz Məsihdə tamamilə yenidən yaradılmalıyıq. Hətta "yaxşı" şeylər də çarmıxa aparılmalı və İsanın təbiətində yenidən yaradılmalıdır. İyrənc xüsusiyyətlərimiz – yalan danışmaq, söyüş söymək, əylənmək və s. aradan götürülməlidir. Əvəzinə onlar Məsihə xoş gələn şeylərlə, məsələn, doğru danışmağa, dilimizdən yaxşı sözlər çıxarmağa, boş vaxtımızı Müqəddəs Kitab oxumağa və duaya sərf etməyə çevrilməlidir. Lakin ən yaxşı insan xüsusiyyətləri belə İsanın təbiətinə çox ziddir. Buna görə də bizim dürüstlüyümüz, etibarlılığımız, fədakarlığımız və

27 CDP. 2012. *Tanrı Tərəfindən Yönləndirilmiş Olmaq ya Olmamaq.* "Finding the Ancient Path" vebsaytı. https://outpostpilgrim.wordpress.com/tag/richard-wurmbrand/

28 Eyni mənbə.

s. yenidən yaradılmalı və bizə Rəbbin dürüstlüyü, etibarlılığı və fədakarlığı verilməlidir.[29]

İsa bizi sadəcə çarmıxa bənzər həyatdan qurtarmaq üçün ölmədi. Əksinə, O, bizi çarmıxa aparır ki, bu həyat bizim də həyatımız olsun. Bu, Onun həyat verən yoluna gedən yeganə yoldur. O, bizi yalnız öz istəyimizə uyğun yaşamaq üçün azad etmir və bunu təsdiqləmir. Əksinə, bizə Öz həyatını verir ki, onu qəbul edək, öz həyatımız kimi yaşayaq və bu həyatı həmişə dünyaya göstərərək Onun düzgün yolunu önə çıxaraq.[30]

Məsihə olan sevgi, öz istək və arzularımızı kənara qoyub Məsihi seçməkdir. Lütf isə Allahın bizi sadəcə olduğumuz kimi qəbul etməsi deyil, günah və ölümü məğlub edərək, Ona tam təslim olan hər kəs üçün qazandığı qələbədir.

Bu – bizim kiçik məhəbbətimizin Onun böyük məhəbbətinə təslim olması, Onun böyük məhəbbətinin bizim kiçik məhəbbətimizə təslim olmamasıdır. Bu, tarix boyu Gizli kilsədə olduğu kimi, bu gün də bütün dünyada Gizli kilsədə təcəssüm olunur. Bu kilsədən biz çox şey öyrənə bilərik və öyrənməliyik. Gizli kilsə cinsi inqilabın əksidir. Cinsi inqilab öz həyati enerjisini saxlamaq üçün Allahın izzətini qurban verir. Gizli kilsə isə Allahın izzətini qorumaq üçün öz həyati enerjisini qurban verir. Stefan Adubato qeyd edir: "Onların şəhadətliyi... bizə sual verməyə səbəb olur: müasir kişi və qadınlar həyatlarını təkcə özlərinə deyil, başqa bir şeyə həsr edə bilərmi?"[31]

---

[29] April Şovers, 2011. *Qalatiyalılara 5:17-ci Ayənin Mənası nədir? "Talk Jesus"* vebsaytı. http://www.talkjesus.com/threads/galatians-5-17-meaning.35687/

[30] Efrayim Radner. 2016. *Qoruma Vaxtı: İlahiyyat, Ölüm və İnsan Həyatının Forması*. Veyko, TX: Beylor Universiteti Nəşriyyatı, Loc. 55.

[31] Stefan Adubato, 2016. *İnqilabi Cazibə*. "*Homiletic and Pastoral Review*" jurnalı. http://www.hprweb.com/2016/06/a-revolutionary-attraction/

# V. Gizli kilsə nədir?

Gizli kilsə ilə bağlı təsəvvürümüz reallıqdan çox təxəyyülə əsaslanır. Ona görə də biz həmin kilsəyə qoşulmağa hazırlaşmağı belə təsəvvür edə bilmirik. "Gizli kilsə" dedikdə, biz güclü bir hakimiyyətin onu məhv edə biləcəyindən qorunmaq üçün qaranlıqda gizlicə hərəkət edən bir dəstə insanı təsəvvür edirik. Biz evindən səssizcə çıxaraq meşədə ibadətə gedən və ya evində yorğanın altında şam işığında Müqəddəs Kitabı oxuyub ilahiləri pıçıldayan insanları təsəvvür edirik.

Bu təsvirlər tamamilə uydurma deyil. Amma gizli kilsə yalnız dağınıq, gizli və ya təhlükə altında olduğuna görə mövcud olmur. Gizli kilsənin mövcudluğu, ümumiyyətlə təqiblərlə bağlı deyil. Təqiblər sadəcə gizli kilsəni üzə çıxarır, amma onun yaranmasına səbəb olmur.

Gizli kilsə Məsihin işinin pozulmaz quruluşudur və kilsə ya ciddi hücumlar nəticəsində, ya da daxildən çökdüyü zaman artıq özünü qoruyub saxlaya bilməyəndə üzə çıxır. O, belə hallarda ortaya çıxır və məsihçilər Rəbbin bu çağırışına birlikdə tabe olanda yaranır: "Əgər bir buğda dənəsi torpağa düşüb ölmürsə, tək qalır, amma ölürsə, çoxlu məhsul verir".[32] Buna görə də o, gizlində olduğu üçün deyil, torpağa əkilən bir toxum kimi, dünya üçün artıq ölmüş kilsənin hissəsi olduğu üçün "gizli" adlanır. O, dünya üçün artıq ölmüş olduğuna görə, dünyanın hücumlarına da məruz qalmır. Yağış yağanda, sellər gələndə və yellər əsib o evə hücum edəndə də, o möhkəm qalır.[33]

Bu – azad kilsə ilə gizli kilsənin təqibə fərqli şəkildə cavab verməsini izah edir. Azad kilsə təqiblərə ictimai bir təşkilat

[32] Yəhya 12:24.
[33] Matta 7:25.

kimi cavab verir. Hücuma məruz qalanda, o öz maraqlarını, hüquqlarını və inanclarını qorumağa çalışır. Bu kilsə qorxu ilə hərəkət edir və təqibçilərinə qarşı məhkəmələr, etirazlar və ictimai təzyiq cəhdləri ilə mübarizə aparır. Bu mübarizə qəzəb və ümidsizliklərlə doludur və azad kilsənin cəmiyyətə olan təsirini zədələyir. Bəzi mübarizələrdə o uğur qazanır, bəzilərində isə uduzur və bu da onun əleyhinə olanları daha da gücləndirir. Nəhayət, onun özündə də parçalanmalar başlayır, çünki bəzi kilsələr və ilahiyyatçılar düşmənlərlə razılaşırlar və müqavimət göstərənləri tənqid edirlər. Bu prosesdə kilsənin digər hissəsi öz həyatını qorumağa çalışaraq maddi və mənəvi olaraq yorulur. Kilsə özünü müdafiə edərkən, imanından daha çox öz maraqlarına xidmət etmiş olur. Bu, xüsusilə Amerikada baş verir, çünki azad kilsə cinsi inqilabın sürətli hücumuna cavab verməyə çalışır.

Amma bu, gizli kilsənin yolu deyil, çünki o, Məsihə olan əzablı məhəbbət təlimi ilə xarakterizə olunur. Gizli kilsə bir məhəbbət kilsəsidir, amma o öldüyü üçün özünü müdafiə etməyə və ya qorumağa çalışmır. Onun işi yalnız Rəbbə xidmət etməkdir. O, yalnız Allahın Kəlamını dinləyib yerinə yetirməyə və ona verilmiş ilahi irsi qorumağa çalışır ki, ona nə bir şey əlavə olunsun, nə də nəsə çıxarılsın. Gizli kilsə dünyanın müqavimətindən xəbərsiz deyil, çünki o, Rəbbin "Bu dünyada çətinlikləriniz olacaq" nəsihətini ürəkdə saxlayıb. Gizli kilsə qorxu ilə hərəkət etmir, çünki Rəbbin təsəllisini qəbul etmişdir: "amma cəsarətli olun! Mən dünyaya qalib gəldim".[34]

O, Rəbbin əmrinə əməl edir və qılıncını yerə qoymur, ona görə də dünyanın "silahlarını" –məhkəmələrini, mediasını, siyasətini qəbul etmir, əksinə, yalnız Quzunun qanı və Kəlamı ilə silahlanır.[35] Hər hansı bir pisliklə təhqir olunduqda, o, təhqir etmir, söyüldükdə, o, söymür; təqib edildikdə, xeyir-dua verir; öldürüldükdə, bağışlayır. Gizli kilsə dünyaya etibar etmir, çünki

[34] Yəhya 16:33
[35] Vəhy 12:11

o, dünyada nə olduğunu bilir və bundan gizlənmir. O, dünyanın müqavimətini tam şəkildə anlayaraq işini yerinə yetirir və buna uyğun strategiya qurur. Həmişə hətta düşmənlərinə belə xidmət edir, lakin bu xidməti yalnız Rəbbə ünvanlanır və heç vaxt dünyaya bənzəyərək xidmət etmir. Dünya ilə güzəştə getməməyin bədəlini sevinclə ödəyir, Rəbbin adı uğrunda əziyyət çəkməyə layiq olduqda bütün bunları böyük bir sevinc hesab edir.[36] O, həmişə ümidinin səbəbini izah etməyə hazırdır. Lakin o bunu "həlimliklə və ehtiramla edir ki, Məsihdə olan yaxşı davranışı təhqir edənlər ona atdıqları böhtandan utansınlar".[37]

Qısaca, gizli kilsə cinsi inqilab və onun müdaxilələri ilə "mübarizə aparmır". O, sadəcə olaraq kilsə olaraq qalır və məsihçiliyi öz mənfəətinə çevirmir. İmanın ümumbəşəriliyinə heyranlıq və hörmətlə yanaşdığı üçün, bir mövzu üzərində qurulan kilsəyə çevrilməkdən imtina edir. O, bilir ki, tələb olunan şey imanı müdafiə edərək ölmək deyil, onu yaşayaraq ölməkdir. Bu ölüm bəzən bir anda, qanlı bir şəhidliklə baş verə bilər, amma çox vaxt hər gün öz nəfsinə və dünyaya qarşı ölməklə yaşanır. Gizli kilsə bu cür gündəlik fədakarlığı əsl şəhidlik kimi dəyərləndirməyi öyrənmişdir.

Tarixdə gizli kilsə binasız, hüquqi statusdan və dünyəvi imkanlardan məhrum şəkildə təsvir olunursa, bu yalnız ona görədir ki, o, "özünü inkar edən" bir kilsə olmağı öyrənmişdir. O, kapitalist rəhbərlərini, əxlaq normalarını və ya köhnəlmiş cinsi etikanı deyil, əksinə "qarşısını alan hər şeyi və ona asanlıqla dolaşan günahı" atmağı öyrənmişdir.

> "Buna görə də bu qədər böyük şahidlər buludu ilə əhatə olunduğumuz üçün biz hər bir yükü və bizi asanlıqla çaşdıran günahı tərk edib qarşımızdakı yarışda dözümlə qaçaq. Gözümüzü imanımızın Banisi və Kamilləşdiricisi

36 Yaqub 1:2; Həv. İşləri 5:41.
37 1 Peter 3:15-16.

> olan İsaya dikək. O, qarşısına qoyulan sevincə görə rüsvayçılığı heç sayıb çarmıxa çəkilməyə tab gətirdi və Allahın taxtının sağında oturdu".[38]

Gizli kilsə binaları, denominasiyaları, həyat tərzini və öz maraqlarını müdafiə etməyə çağırılmamışdır. Beləliklə, gizli kilsəyə hazırlaşmaq, cinsi inqilabla döyüşməyə hazırlaşmaq deyil, əksinə, onunla döyüşməməkdir. Bu, Müqəddəs Ruhun rəhbərliyi ilə qurulmuş, amma gizli kilsənin əsası olmayan azad kilsə quruluşlarının dağılmasına hazırlaşmaq deməkdir. Gizli kilsəyə hazırlaşmaq dünyanın bizdən bütün izzət geyimlərimizi götürdükdə çılpaqlığımızı yalnız Rəbbin izzəti ilə örtdüyümüz bir vaxtda məsihçi olmaqdır.

[38] İbranilərə 12:1-2.

# VI. Hazırlıq zamanı yaxındır

Bu bizi yenidən “niyə gizli kilsəyə hazırlaşmalıyıq” sualına qaytarır. Çünki biz cinsi inqilaba mane olan tərəfik və Efeslilərə 4:24-cü ayədə deyildiyi kimi biz “əsl salehlik və müqəddəsliklə Allaha bənzər yaradılmış yeni mənliyə bürünənlərik”. Bu, bizim seçim edəcəyimiz bir məsələ deyil. Azad dünyanın hakimiyyətləri və xalqları cinsi inqilaba görə bizə qarşı mövqe tutublar.

Biz, həm kilsənin, həm də azad dünyanın övladları olaraq, bunların arasında seçim etməyə və azadlığı boğanlar kimi göstərilməyə alışmamışıq. Lakin İsa bizə dünyanın verdiyi kimi təklif etmir. Dünya, o cümlədən azad dünya, günah etmək azadlığını qorumaq üçün günahsızlığı məhdudlaşdırırsa, bu “azad dünya” sadəcə adi dünyadan fərqlənmir. Bu “dünya” həmişə Allahın işlərinə qarşı düşmən mövqeyində olub.

Nəticədə, ənənəvi məsihçilik nə Cənubi Koreyada, nə də Şimali Koreyada daha məşhur deyil, çünki ənənəvi məsihçilik istənilən cəmiyyətin təməl prinsiplərini sual altına atır və sarsıdır. Məsələ bizim kommunist, yoxsa kapitalist cəmiyyətində yaşamağımız deyil. Əsas olan odur ki, Allah üçün harada yaşamaq daha xoşdur, yəni O harada yaxşı qarşılanır və qəbul edilir. Görünür ki, O, nə Cənubi Koreyada, nə də Şimali Koreyada yaxşı qarşılanmır. Çünki O, nə cinsi inqilabın, nə də kommunist inqilabının Tanrısıdır. Bu inqilabların hər ikisi eyni qəpiyin iki üzüdür və hər ikisi tək Tanrılı Allaha qarşı öz mütləq hakimiyyətini qurmaq istəyən insan nəslinin məhsuludur.[39] Bu iki inqilab eyni kökdən qaynaqlanır. Koreyanın silahsızlaşdırılmış zonasının (DMZ)

[39] John M. Rist, 2014. *Deformasiyaya Uğramış Avqustin*: *Qərb Əxlaq Ənənəsində Sevgi, Günah və Azadlıq*. Kembric: Kembric Universiteti Nəşriyyatı, səh. 10.

hər iki tərəfindən bir-birinə baxanlar – biri kommunist inqilabı, digəri isə cinsi azadlıq inqilabı ilə aldadılmış insanlar – əslində eyni kökdən gələn, Allaha qarşı üsyan edən bir insan düşüncəsinin fərqli üzlərini təmsil edirlər.

Cənubi Koreya hökuməti təkcə cinsi inqilabın bir hissəsi deyil, o eyni zamanda onun ən fəal təbliğatçılarındandır. Hələ məşhur "Qanqnam Stayl" mahnısından xeyli əvvəl, 2011-ci ildə, KPOP və Koreya serialları kimi "mədəniyyət ixracı" adlandırılan sahənin illik gəliri artıq 4 milyard ABŞ dolları idi. Bu sahənin ümumi dəyəri isə 83,2 milyard dollar olaraq göstərilir. Hökumət milli büdcənin 1%-ni bu məşhur mədəniyyətin inkişafına ayırır və bu məqsədlə 1 milyard dollardan artıq bir fond saxlayır. Bu isə o deməkdir ki, dövlət vətəndaşların vergilərindən ayrılan pulla KPOP (Koreya pop musiqi) kliplərini başqa dillərə tərcümə edir və digər ölkələrin televiziya kanallarında yayımlanması üçün təşəbbüs göstərir.[40]

Cənubi Koreya yaxşı bilir ki, məşhur sənətçiləri plastik əməliyyat edəndə, yeni telefon və ya saç düzümü seçəndə, müəyyən bir kosmetikadan və ya bahalı qadın çantasından istifadə edəndə, xalq da onları təqlid edir və bu da ölkə iqtisadiyyatına fayda gətirir. Bu o deməkdir ki, Cənubi Koreya hökuməti bu dəyərlər qarşısında neytral deyil. Bu gün yayımlanan Koreya seriallarını və KPOP mahnılarını 10 il əvvəlkilərlə müqayisə etdikdə, getdikcə sərhədləri pozan seksual mövzuların gaha geniş yer aldığını görmək olur. Hökumət qlobal mədəni dəyişikliklərini yaxından izləyir. O bu "dəyişən dəyərləri" öz mədəniyyət məhsullarında əks etdirməyə çalışır və bu dəyərləri "öz mədəniyyətinin dünyada yayılması və istehlakçılarının artması üçün ən güclü vasitə"[41] hesab edir.

---

[40] Melisa Leonq, 2014. *Koreya Dünyanın ən Dəbli Markasına Necə Çevrildi.* "*Financial Post*" vebsaytı. http://business.financialpost.com/news/retail-marketing/how-korea-became-the-worlds-coolest-brand

[41] Çunq Cu-von və Li Eun-cunq, 2016. (Xəbər Fokusunda) "K-Pop və K-serialları marağı artırmaq üçün ümumbəşəri dəyərləri mənimsəyir."

Cənubi Koreya hökuməti öz mədəni sərvətlərini təkcə iqtisadi məqsədlər üçün deyil, həm də ideoloji müharibə üçün, xüsusən də Şimali Koreya ilə əlaqəsi üçün istifadə edir. Artıq sərhəddən qarşı tərəfə ötürülən şeylər siyasi çıxışlar deyil, KPOP mahnılarıdır. Dronlarla və MP3-lərlə göndərilənlər kapitalizm haqqında çıxışlar deyil, insanların düşüncəsini dəyişdirən Koreya seriallarıdır.

Beləliklə, Cənubi Koreya hökumətinin cinsi inqilaba tab gətirməkdə müttəfiqimiz olmasını gözləməməliyik. Koreya kilsələrinin Koreya hökuməti ilə tarixən güclü münasibətlərini nəzərə alsaq, Koreya hökumətinin ölkənin milli maraqlarını irəlilədəcəyinə inandığı şeyləri dəstəkləyərək, bizdən bu məsələdə *onun müttəfiqi olmağımızı gözləyəcəyini təxmin edə bilərik.*

Məsələn, belə bir vəziyyət Danimarka, Finlandiya, İslandiya, Norveç və İsveçdən ibarət Skandinaviya ölkələrində mövcuddur. Maarit Yentere-Yareborq İsveçdəki Uppsala Universitetinin hüquq professorudur. O, məsihçi baxışından deyil, Skandinaviya cəmiyyətində qanunların baxış bucağından yazaraq bildirir ki, bu ölkələrin hökumətləri cinsi inqilab məsələsində kilsədən nə gözləyir. O, açıq şəkildə yazır: “Dövlətin hətta bu barədə hökm vermək səlahiyyəti olmasa belə, kilsələrdən, xüsusilə də milli Xalq kilsəsindən[42] bu yeni dəyişikliklərə uyğunlaşmağı gözləyə bilər.”[43] O həmçinin qeyd edir ki, bu məsələdə kilsə dövlətin ümidlərini boşa çıxarmayıb:

---

“*Yonhap News Agency*” vebsaytı. http://english.yonhapnews.co.kr/focus/2016/10/31/88/1700000000AEN20161031007600315F.html

42 Avropada iki növ kilsə mövcuddur: Milli (və ya Xalq) Kilsəsi və Azad Kilsə. Milli Kilsələr Avropa ölkələrinin rəsmi kilsələri hesab olunur. Onlar dövlət tərəfindən dəstəklənir və vergi gəlirləri ilə maliyyələşdirilir. Azad Kilsələrin isə hökumətlə heç bir rəsmi əlaqəsi yoxdur və yalnız icma üzvlərinin ianələri ilə maliyyələşir.

43 İçində: *Cek Fridman, Timoti Şo və Tomas Farr (red.), Dini Azadlıq və Qeyri-ənənəvi Hüquqlar: ABŞ və Avropada Ortaya Çıxan Münaqişələr*. Oksford: *Oksford Universiteti Nəşriyyatı*, Loc. 5595.

Bəs necə izah etmək olar ki, Xalq kilsələri əvvəllər qeydə alınmış eyni cinsli tərəfdaşlıqlara və daha sonra eyni cinsli nikaha qarşı çıxmalarına baxmayaraq, bu münasibətlərin qanuni şəkildə rəsmiləşdirilməsinə tədricən uyğunlaşdılar? Bu kilsələrin tarixi rolu budur ki, onlar hələ də ölkədə yaşayan insanların çoxunun üzv olduğu xalq kilsələridir. Belə olduqda, cəmiyyətin bir hissəsi olaraq qalmaq istəyən bir Xalq kilsəsi dövlətlə münasibətləri zəif olsa belə, cəmiyyətdəki əsas dəyərlərdən uzaq olan dəyərləri qoruyub saxlaya bilməz. Məsələn, bir neçə il əvvəl Finlandiya kilsəsinin yepiskopu eyni cinsli münasibətlərə dair tənqidi fikirlər söylədikdə, minlərlə üzv kilsəni tərk etmiş və bu hadisə Finlandiya mediasında ölkə səviyyəsində geniş şəkildə müzakirə olunmuşdu.[44]

O, kilsə ilə dövlətin cinsi inqilaba görə barışdıqları görüş nöqtəsini belə ifadə edir:

> Müqəddəs Kitab teologiyası baxımından, sevgi əmri İncildəki bütün digər əmrlərdən və qadağalardan üstündür. Birgə yaşayış formaları ilə bağlı həlledici amil Müqəddəs Kitabın fərdi hissələri deyil, insanların xeyrinə və ya zərərinə olan şeydir. Bu o deməkdir ki, kilsə eyni cinsli cütlüklər üçün nikah haqqında rəy formalaşdırarkən, veriləcək əsas sual bunun insanlara zərər və ya fayda verib-verməməsidir.[45]

Bu “məhəbbət”in tərifini, məsihçi ənənəsinin mərkəzində duran anlayışı tamamilə təkzib edir: Məhəbbət, Allahın dünyanı mükəmməl şəkildə tənzimləməsi (və Onun lütfü ilə yenidən tənzimləməsi), bizi günahdan, cismimizin çarmıxa çəkilməsi

[44] Maarit Yentere-Yareborq, 2016, Loc. 5631.
[45] Yuxarıdakı mənbə, səh. 5667.

ilə azad etməsidir. Ənənəmizin iki min il yaşı olan məhəbbətin tərifini dəyişdirməyən məsihçilərə qarşı nifrət getdikcə artır. Onlar təhlükəli kimi göstərilir, izlənir, məhdudlaşdırılır və gülünc vəziyyətə salınırlar.

Peter Leytart qeyd edir ki, bu, Avqusto del Noçe tərəfindən bir nəsildən daha əvvəl proqnozlaşdırılmışdı. Del Noçe, möhtərəm Vurmbrand ilə təxminən eyni dövrdə yaşamış məsihçi filosofu olub faşizm və kommunizm dövrünü İtaliyada yaşamışdı. Del Noçe hiss edirdi ki, azad dünyadakı kilsə, cinsi inqilabın qarşısında kommunizm altında qarşılaşdığından daha böyük çətinliklərlə üzləşəcək. Peter Leytart, Del Noçenin cinsi inqilab qarşısında imanını qurban verməyən məsihçilərlə nə olacağını belə bildirir:

> “Əlində qalan uca mənəvi dəyərlərə inananlar cəmiyyətdən kənarlaşdırılacaq və ikinci dərəcəli vətəndaşlara çevriləcəklər. Onlar sonda ‘əxlaqi’ konslagerlərə salınacaqlar. Amma heç kim düşünə bilməz ki, əxlaqi cəzalar fiziki cəzalardan daha yüngül olacaq. Bu prosesin sonunda mənəvi soyqırım durur”.[46]

Hazırda Avropa ölkələrində baş verən hadisələri nəzərə alsaq, bunun səbəbini anlamaq çətin deyil. Leytartın qeyd etdiyi kimi: “Bütün ilahiyyat fikirləri liberalizmin azadlıq və ədalətlə bağlı özünəməxsus baxışını irəli aparıb-aparmadığına görə mühakimə olunacaq”.[47] Kilsədən kənara çıxmağa icazə verilən yeganə ilahiyyat fikirləri isə cinsi inqilabı boğanlar yox, onu irəli aparanlar olacaq.

46 Avqusto del Noçe, 2015. *Müasirlik Böhranı.* Kinqston, Ontario: MakGil Kuins Universiteti Nəşriyyatı, səh. 153.

47 Peter Leytart, 2016. *Hakimlər, Oyunçular və Dini Azadlıq.* “First Things” vebsaytı. https://www.firstthings.com/blogs/leithart/2016/09/referees-players-and-religious-liberty

Beləliklə, din azadlığı, dövlətin cinsi qaydalarına qarşı çıxanlar üçün yalnız ibadət etmək haqqı kimi qəbul edilir. İbadət azadlığı o deməkdir ki, biz istədiyimizi öz binalarımızın içində deyə bilərik, təki bu, binamızın çölündə etdiklərimizə təsir etməsin. Təəssüf ki, bu, tarix boyu bir çox kilsələrin qəbul etməyə hazır olduğu bir razılaşma olub.

Bəlkə də elə bu səbəbdəndir ki, gizli kilsə rəsmi kilsə binalarında deyil, daha çox evlərdə mövcuddur. Çünki azad kilsəni qoruyub saxlamağın bədəli çox yüksəkdir və bu bədəl yalnız maliyyə ilə məhdudlaşmır. Allahın Müjdəsi o qədər dərindir ki, əxlaqi *gettolara* sıxışdırıla bilməz. Buna görə, azad dünya ölkələrinin hökumətləri “hamı üçün azadlığı qorumaq” adı ilə kilsəyə məhdudiyyətlər qoyduqca, biz də öz imanımıza sarılırıq. Belə ki məsihçi azadlığı bizdən gizli kilsəyə hazırlaşmağı tələb edir.

# VII. Silsilənin 2-ci və 3-cü cildi haqqında

Bizim vəziyyətimiz çətin və bənzərsizdir, çünki keçmişdə, təqiblər başladıqda, kilsə ailəvi gizli köklərinə qayıda bilərdi. Yəni, pastor Vurmbrandın məqaləsindən də görünür ki, kilsə ailələr arasında görüşə bilərdi, çünki məsihçilik hər halda imanın "ilk kilsəsi" olaraq ailəni qəbul etmişdi.[48] Radnerin qeyd etdiyi kimi, ailə həm "ruhani formalaşma üçün bənzətmələrin əsasını" təşkil edir, həm də "ruhani formalaşmanın reallaşdığı əsl sahə"dir.[49] Ənənələrin ötürüldüyü yer də məhz buradır, xüsusilə də, Avqusto del Noçenin qeyd etdiyi kimi, "pozulmaz tək evlilik ideyası və bununla bağlı olan digər dəyərlər (təvazökarlıq, paklıq, nəfsinə hakim olmaq)"[50] burada qorunur və başqa nəsillərə ötürülür. Məsihçi ideyaları olan şərəf, dini subaylıq və dostluq da burada qorunur.

Lakin məhz ailə cinsi inqilab tərəfindən kökündən dağılıb. Buna görə də, bu kitabın ikinci və üçüncü cildləri məsihçiliyin "ilk kilsəsi" olan ailənin gizli kilsəyə hazırlaşması mövzusuna həsr olunub. İkinci cildi olan *Gizli Kilsənin Yaranması* kitabı gizli kilsələrin "kürsüdən aşağıya" deyil, "ailə zəminindən yuxarıya doğru" necə qurulmasına dair praktik bir bələdçidir. Üçüncü cild olan *Gizli Kilsədə Yaşamaq* isə məsihçilərin gizli kilsə şəraitində Allah Kəlamını eşidib Ona itaət etmələri üçün kilsə ənənəsinə

[48] 1 Timoteyə 3:1-5.

[49] Efrayim Radner. 2016. *Qoruma Vaxtı: İlahiyyat, Ölüm və İnsan Həyatının Forması*. Veyko, TX: Beylor Universiteti Nəşriyyatı, Loc. 2097.

[50] Avqusto del Noçe. 2015. *Müasirlik Böhranı*. Kinqston, Ontario: MakGil Kuins Universiteti Nəşriyyatı, səh. 161.

əsaslanan şagirdlik yolları və izahları təqdim edir. Duamız odur ki, biz məsihçi ilahiyyatına yeni heç nə əlavə etməyək.

Məhz buna görə də, bu silsilənin birinci cildində indi təxminən qırx il əvvəl yazılmış bir məqaləyə müraciət edirik ki, məsihçi baxımından bu gün qarşılaşdığımız heç bir şeyin əslində yeni olmadığını görək. Çünki bütün dövrlərdə və məkanlarda, o cümlədən burada, Cənubi Koreyada da məsihçilər hər an Müjdəni təbliğ etməyə, dua etməyə və ya lazım gəlsə canlarını qurban verməyə hazır olmalıdırlar.

# GİZLİ KİLSƏYƏ HAZIRLAŞIN

Riçard Vurmbrand tərəfindən

# Gizli kilsəyə hazırlaşın – indi

“Xananya cavab verdi: ‘Ya Rəbb, bu kişi barədə çoxlarından eşitmişəm ki, Yerusəlimdə Sənin müqəddəslərinə nə qədər pislik edib’. Amma Rəbb ona dedi: ‘*Get, çünki o, Mənim adımı başqa millətlərə, padşahlara və İsrail övladlarına daşımaq üçün Mənim seçdiyim alətdir. Mənim adım uğrunda çəkəcəyi əzabın nə qədər böyük olduğunu ona göstərəcəyəm*’” (Həvarilərin İşləri 9;13,15,16).

Mənim bildiyim qədər dünyada Gizli kilsə haqqında bir kurs, tədris edən heç bir teoloji seminariya, Müqəddəs Kitab məktəbi və ya universiteti mövcud deyil. Seminariyalarda Sebalianizm və Apollinarizm haqqında məlumat ala bilərsiniz. Seminariyanı bitirdikdən beş dəqiqə sonra onları unudacaqsınız. Bəlkə də heç vaxt Sebalyan və ya Apollinarla qarşılaşmayacaqsınız. Biz, Koptik kilsə və həyatımızda heç vaxt rastlaşa bilməyəcəyimiz bütün kiçik məzhəblər haqqında öyrənirik. Gizli kilsə, əvvəllər belə bir kilsəyə qoşulacaqlarını ağlına belə gətirməyən milyonlarla insanın kilsəsidir. Amerika “Uatergeyt” siyasi qalmaqalı ilə məşğul olarkən, kommunistlər on beş ölkəni ələ keçirdi. İslam və humanizm təsir gücü qazanır. Məsihçi pastorlar gizli kilsənin nə olduğunu və nə etdiyini bilməlidir. Mən Böyük Britaniyada bir yepiskopla gizli kilsə işləri haqqında bir saatdan çox danışdım. Nəhayət, o dedi: “Siz mənim hobbimdən danışırsınız; mən kilsə arxitekturası ilə çox maraqlanıram. Xahiş edirəm, mənə deyin, gizli kilsələr öz binalarında Qotik üslubundan istifadə edirlərmi?”

Mən sizə bu yepiskopun kim olduğunu desəm, bu cür məşhur bir insanın belə bir sual verəcəyini təsəvvür belə etməzsiniz.

Gizli kilsə çox tanınmır. O, düz yanımızdadır, amma biz ona qoşulmağa hazır deyilik və bunun üçün hazırlığımız yoxdur. Hər bir məsihçi pastoru indi bütün dünyanı öz cəmiyyəti kimi görməlidir, çünki biz faciəvi vəziyyətlərlə üzləşə bilərik. Hətta bu vəziyyətlərə düşməsək də, onlara düşənlərə kömək etmək və təlim vermək bizim borcumuzdur.

Müsəlman xalqlarında, Qırmızı Çində və başqa yerlərdə bir çox mömin imanlılar həlak oldular. Çoxları həbsxanaya düşdü, bəziləri həbsxanada öldü. Biz bununla qürurlana bilmərik. Ən yaxşısı isə biz gizli kilsədə fəaliyyətləri necə yerinə yetirəcəyimizi yaxşı öyrənməliyik.

# Əzablara hazırlıq

Gizli kilsədə əzabın qarşısını almaq mümkün deyil, çoxlu tədbirlər görülsə də, əzab minimuma endirilməlidir.

Gizli kilsə haqqında qısa zamanda dərs keçmək mümkün deyil. Sizə tövsiyə edirəm ki, toplantınıza və ya təriqətinizə gizli kilsə ilə bağlı dərslərin keçirilməsini təklif edəsiniz.

Zülmkar qüvvələr ölkəni ələ keçirəndə nə baş verir? Mozambik və Kambocada olduğu kimi bəzi ölkələrdə dərhal terror başladı. Başqa yerlərdə heç vaxt olmadığı kimi din azadlığı yarandı. Bəzi rejimlər real gücə malik olmadan hakimiyyətə gəlirlər. Xalq onların tərəfində deyil. Onlar hələ də öz polislərini və ordularının şəxsi heyətini təşkil etməyiblər. Rusiyada kommunistlər pravoslavları məhv etmək üçün dərhal protestantlara böyük azadlıq verdilər. Onlar pravoslavları məhv etdikdən sonra növbə protestantlara gəldi. İlkin vəziyyət uzun sürmür. Bu müddət ərzində onlar kilsələrə daxil olaraq rəhbərliyə öz adamlarını qoydular. Onlar pastorların zəif tərəflərini aşkar edirlər. Bəzi pastorlar iddialı kişilər ola bilər, bəziləri isə pulpərəstliklə tələyə düşə bilərlər. Digərləri isə gizli günahlarına görə, şantaj oluna bilərlər. Hökumət adamları belə günahları açıqlayacaqlarını və bununla da rəhbərliyə öz adamlarını qoyacaqlarını bildirirlər. Sonra, müəyyən bir vaxtda böyük təqiblər başlayır. Rumıniyada belə bir sıxışdırma bir gündə baş verdi. Bütün katolik yepiskopları saysız-hesabsız pastorlar, rahiblər və rahibələrlə birlikdə həbs olundular. Sonra bütün məzhəblərdən olan bir çox protestant pastorları həbs edildi. Çoxları həbsxanada öldü.

Rəbbimiz İsa Xananyaya dedi: "Şaul olan Tarsuslu bir adamı soruş… bu adam seçdiyim alətdir". O, Paul barədə belə dedi:

"Mənim adım uğrunda çəkəcəyi əzabın nə qədər böyük olduğunu ona göstərəcəyəm" (Həvarilərin İşləri 9:16).

Gizli kilsəyə hazırlıq əzablar, şəhidlik barədə öyrənməklə başlayır. Soljenitsın *Qulaq arxipelaq*ı kitabında deyir ki, keçmiş Sovet İttifaqında polis zabitlərə "həbsşünaslıq" fənni, yəni insanları necə həbs etmək olar ki, ətrafda heç kim heç nə hiss etməsin adlı bir fənn keçirdilər. Əgər onlar "həbsşünaslıq" adında yeni bir termin yaradıblarsa, gəlin biz də "əzabşünaslıq" adlı yeni termin yaradaq.

Daha sonra gizli kilsə işlərinin texniki tərəfinə baxacağıq, amma ilk növbədə bunun üçün müəyyən ruhani hazırlıq olmalıdır. Azad ölkədə kilsənin üzvü olmaq üçün Məsihə inanmaq və vəftiz olunmaq kifayətdir. Gizli kilsədə yalnız onun üzvü olmaq kifayət deyil. Siz iman edib vəftiz ola bilərsiniz, ancaq necə əzab çəkəcəyinizi bilməsəniz, əks halda gizli kilsənin üzvü olmayacaqsınız. Dünyada ən güclü imana sahib ola bilərsiniz, amma əzab çəkməyə hazır deyilsinizsə, o zaman polis sizi tutub iki sillə vuranda hər şeyi açıb deyəcəksiniz. Deməli, əzab-əziyyətə *hazırlıq* gizli kilsəyə hazırlıqda vacib olan məsələlərdən biridir.

Məsihçi həbsxanaya salınsa, panikaya düşmür. Adi imanlı üçün həbsxana Məsih üçün yeni şahidlik yeridir. Bir pastor üçün həbsxana yeni bir kilsədir. Bu, böyük gəliri olmayan, lakin iş üçün böyük imkanları olan bir kilsədir. Bu barədə bir az *Tanrı ilə T*əkadamlıq *Kamerada* kitabımda danışacağam. Digər kitablarda mən gizli kilsə üçün təlimin bir hissəsi olan Morze kodunu qeyd etmişəm. Bunun nə olduğunu, mesajların ötürüldüyü bir kod olduğunu bilirsiniz. Bu kod vasitəsilə siz sağınızda və solunuzda olan otaqlara Müjdəni təbliğ edə bilərsiniz. Məhkumlar həmişə dəyişir. Bəziləri kameradan çıxarılır, ora digərləri salınır. Allah həbsdə olan bir çox məsihçilərə Morze əlifbası vasitəsilə heç vaxt görmədikləri adamları Məsihə gətirmək imkanları verib. Digərləri, uzun illərdən sonra Morze əlifbası vasitəsilə Məsihə iman gətirdikləri bu adamlarla tanış olublar. Ümumi kameralarda mənim bir neçə kilsəm olub.

Bazar günü səhər azad dünyanın kilsələrində zəng çala bilərsiniz. İnsanlar istəsələr kilsəyə gəlirlər, istəməsələr gəlmirlər. Bir nəfərin bazar günü kilsədə sizin danışdıqlarınızdan xoşu gəlməsə, növbəti bazar günü o, daha gəlməyəcək. Əgər yağış yağsa, o gəlməyəcək. Amma kilsəniz həbsxana kimi yerdə olanda onda bütün gün məhbuslar sizinlə birlikdə olur. Azad insanlar tez-tez saatlarına baxıb deyirlər: "Artıq otuz dəqiqədir ki, pastor təbliğ edir. Görəsən o, vəzi nə vaxt bitirəcək?" Həbs edilən zaman əlinizdən saatlar alınır; bütün həftə sizinlə birlikdə olan məhbuslar var və səhərdən axşama qədər onlara təbliğ edə bilərsiniz! Onların seçimi yoxdur. Nə Rumıniya tarixində, nə də Rus kilsəsinin tarixində heç vaxt həbsxanada olduğu qədər çoxlu insan Məsihə iman etməmişdi. Ona görə də həbsxanadan qorxmayın. Buna Allahın verdiyi yeni bir tapşırıq kimi baxın. Yadımdadır ki, ikinci dəfə həbs olunanda polislərlə getməzdən əvvəl arvadımı qucaqlayanda mənə dedi: "Riçard, yazılanları xatırla: "...şəhadət etmək üçün siz Mənə görə valilərin və padşahların qarşısına aparılacaqsınız" (Matta 10:18).

İnsanlar şəhadət etməyi qəbul edə bilərlər. Bəs məhbuslara verilən dəhşətli işgəncələr necə qəbul edilə bilər? Bu işgəncələrə dözə biləcəyikmi? Əgər onlara dözməsəm, onda tanıdığım əlli-altmış adamı da zindana salacağam, çünki məndən bunu tələb edirlər. Beləliklə, əzablara hazırlıq üçün indi böyük ehtiyac yaranır. Həbsxanada olanda özünü buna hazırlamaq çox çətindir.

Yadımdadır, Rumıniyada iyirmi il pastor olan bir nəfər bir qadınla günah işlətmişdi. Digər pastorlar bunu müzakirə edib dedilər: "O pastorun günahı həmin axşam etdiyi bir günah deyildi, şərait elə idi ki, o, şirnikləndiricilərə qarşı dura bilməmişdi. Daha doğrusu, iyirmi il əvvəl o, bu cür sınaqlara məruz qalmayanda öz-özünə *deməmişdi* ki, pastorluq həyatımda başıma müxtəlif hadisələr gələcək. Başqa şeylərlə yanaşı, zina günahı ilə sınağa düşəcəyəm. Mən o vaxt həmin günahı etməyəcəyəm". Bütün *hadisələrə* əvvəlcədən hazırlaşmalısınız.

# Həqiqət haqqında həqiqət

Hər birimiz nə qədər əziyyətə dözəcəyimizi, imanımıza nə qədər bağlı olduğumuza, onun bizim üçün nə qədər dəyərli və vacib olduğuna görə müəyyən edirik.

Bu baxımdan kommunist ölkələrində çox böyük sürprizlər yaşadıq. Məsihçi kitablarının təbliğatçıları və yazıçıları olub ki, onlar sonralar satqınlıq etdilər. Rumıniyanın ən yaxşı məsihçi himnlərinin bəstəkarı sonralar məşhur kommunist himnlərinin bəstəkarı oldu. Hər şey bizim söz sferamızda qalıb-qalmamağımızdan və ya ilahi gerçəkliklərə qovuşmağımızdan asılıdır.

Tanrı Həqiqətin Özüdür. Müqəddəs Kitab – Həqiqət barəsində olan həqiqətdir. İlahiyyat – Həqiqət barəsində olan həqiqətdir. Yaxşı bir vəz isə – Həqiqət barəsində olan həqiqətdir. Amma onların heç biri Həqiqətin özü deyil. Həqiqət yalnız Tanrının Özüdür. Bu Həqiqətin ətrafında sözlərdən, ilahiyyatlardan və şərhlərdən ibarət sanki bir dayaq qurulub. Amma əzab zamanı onların heç biri kömək etmir. Yeganə kömək edən – Həqiqətin Özüdür. Biz vəzlərdən, ilahiyyat kitablarından, "sözlər" olan hər şeyin arasından keçib, Tanrının gerçəkliyinə bağlanmalıyıq.

Mən Qərbdə dörd gün və dörd gecə məsihçilərin çarmıxa necə bağlandıqları haqda danışdım. Çarmıxlar döşəməyə qoyuldu, məhbuslara işgəncə verildi və onlar ələ salındı. O vaxtdan bəri məndən soruşurlar: "Hansı Müqəddəs Kitab ayəsi bu şəraitdə sizə kömək etdi və sizi gücləndirdi?" Cavabım belədir: "Müqəddəs Kitabın heç bir ayəsi mənə kömək etmədi. Bu Müqəddəs Kitab ayəsi məni gücləndirdi və ya mənə kömək etdi" demək açıq-aşkar ikiüzlülükdür. Müqəddəs Kitab ayələri təkcə kömək üçün nəzərdə tutulmayıb. Biz 23-cü Məzmuru

bilirdik: "Rəbb mənim Çobanımdır... ölüm kölgəsinin dərəsində gəzsəm belə..."

Əzabdan keçəndə başa düşürsən ki, Allah heç vaxt 23-cü Məzmur vasitəsilə bizi gücləndirməyi nəzərdə tutmayıb. Sizi gücləndirə bilən məzmur deyil Rəbdir. Məzmurun olması kifayət deyil. Biz həmçinin "Lütfüm sənə kifayətdir" ayəsini bilirdik (2 Korinflilərə 12:9). Lakin ayə deyil, lütf kifayətdir.

Kəlamı Allahın çağırışı kimi qəbul edən pastorlar və əzmkar şahidlər müqəddəs sözlərə həqiqətən olduğundan daha çox dəyər vermək təhlükəsi ilə üzləşirlər. Müqəddəs sözlər yalnız onların ifadə etdiyi reallığa çatmaq üçün vasitədir. Əgər sizdə Həqiqət, uca Rəbb varsa, şər sizin üzərinizdə gücünü itirəcək, çünki o, Külli-İxtiyar Rəbbə qalib gələ bilməz. Əgər sizdə yalnız uca Rəbbin sözləri varsa, çox asanlıqla məğlub ola bilərsiniz.

# Ruhani təlimlər

Gizli kilsə üçün işlərə hazırlıq dərin ruhani məna daşıyır. Soğanı istifadə edərkən qabığını soyduğumuz kimi, Allah da imanımızın gerçəkliyinə çatmaq üçün bizdən sadəcə sözlər, dindən həzz aldığımız hissləri, yəni "qabıqları çıxarmalıdır". İsa bizə demişdir ki, bir kəs Onun ardınca gəlmək istəyirsə "çarmıxını götürməlidir" (Matta 16:24) və İsa Özü bu çarmıxın nə qədər ağır ola biləcəyini göstərdi. Biz buna hazır olmalıyıq.

Dünyanın gözü ilə buna baxaq! Pornoqrafik bir jurnalın reklamı insanın təxəyyülünü alovlandırır. Biz də eyni şəkildə, ruhani reallıqları göz önünə gətirərək təxəyyülümüzü alovlandırmalıyıq. Biz ruhani təlimlər etməliyik. Təəssüf edirəm ki, protestantlıqda ruhani təlimlər demək olar ki, yoxdur. Biz onları Gizli kilsədə yenidən dirçəltməliyik. Bəzi katoliklər bu təlimləri bəlkə də səhv istifadə ediblər və sonra İslahat (Reformasiya) baş verdi. Saatın kəfgiri həmişə o tərəf bu tərəfə yellənir: ya tam sola, ya tam sağa gedib çıxır.

Bəziləri yalançı ruhani məşğələlərdən sui-istifadə etdiyinə görə, digərləri ümumiyyətlə ruhani məşqlər etmirdilər. Yalnız danışdığımız dua anlarımız deyil, həm də meditasiya və dərindən düşündüyümüz anlarımız olmalıdır. Biz İbranilərə 11-ci fəsildə mişarlanmış, dirəklərdə yandırılmış və şirlər tərəfindən yeyilənlərin uzun siyahısını oxuya bilərik, lakin bunları həm də təsəvvür etməliyik. İndi aslanların qabağındayam, döyülürəm, yanmaq təhlükəsi var və s... Bu vəziyyətdə özümü necə aparım?

Rumıniyanı tərk etməzdən əvvəl son *bazar günü dərsini* xatırlayıram. Mən on-on beş oğlan və qızdan ibarət qrupla bazar günü səhər kilsəyə deyil, zooparka getdim. Aslanlar qəfəsinin

önündə onlara dedim: "Sizin atalarınızı imanlarına görə belə vəhşi heyvanların qarşısına atıblar. Bilin ki, siz də əziyyət çəkəcəksiniz. Siz şirlərin önünə atılmayacaqsınız, ancaq şirlərdən də betər adamların əlində əzab çəkəcəksiniz. "Elə burada və indi qərar verin: Məsihə sədaqət andı içmək istəyirsinizmi?" Onlar "Bəli" deyəndə gözlərindən yaş axdı.

Biz hazırlaşmağı elə indi, hələ həbs olunmamışdan əvvəl etməliyik. Çünki həbsxanada hər şeyi itirəcəksiniz. Səni soyundurub dustaq paltarı geyindirirlər. Daha nə gözəl mebellər, xalçalar, nə də pərdələr var. Artıq həyat yoldaşın, uşaqların da yanında yoxdur. Kitabxanan da yoxdur, heç bir gül də görmürsən. Həyatı gözəlləşdirən heç nə yoxdur. Ancaq həyatın ləzzətlərindən əvvəldən imtina edən insan bu çətinliklərə müqavimət göstərə bilir. Kolosselilərə məktubda deyilir ki, cisminizin dünyəvi meylləri olan cinsi əxlaqsızlığı, murdarlığı, şəhvəti və pis ehtirası öldürün. Dini fanatizmə qapılmış bəzi katoliklər düzgün anlayışdan uzaq olaraq batil inancları və özünə əzab vermə üsullarını yaymışdılar. Protestantlar isə ümumiyyətlə nəfsin cilovlanmasını tamamilə tərk etdilər. Amma məsihçilərin nəfslərinin cilovlanması var və bu, dünyəvi sevinc və rahatlıqlardan könüllü imtina etməkdir. Özünü buna indi hazırlayan məsihçi, zindanda bunları itirəndə əzab çəkməyəcək. Biz bu dünyadakı şeylərdən istifadə etməliyik, amma onlara emosional bağlı olmamalıyıq.

Mən özüm üçün şəxsi bir məşq edirəm. Mən Birləşmiş Ştatlarda yaşayıram. Təsəvvür edə bilərsinizmi, Amerika supermarketləri necə olur? Orada bir çox ləzzətli və cəlbedici yeməklər var. Mən hər şeyə baxıram və ürəyimdə deyirəm: "Bu şeysiz keçinə bilərəm, o birisi də çox gözəldir, amma onsuz da yaşaya bilərəm; üçüncü şey də gözəldir, amma onsuz da keçinə bilərəm". Bütün supermarketi o baş bu başa gəzdim və bir dollar da xərcləmədim. Gözəl şeyləri görməkdən bir sevinc duydum, amma daha böyük sevincim – onlarsız da yaşaya biləcəyimi bilmək idi.

Bizdə həmçinin liberal-modernist ilahiyyatçılar da vardı. Onlardan heç biri işgəncəyə davam gətirmədi. “Niyə ölməliyəm ki? Onsuz da Tanrı diri deyil və Müqəddəs Kitab da problemli bir kitabdır. Əgər Adəm və Həvva hekayəsi doğru deyilsə, Yeşua günəşi saxlamayıbsa, əgər peyğəmbərliklər illər sonra yazılıbsa, əgər İsa bakirə qızdan doğulmayıbsa və bədəncə dirilməyibsə – o zaman Müqəddəs Kitabda Sovet qəzeti ‘Pravda’da olandan daha çox yalan var. Mən niyə yalan və ya ən azı şübhəli bir şey uğrunda ölümə gedim ki?”

# İmanda tərəddüd etmək insanı xəyanətkar edir

Mən yəhudiyəm. İsanın Özünün danışdığı və ilk vəhyin verildiyi ibrani dilində “şübhə” sözü mövcud deyil. Şübhə etmək insanın dörd ayağı üstə yerimək kimi səhvdir, çünki insan dörd ayaq üstə yerimək üçün nəzərdə tutulmamışdır. Adam dik yeriyir; o heyvan deyil. Şübhə etmək insanlıqdan kənardır.

Hər birimizə şübhələr gəlir, lakin Allahın varlığı, İsa Məsihin dirilməsi və ya əbədi həyatın mövcudluğu kimi Müqəddəs Kitabın əsas təlimlərinə dair şübhələrin ağlınızda yuva qurmasına icazə verməyin. Hər bir teoloji və ya fəlsəfi şübhə sizi potensial satqın edir. Gözəl ruhani dərs və vəzlərə hazırlaşarkən, yaxşı yemək yeyərkən və ya kitab yazarkən şübhələrə yol verə bilərsiniz. Sonra özünüzə hər cür cəsarətli fikirlərə və ya şübhələrə yol verə bilərsiniz. İşgəncəyə məruz qalanda bu şübhələr xəyanətə çevrilir, çünki bu inanc üçün yaşamağa və ya ölməyə qərar verməlisən.

Gizli kilsədə çalışan bir adamın ruhən hazır olması üçün ilk növbədə şübhələrini həll etməsi çox vacibdir. Riyaziyyatda əgər məsələnin həllini tapa bilmirsinizsə, demək hardasa səhv etmisiniz, ona görə də həlli tapana qədər davam etməlisiniz. Şübhələrlə yaşamayın, onların həllini axtarın.

# İşgəncə sınağı

İndisə işgəncələr anına gəlin. İşgəncə bəzən çox ağrılıdır. Qızmış ütülərdən istifadə edirlər. Bəzən bu, sadə döyülmək ola bilər. Uşaqlıqda hamımız tənbeh edilmişik. Sadə bir döyülməni qəbul etmək çox asandır. İsa dedi ki, biz Onun yanına uşaqlar kimi gəlməliyik, bu, döyülməyə namizəd kimidir!

Bir həkim yanıma gəldi və dedi: "Nə edim? Pəncərədən özümü atmağı düşünürəm. Məni təkrar-təkrar çağırırlar və Gizli kilsəyə casusluq etməyə məcbur etmək istəyirlər. Əgər qəbul etməsəm, məni döyməklə hədələyirlər. Nə edim? Düşünmək belə dəhşətlidir ki, məni döyəcəklər. Mən buna tab gətirə bilmərəm. İki yolum var: ya casusluğa razılaşım, ya da özümü pəncərədən atım". Mən ona dedim: "Sənin üçün üçüncü bir yol var. Ərinin əlinə bir çubuq ver və de ki, səni yaxşıca döysün – onda görərsən ki, sən buna necə tab gətirə bilirsən." Döyülməkdən qorxmayın.

Bununla belə, kommunistlər təkcə bizi döyməklə kifayətlənmədilər, onlar çox düşünülmüş işgəncələrdən istifadə etdilər. İndi işgəncə, hər iki şəkildə işləyə bilər. Bu, sizi sərtləşdirə və polisə heç nə deməmək qərarınızı gücləndirə bilər. Elə oğrular var ki, istənilən işgəncəyə müqavimət göstərir və oğurluqda əməkdaşlıq etdikləri şəxslərə xəyanət etmirlər. Onları nə qədər döysən, bir o qədər inadkar olurlar. Əks halda, işgəncə iradənizi qıra da bilər.

İndi sizə Çexiya Kommunist Mətbuatı tərəfindən dərc edilmiş çox maraqlı bir hadisəni danışacağam. Dubçekin dövründə istirahət dövrü olmuşdu və sonra Çexoslovakiyada müəyyən şeylər dərc edilib. Həmin vaxt bir məqalə çıxmışdı. Dubçekin sələfi və kommunist diktatoru olan Novotnı yaxın yoldaşlarından birini, kommunist rəhbəri, ateist və Kommunist Partiyası Mərkəzi

Komitəsinin üzvü olan birini həbs etmişdi. (Həbsxanada təkcə məsihçilər, yəhudilər və ya vətənpərvərlər deyildi. Bir kommunist digərini həbs edib, hər kəsə etdiyi kimi ona da işgəncə verirdi.) Bu kommunist rəhbərini həbs edib təkadamlıq kameraya saldılar. Onun kamerasından beyni narahat edən elektromaqnit şüaları keçirdi. Səsgücləndirici gecə-gündüz təkrar edirdi: "Sənin adın Yusifdir?" (Onun adı Yusif deyildi.) "Düşün. Sən Yusifsən, yoxsa Yusif deyilsən? Amerikada ən böyük cinayətkar Dillinqer olub, amma sən Dillinqerdən daha betər cinayətkarsan. Adın nədir? Yusif? Sən əks-inqilabçısan, casussan və Yusifsən".

Gecə-gündüz onu özündən çıxarmağa çalışdılar. O, ağlını itirəcəyini hiss etdi. Müəyyən bir anda ona bir aydınlıq gəldi. "Mən indi qarşısıalınmaz şərlə qarşılaşmışam. Əgər kommunistlər bir məsihçiyə işgəncə verirlərsə, bu, tamamilə pis deyil, çünki kommunistlər yer üzündə cənnət quracaqlarına inanırlar. Məsihçilər onlara mane olur, ona görə də məsihçilərə işgəncə vermək düzgündür. Amma bir kommunist kommunistə işgəncə verəndə bu, işgəncədir. Bunun qətiyyən heç bir əsası yoxdur. Amma bir az gözləyin. Hər sikkənin iki üzü var, hər elektrik kabelinin iki dirəyi var. Əgər azalmayan bir şər varsa, bu azalmayan şər kimə qarşı mübarizə aparır? Qeyri-adi yaxşılıq olmalıdır. Bu, Allahdır və onlar Onunla vuruşurlar."

Müstəntiq onu çağıranda o, gülümsəyərək otağa daxil oldu və bildirdi ki, səsucaldanı söndürə bilərlər, çünki nəticə artıq əldə olunub. "Mən məsihçi oldum." Məmur ondan soruşdu: "Bu necə oldu?" Bütün əhvalatı ona danışdı. Məmur dedi: "Bir az gözləyin". O, bir neçə yoldaşını yanına çağırıb dedi: "Xahiş edirəm, mənim yoldaşlarım qarşısında hekayəni təkrarlayın". O, hekayəni təkrarladı və kapitan digər polis məmuruna dedi: "Sizə dedim ki, bu üsul işləməyəcək, çünki siz bunu həddindən çox etmisiniz".

İblis Allah kimi güclü və hikmət sahibi deyil, o, səhvlər edir. Həddindən artıq işgəncə ruhani cəhətdən çox yaxşı istifadə edilə bilər.

# Böhran anı

İşgəncənin partlama anı var və işgəncə verən bu kritik anı gözləyir. Şübhələrə qalib gəlməyi və hərtərəfli düşünməyi öyrənin. Gizli kilsə işində ortağınızın adını yazmağa və ya tələffüz etməyə, ya da Gizli mətbəənin harada olduğunu söyləməyə və ya bu qəbildən olan bir şeyə hazır olanda həmişə bir böhran anı olur. Sənə o qədər işgəncə verilib ki, artıq heç nəyin əhəmiyyəti yoxdur. Gəldiyiniz bu son nəticəni çıxarın və bu böhran anına qalib gəldiyinizi görəcəksiniz; bu sizə böyük bir daxili sevinc bəxş edir. Məsihin o həlledici anda sizinlə olduğunu hiss edəcəksiniz. İndi həbsxana işçiləri böhran anının olduğunu başa düşərək təlim keçiblər və bundan xəbərdardırlar. Əgər o anda səndən bir şey ala bilmirlərsə, işgəncədən əl çəkəcəklər, çünki onu davam etməyin faydasız olduğunu bilirlər.

Mən yeni imana gəldiyim vaxtlarda tövsiyə etmişdilər ki, hər gün Müqəddəs Kitabı oxuyum. Buna görə mən oğlum Mihayın üç-dörd yaşı olanda onunla birlikdə Müqəddəs Kitabın bir səhifəsini, bir müqəddəsin və ya şəhidin həyatını oxuyurdum. Siz də *Foksun* Şəhidlər *Kitabını* övladlarınıza oxuyun. Onlara şəhidlərin böhran anına necə qalib gəldiklərini öyrədin.

İşgəncə ilə bağlı daha bir neçə məqam var. İsanın dediyini başa düşmək çox vacibdir: “Sabahın qayğısını çəkməyin. Çünki sabahkı gün özü üçün qayğı çəkəcək” (Matta 6:34). Mənim on dörd il həbs cəzam var idi. Hrapov qardaş iyirmi altı, Vonq Minq-Daonun iyirmi səkkiz il həbsdə qalmalı idi. Uzun illər həbsə dözmək qeyri-mümkün görünür. Sizdən hamısını bir anda daşımaq tələb olunmur. Bir gün belə dözə bilmirsinizsə, hərdən bir saata dözün. Hər kəs bir saatlıq ağrıya dözə bilər. Hamımız

dəhşətli diş ağrısı, bəlkə də izah edilməmiş iztirablardan keçərək avtomobil qəzası keçirmişik. Ağrıları gücləndirən xatirələrdir ki, mənə dəfələrlə döyüldüyümü, işgəncələrə məruz qaldığımı, sabah və o birisi gün yenə bunlara dözəcəyimi xatırladır. Sabah ya mən sağ olmayacağam, ya da onlar sağ olmayacaqlar. Sabah Rumıniyada olduğu kimi çevriliş ola bilər. Dünənki döyülmə keçib getdi; sabahkı işgəncə isə hələ gəlməyib.

Mən "işgəncəşünaslıq" üzrə professoram. Əvvəlcə işgəncə dəhşətli bir şok və dözülməz bir ağrıdır. Amma bu hal daim davam etmir. Kardinal Mindszentyə iyirmi doqquz gün ərzində gecə yatmağa icazə verilmədi. Bu müddətdən sonra ondan nə istədilərsə, etiraf etdi. Bəs nə baş verdi? Bir neçə günlük yuxusuzluqdan və ya şiddətli fiziki işgəncədən sonra bir məqam gəlir ki, artıq heç nə sənə önəmli görünmür. Həyat yoldaşına, övladlarına, öz ləyaqətinə və Tanrıya qarşı borcunu unudursan. Hər şeyə qarşı tam bir laqeydlik yaranır. Məhz bu, ən həlledici məqamdır – bu anda düzgün nəfəs almaq artıq gerçəyə çevrilir. Düzgün nəfəs almağı məşq edin.

Nəfəs alma sənəti hindu və buddist dinlərində, xüsusilə yoqa məşqlərində çox böyük əhəmiyyətə malikdir. Müqəddəs Kitabda isə müxtəlif nəfəs alma formaları haqqında oxuya bilərsiniz. İsa həvarilərin üzərinə "nəfəsini üfürdü". Yazılmışdır ki, İsa onların üzərinə Müqəddəs Ruhu nəfəs kimi verdi. Demək, Müqəddəs Ruhu ötürən müəyyən bir nəfəsalma tərzi var. Pravoslav kilsəsində vəftiz zamanı kahin və xaç atası uşaq üzərinə üç dəfə nəfəsini üfürür. İsa nəfəs verdikdə, O, Müqəddəs Ruhu nəfəs kimi verirdi. Həvarilərin İşləri 9-cu fəsildə yazılıb ki, Şaul "ölüm hədələri" yağdırırdı. Bəzi qatillər var ki, cinayətlə nəfəs alırlar. Yeremya kitabında isə "başqalarının arvadlarını arzulayanlar" haqqında danışılır – bu, zina nəfəsidir. Kimsə yüksək emosiya hissləri ilə nəfəs alır. Sakit, ritmik və dərindən nəfəs alaraq kiminləsə mübahisə etməyə çalışsan, görəcəksən ki, bunu edə bilmirsən.

Düzgün nəfəs almaq işgəncələrə qarşı müqavimət vasitələrindən biridir. Xəyanət, bütün kilsədən qopmaq deməkdir. Siz Allahın və bir çox insanın etibar etdiyi bir məsihçisiniz. Sizə Gizli kilsənin sirləri həvalə olunub. Xəyanət etmək güclü bir emosiya olardı. Ritmik və dərindən nəfəs alarkən kiminləsə mübahisə edib ona qışqıra bilməzsiniz. Nəfəs alsanız, belə halda xəyanətin dərin emosiyasından keçə bilməzsiniz. İşgəncə altında bir satqın rahat nəfəs ala bilməz. Sizsə ritmik, sakit, çox dərin nəfəs alın. Oksigenləşmə bütün bədənə müqavimət verir, bu da sizin reaksiyalarınızı tarazlaşdırır və sizə nizamlı münasibət bəxş edir.

Gizli işçinin yalnız başı ilə deyil, barmaqlarının ucu ilə hiss etdiyi başqa bir şeyi: onun Məsihin bədəninə aid olduğunu bilməlidir. O, təxminən 2000 ildir ki, qamçılanmış bədənə aiddir. Həmişə təkcə Qolqota tərəfindən deyil, Roma imperatorları və bir çox təqibçilər tərəfindən qamçılanmış Məsihin bədəninə məxsusdur. İmanlılar nasistlər tərəfindən və yetmiş ildən artıq isə Rusiyada şallaqlanmışdır. Mən İsaya iman edəndə qamçılanmış olan bədənin şüurlu şəkildə bir hissəsi oldum. Bu bədən ona istehza edilmiş, tüpürülmüş; başına tikanlı tac qoyulmuş, əllərinə və ayaqlarına mismar vurulmuş bir bədəndir. Mən bunu gələcək taleyim kimi qəbul edirəm. Mən heç vaxt İsa Məsihi yalnız 2000 il əvvəl çarmıxa çəkilmiş kimi düşünməyəcəyəm. İsanın bədənində çəkdiyi əzablar mənim üçün reallığa çevrilməlidir.

# Məhəbbət hər şeydən ucadır

Müqəddəs Kitabda bəzi sözləri qəbul etmək çox çətindir: “Atasını ya anasını Məndən artıq sevən kəs Mənə layiq deyil. Oğlunu ya qızını Məndən artıq sevən də Mənə layiq deyil” (Matta 10:37). Azad ölkədə bu sözlər demək olar ki, heç bir məna vermir.

Yəqin ki, “Şəhidlərin səsi” təşkilatının bir çox kitablarından bilirsiniz ki, keçmiş Sovet İttifaqında minlərlə uşaq İsa Məsih haqqında öyrədildiyi üçün valideynlərindən alınıb. Siz Məsihi ailənizdən çox sevməlisiniz. Orada siz məhkəmə qarşısındasınız və hakim sizə deyir ki, Məsihi inkar etsəniz, uşaqlarınızı yenidən yanınızda görə bilərsiniz. Əgər bu təklifi inkar etsəniz, onda onları sonuncu dəfə görəcəksiniz. Ürəyiniz qırıla bilər, amma cavabınız “Mən Allahı sevirəm” olmalıdır.

Nadia Sloboda dörd illik həbsxana cəzası çəkmək üçün evdən çıxdı, uşaqları ondan alındı, amma o, mahnı oxuyaraq həbsxanaya getdi. Qadın gedərkən polis onun uşaqlarını aparmaq üçün yük maşınında gözləyirdi, uşaqlar isə ilahi oxuyan analarına baxaraq dedilər: “Bizim üçün narahat olma, ana. Bizi hara aparsalar da, imanımızdan dönməyəcəyik”. İsa çarmıxda olanda nəinki fiziki əzab çəkdi, Onun qarşısında anası var idi, ona baxıb əziyyət çəkirdi. Anası Oğlunun əziyyətini çəkirdi. Onlar bir-birlərini sevirdilər, lakin Allahın izzəti ümdə məsələ idi və burada hər hansı insan hissləri ikinci dərəcəli olmalı idi. Yalnız bu münasibəti dərk etdikdə, Gizli kilsənin işlərinə hazırlaşa bilərik.

Yalnız Məsih, Böyük Əzabkeş Rəbb bizdə yaşamalıdır. Kommunist ölkələrində elə hallar olub ki, kommunistlər bir məsihçini döydükdə rezin dəyənəkləri kənara atıb soruşublar:

"Başının ətrafında olan bu işıqlı halqa (müqəddəslərə xas olan) nədir? Sənin üzün niyə belə işıq saçır? Mən səni daha döyə bilmərəm". Müqəddəs Kitabda Stefan haqqında deyilir ki, onun üzü mələk kimi nur saçırdı. Kommunist işgəncələrində elə hallar eşitmişik ki, mühafizəçi məhbusa deyib: "Sən ucadan qışqır, ağla, elə bil səni döyürəm. Qoy yoldaşlarım sənə işgəncə verdiyimi düşünsünlər. Səni döyməyə əlim gəlmir".

Elə hallar da olub ki, məhbuslara həqiqətən işgəncələr verilib, bəziləri isə öldürülüblər. Belə bir anda sən Məsih uğrunda ölməklə satqın olmaq arasında seçim etməlisən. Güzgüyə baxanda onun sənə satqın üzünü göstərəcəyini bilə-bilə, o güzgüyə baxmaqdan utanacaqsansa, onda yaşamağın nə mənası var?

Bu cür düşüncə tərzi Gizli kilsədə xidmət etmək istəyən biri, xüsusilə də Gizli kilsə pastoru üçün əsas şərtdir. Eləcə də, bu yanaşma Gizli kilsə pastorunun həyat yoldaşına da aiddir. Çünki o, çox mühüm bir rola sahibdir. O, güclü olmalı, hər cür çətinliyə dözəcək qədər cəsarətli olmalıdır. Əgər o, filmləri və dünyanın ləzzətlərini arzulayırsa, bu xidmətə uyğun deyil. O, bu iş üçün özünü fəda etməyə hazır olmalıdır.

# Susmağı öyrənin

Pastorlar öz peşələrinə görə danışan, söhbətcil insanlardır. Amma pastor bütün vaxtları danışmaq üçün nəzərdə tutulmayıb. Heç kim yaxşı dinləməsə, yaxşı vəz edə bilməz. Mən insanlarla danışmaqdansa, onları dinləməklə daha çoxlarının qəlbini qazanmışam. İnsanların ürəyində o qədər yüklər var ki, onları dinləməyə səbri olan yoxdur. Hətta həyat yoldaşları və ya övladları belə onları dinləmək istəmir. Övladlar gəncdir, həmişə harasa tələsirlər, böyüklər isə çox vaxt başqa işlərlə məşğul olurlar. Əgər bir insan onu səbrlə dinləyən birini tapsa, qəlbi açılır. Belə insanlara çox danışmağa ehtiyac yoxdur – dinləməklə onların ürəyini qazanmaq mümkündür. Gizli kilsədə sükut yaşamaq üçün bir qaydadır. Hər artıq söz kiməsə təhlükəyə ata bilər. Kiminsə həbs olunmasına səbəb ola bilər. Mənim bir dostum var idi – tanınmış məsihçi bəstəkar idi. Onu həbs etdilər, çünki imanlılar tez-tez deyirdilər: "______ qardaşın yazdığı ilahilər necə də gözəldir". Bu tərifələr onun kim olduğunu aşkara çıxardı və nəticədə ona 15 il həbs cəzası verdilər. İlahiləri oxuyun – amma bəstəkarın adını çəkməyin.

Ölkə işğal olunanda susmağı dərhal öyrənmək mümkün deyil. İnsan susmağı iman gətirdiyi andan öyrənməlidir. Məsihçi – az danışan, amma dəyərli sözlər deyən insandır. O, hər sözündən əvvəl düşünür: bu söz kiməsə zərər verə bilərmi, ya yox? Gizli kilsədə hər artıq söz təhlükə yarada bilər.

Nobel mükafatı laureatı Soljenitsın müsahibəsində deyib ki, onu ən çox təqib edən, onu qınayan keçmiş həyat yoldaşı olub.[51]

[51] 1973-cü ildə Soljenitsın *Qulaq arxipelaqı* adlı mübahisəli bir əsər yazdı. Bu əsərdə o, bir neçə şəxsin adını qeyd etmişdi və onların təhlükəsizliyi

Vaiz kitabında yazılıb ki, ürəyinin sirrini həyat yoldaşına belə söyləmə. Bu, Allahın Kəlamıdır. Allah bilirdi ki, Gizli kilsəmiz olacaq və həyat yoldaşınız hansısa bir məqamda hansısa suala görə sizə qarşı qəzəblənəcək. Soljenitsının katibinə kommunistlər (Soljenitsının arvadı onu ittiham etmişdi) elə təzyiq göstərdilər ki, o, özünü asmaqla həyatını bitirdi. Əgər Soljenitsın vaxtında sussaydı, bu baş verməzdi.

Çox vacib olan başqa bir məqam odur ki, mən karserdə keçirdiyim illər üçün Allaha şükür edirəm. Mən üç il karserdə (birnəfərlik həbsxana otağı) qalmışam və heç bir söz eşitməmişəm. Mən heç kimə bu vaxt ərzində bir söz deməmişəm. Yanımda kitablar yox idi. Bayırdan səslər kəsildi. Mühafizəçilərin keçə altlıqlı ayaqqabıları vardı və onların gəzməyini eşitmirdin. Sonra zaman keçdikcə daxili səslər kəsildi. Bizə narkotik maddələr vuruldu, döyüldük. Bütün teoloji biliyimi unutdum. İncilin hamısını unutdum. Bir gün gördüm ki, "Göylərdəki Atamız" duasını unutmuşam. "Göylərdəki Atamız..." ilə başlayan duanı başlayırdım, amma davamını unutmuşdum. Mən sadəcə sevindim və dedim: "Atamız, mən duanı unutmuşam, amma sən onu əzbər bilirsən. Sən onu gündə min dəfə eşidirsən, ona görə də qoy mənim yerimə bir mələk oxusun, mən də susacağam." Bir müddət dualarım ancaq "İsa, mən səni sevirəm" idi. Bir qədər sonra yenidən deyirdim: "İsa, mən səni sevirəm. İsa, səni sevirəm." Sonra bunu demək çox çətin oldu, çünki bizə zehnimizi məhv edən dərmanlar vururdular. Çox ac idik. Həftədə bir dilim çörək yeyirdik. Döyülmələr, işgəncələr, işığın olmaması və daha başqa şeylər var idi. "İsa, mən səni sevirəm" deyəcək qədər fikrimi cəmləşdirmək belə mümkün olmurdu. Sonra bunun vacib olmadığını bildiyim üçün onu da demədim. Bildiyim duanın ən ali forması Rəbbi sevən ürəyin sakit döyüntüsüdür. İsa sadəcə

---

üçün nəşr etməkdən qorxurdu. Amma hakimiyyət orqanları bu barədə necəsə xəbər tutdu. Deyilənə görə, bu roman barədə məlumatı hakimiyyətə Soljenitsının həyat yoldaşı vermişdi.

olaraq “tik-a-tik, tik-a-tik” ürək döyüntülərini eşitməli idi və hər ürək döyüntüsünün Onun üçün olduğunu bilirdi.

Mən təkadamlıq kameradan çıxıb digər məhbuslarla birgə olanda onların danışığını eşidib təəccüblənirdim. Niyə onlar boş-boş danışırlar axı? Danışdıqlarımızın çoxu faydasızdır. Bu gün insanlar tanış olanda biri deyir: “Necəsən?” o biri də soruşur: “Bəs sən necəsən?” – Bunun nə faydası var? Sonra biri deyir: “Hava yaxşıdır, elə deyilmi?” o biri düşünür və deyir: “Bəli, yaxşıdır”. – Havanın yaxşı olub-olmaması haqqında danışmaq vacibdirmi? Biz İsanın sözünü ciddiyə almırıq: O demir ki, insanlar hər pis sözə görə mühakimə olunacaq – O deyir ki, hər faydasız sözə görə mühakimə olunacaqlar. Müqəddəs Kitabda belə yazılıb. Bəzi ölkələrdə faydasız danışıq qardaşının həbsinə və ölümünə səbəb ola bilər. Qardaşın haqqında deyilən artıq bir tərif sözü – əgər zəruri deyilsə – fəlakətə səbəb ola bilər. Məsələn, kimsə sizə qonaq gəlir və siz deyirsiniz: “Ah, kaş bir az əvvəl gələydin – Vurmbrand qardaş indicə buradan çıxdı”. Ola bilər ki, gələn adam gizli polisin casusudur. İndi o bilir ki, Vurmbrand şəhərdədir! Ağzını bağlı saxla. Bunu etməyi indi öyrən.

# İcazə verilən strategiyalar

Siz strategiyalardan istifadə etmədən Gizli kilsə işlərini görə bilməzsiniz. Rusiyada baş verən bir hadisədən xəbərim var. Kommunistlər məsihçilərin hardasa toplaşdıqlarından şübhələnmişdilər və bir küçəyə nəzarət edirdilər. Onlar bilirdilər ki, toplantı hardasa olmalıdır. Onlar toplantının keçiriləcəyini güman etdikləri evə doğru gedən gənc bir oğlanı gördülər. Polis uşağı saxlayıb soruşdu: “Haraya gedirsən?” Üzündə bir kədərlə oğlan dedi: “Böyük qardaşım ölüb, indi biz onun başına gələnləri bilmək üçün yığışırıq”. Bunu eşidən polis məmuru o qədər təsirlənmişdi ki, uşağın başına sığal çəkib “Get” demişdi. Oğlan əslində yalan danışmamışdı.

Bir qardaşı polisə aparmışdılar və ondan soruşmuşdular: “Hələ də yığıncaqlara gedirsən?” O da cavab vermişdi: “Yoldaş kapitan, indi duaya yığışmaq qadağandır”. Polis bunu eşidib belə cavab vermişdi: “Yaxşı ki, buna əməl edirsən. Get”. Qardaş qadağaya əməl etmədiyini, toplantılara getmədiyini demədi.

“Şəhidlərin səsi” təşkilatının bir işçisi kommunist ölkələrindən birinə getmişdi. Sərhəddə onu saxlayıb soruşdular: “Özünlə hansı kitabları gətirmisən?” O cavab verdi: “Şekspirin sözləri və Yehovanın sözləri”. Polis məmuru savadsız olduğunu göstərmək istəməmişdi. Onun fikrincə, “Yehova” hansısa məşhur britaniyalı şair ola bilərdi və onun adını eşitmədiyini demək utandırıcı olardı. Ona görə də polis dedi: “Yaxşı, yaxşı, keç get”. Bu cür məqbul üsullar (hiylələr) istifadə oluna bilər.

Əgər mələklər yalnız uşaqlara nağıl kimi danışılacaq varlıqlardırsa, onda onlar mənə lazım deyillər. Mələklər gerçəkdir; hər birimizin bir qoruyucu mələyi var. Məsihçilər

toplaşdığı yerdə daim cinlər da olur. Biz mələklərə və Müqəddəs Ruhun rəhbərliyinə güvənməliyik. Ateist bir zalıma həqiqəti deməyə borclu deyilik. Ona nə etdiyimizi izah etməyə də borclu deyilik. Onun məni sorğu-sual etməsi yersizdir.

Əgər mən sizə sadəcə olaraq "Bankda nə qədər pulunuz var?" sualını versəm və ya "Ayda nə qədər qazanırsınız?" mədəniyyətsizlik olmazmı? Belə suallar verilməməlidir. Bir qıza "Sevgilin var, ya yox? Kimisə sevirsən?" deyə sual verməməlisiniz. O, sizin bu sualınıza cavab vermək istəməz. Ona görə də, əgər mən istəmirəmsə, kimsə dini fəaliyyətim barədə bilmək üçün mənə təzyiq göstərə bilməz. Bu mənim şəxsi işimdir və ona qarışmalı deyil. Ateist dövlətin belə suallar verməyə haqqı yoxdur və biz onlara cavab verməli deyilik.

İstintaq zamanı sənə hər cür suallar verilir. Kommunistlər məndə soruşurdular: "Sən məsihçisən və pastorsan. Deməli, həqiqəti deməlisən. İndi bizə de, Gizli kilsənin rəhbərləri kimlərdir? Harada toplanırsınız? Kiminlə görüşürsən? Müxtəlif şəhərlərdə rəhbərlər kimlərdir?" Əgər mən həqiqəti açıqlasaydım, saysız-hesabsız insanlar həbs olunacaqdı, onlar da öz növbəsində həqiqəti danışacaqdı, bu isə zəncirvari nəticələrə səbəb olacaqdı. Buna qarşı durmaq vacibdir. Qarşı durmağın nəticəsi döyülmək və işgəncə olsa, hətta bu, səni ölümə aparsa belə əziyyətləri qəbul etməlisən.

Mən elə bir pastor tanıyıram ki, mən döyülərkən çəkdiyim ağrılar qədər ağrılara dözüb, çünki reqbi oynayıb. Onun ayağında bir problem yaranmışdı və bu, ona dəhşətli ağrılar verirdi. Reqbi üçün insanlar öz üzərlərinə ağrılar götürür və ağrı keçəndə, bilə-bilə ki, yenidən nəsə ola bilər, oyuna davam edirlər. Yəni idman, zövq və bədən üçün sağlamlıq naminə fiziki əzabları qəbul edirik. Eləcə də, qardaşlarımızın həbs edilməsinin qarşısını almaq üçün işgəncələrin fiziki əzablarını da qəbul edirik. Baş verə biləcək ən pis şey budur ki, işgəncələr altında öləsən. Amma ölmək bu dünyada ən təbii şeydir.

Bir dilənçi varlı bir adamın qapısını döyüb dedi:

– Zəhmət olmazsa, bir gecəlik burada qalmağa icazə verə bilərsinizmi? Qalacaq yerim yoxdur.

Varlı adam cavab verdi:

– Buradan uzaqlaş, dilənçi. Bura otel deyil. Kasıb adam dedi:

– Bağışlayın, gedərəm. Amma mən getməmişdən əvvəl sizə bir sual verə bilərəm? Bu evə baxdım, çox gözəldir. Bu evi kim tikib? Varlı adam qürur hissi ilə dedi:

– Bu evi mənim babam tikib.

– İndi babanız hardadır?

– O, çoxdan vəfat edib.

– Bəs ondan sonra bu evdə kim yaşayıb?

– Atam.

– O indi sağdır?

– Xeyr, o da vəfat edib.

– İndi bu evdə kim yaşayır?

– Mən.

– Bəs sən də bir gün öləcəksən?

– Bəli.

– Bəs sən öləndən sonra burada kim yaşayacaq?

– Ümid edirəm ki, uşaqlarım.

Dilənçi dedi:

– Bəs niyə mənə qəzəbləndin? Dedin ki, bura otel deyil. Halbuki bu bir otel otağı kimidir. Sən bir gün əşyalarını yığıb çıxırsan, sonra başqası gəlir.

Ölümün qaçılmazdır; bunu həyat baxışına çevirməlisən. Əgər Allah istəsə ki, mən bu gün ölüm, bunun üçün işgəncə verən adama gərək yoxdur. Mən ürək tutmasından da ölə bilərəm. Deməli, işgəncə verən mənim ömrümü bir gün belə qısalda bilməz. Dünyanın ən yaxşı restoranı, ən ləzzətli yeməkləri belə mənim ömrümü bir gün də artıra bilməz. Mən yalnız Allahın çağırdığı zaman ölürəm.

# Xəyanətkar mübahisə

Gizli kilsədə ən xırda bir mübahisəyə belə icazə verilmir. Gizli kilsədə baş verən hər bir dava həbs, döyülmə və bəlkə də ölüm deməkdir. Düşmənlərimiz bizi izləyir və dinləyirlər. Gizli kilsədə onların casusları olur. Nə vaxtsa bir dava düşsə, qarşılıqlı ittihamlar baş verir. Biri digərinə deyir: "Sən filankəslə olanda belə etdiyin yadındadırmı?" Beləcə, polis o adamı tutur.

Mübahisələr həmişə adları gündəmə gətirir, faktları ortaya çıxarır. Buna görə də Müqəddəs Kitabda bu söz yazılıb: "Rəbbin qulu davakar olmamalıdır. Əksinə, hamı ilə mülayim rəftar etməli, öyrətməyə qabil, səbirli olmalıdır" (2 Timoteyə 2:24). Rumıniyanın bir şəhərində iki toplantı arasında güclü bir mübahisənin olduğundan xəbərim var idi. Toplantılardan bir Baptist, digəri isə Qapalı qardaşlar məzhəbi idi.[52] Bu o qədər qızğın mübahisə idi ki, hər iki tərəfin rəhbərlərinin həbsi ilə nəticələndi.

Müqəddəs olmaq üçün bu gündən başlamaq daha yaxşı olardı. Cənnətə gedəndə müqəddəs olmağa başlamaq üçün çox gec olacaq! Buna necə başlamağı bilməyəcəksən. İndi buna başlamalısan. Böhranda mübahisə etməkdən qaçmaq ağıllıdırsa, indi mübahisə etməkdən qaçmaq daha ağıllıdır.

Təəssüf ki, təhlükəli şəraitdə işləyən təşkilatlar arasında da mübahisələr var. Mümkün qədər mübahisələrdən qaçmaq lazımdır. Hətta ailə münaqişəsi də ölümlə nəticələnə bilər. Sevgilisi olan bir kişi ilə eyni həbsxana kamerasında idim. Gənc yaşlarda edilən bir səhv kimi, o istədiyi bir qızdan ayrılıb başqa bir qızla tanış

---

[52] Qapalı qardaşlar, Plimut qardaşları məzhəbinin bir qolu olan protestant məzhəbidir. Onlar Con Darbi adlı bir şəxsin təlimlərinə uyğun yaşayırlar.

olur. Amma o, birinci qıza öz sirlərini artıq danışmışdı və qız Gizli polisə onun barədə xəbər vermişdi. Beləcə o, ömürlük həbs cəzası aldı və həbsxanada dəli oldu.

Gizli kilsənin işlərinə hazırlıq adi məsihçi işçisi üçün hazırlığın əsasını təşkil edir. Amma bu hazırlıq daha dərin olmalı və həyatın bir hissəsinə çevrilməlidir. Mən ölkələr tanıyıram ki, iki pastor və ya iki kilsə rəhbəri arasında mübahisə nəticəsində çoxlu toplantılar dağılmışdı. Bu, hər yerdə olur, amma zülmkar ölkədə belə şey həbs və bəlkə də ölüm deməkdir.

# Beyin yuyulmasına qarşı müqavimət

Ən böyük üsullardan biri təkcə fiziki işgəncə deyil, beynin yuyulmasıdır. Beyin yuyulmasına necə müqavimət göstərəcəyimizi bilməliyik. Beyin yuyulması azad dünyada da mövcuddur. Mətbuat, radio və televiziya bizim beynimizi yuyur. Dünyada Koka-Kola içmək üçün heç bir səbəb yoxdur. Beyniniz yuyulduğu üçün siz onu içirsiniz. Təmiz su Koka-Koladan daha yaxşıdır. Amma heç kim reklam etmir ki, "su iç, su iç". Su reklamı olsaydı, su içərdik.

Bəziləri bu beyin yuma texnikasını həddindən artıq pis həddə çatdırdılar. Metodlar müxtəlifdir, amma mənim üçün Rumıniya həbsxanasında beyin yuyulması əsasən bundan ibarət idi: biz söykənməyə imkan verilmədən on yeddi saat oturmalı idik və bizə gözümüzü yummağa icazə verilmirdi. Gündə on yeddi saat bunu eşitməli olurduq: "Kommunizm yaxşıdır, kommunizm yaxşıdır, kommunizm yaxşıdır… Məsihçilik öldü, məsihçilik öldü, məsihçilik öldü… Təslim ol, imtina et…" Bunu bir dəqiqə eşitsən belə bezə bilərsən, ancaq həftələr, aylar, hətta on yeddi saat boyunca heç bir fasilə olmadan eşitməli olursan. Sizi əmin edə bilərəm ki, bu bizim üçün asan olmadı. Bu, ən pis işgəncələrdən biri idi, fiziki işgəncədən qat-qat pis idi. Lakin Məsih hər şeyi qabaqcadan görüb, çünki Onda vaxt anlayışı yoxdur. Gələcək, keçmiş, indi eynidir: O, hər şeyi əvvəldən bilir. Kommunistlər beynin yuyulmasını çox gec icad etdilər! Məsih artıq beyin yuyulmasının əksini, ürəyin yuyulmasını icad etmişdi. O dedi: "Nə bəxtiyardır ürəyi təmiz olanlar! Çünki onlar Allahı görəcək" (Matta 5:8).

Məsih uğrunda ilk şəhid olan Stefanın ətrafında ona atmaq üçün əllərində iri daşlar olan yüzlərlə adam var idi. O dedi:

"Mən görürəm..." Stefanın arvadı yəqin ki, onun təhlükə içində olduğunu görəndə ərinin vəziyyətdən qaçacağını düşünürdü. Amma Stefan dedi: "Mən İsanı*n* Allahın sağında dayandığını görürəm" (Həvarilərin İşləri 7:56). Ola bilsin ki, arvadı dedi (bu barədə yazılmayıb): "Ətrafındakı kütlənin sənə daş atmağa hazır olduğunu görmürsən?" "Bəli! Mən aşağıda bir neçə kiçik qarışqa görürəm, heç onlar barədə danışmağa dəyməz. *Mən* İsa*ya baxıram.*" Stefan onu öldürmək istəyənlərə baxmadı. Ürəyi təmiz olanlar nə bəxtiyardır.

İki ildən artıq beyin yuyulması prosesindən keçdim. Kommunistlər deyəcəkdilər ki, beynim hələ də çirklidir. Onların "Məsihçilik öldü" ritmlərində mən və başqaları təkrar-təkrar deyirdik: "Məsih də öldü, Məsih də öldü". Amma biz bilirdik ki, O, ölülər arasından dirildi. Yadımıza salırdıq ki, biz müqəddəslər birliyində yaşayırdıq.

Biz adətən elə bilirik ki, Rəbbin yanına köçmüş müqəddəslər ulduzların arxasında, göylərdə bir yerdədirlər. Amma Müqəddəs Kitab bizə harada olduqlarını deyir: "Bu qədər böyük şahidlər buludu ilə əhatə olunduğumuz üçün ..." (İbranilərə 12:1). Onlar niyə ulduzların yanında oturmalıdırlar ki? Onlar əsl döyüşçülərin və əzabkeşlərin olduğu yerdədirlər. Ruhani dünyada "burada" və "orada" anlayışları yoxdur. Ruhani aləmdə məkan və zaman anlayışları mövcud deyil. Biz həbsxanada təcrid olunmuşduq, amma onlar ətrafımızda idilər. Müqəddəslərin varlığını hər zaman hiss edirdik. Mən şəxsən Məcdəlli Məryəmin hüzurunu çox hiss edirdim. Beyin yuyulması zamanı fikirləşirdim: "Mənə nə deyirlər, məsihçilik ölüb? Deyək ki, onların dedikləri doğrudur. Bəs bizim üçün bunun nə fərqi var? Deyək ki, dünyada məndən başqa bircə nəfər məsihçi yoxdur – nə fərq edər? Məcdəlli Məryəm sadəcə İsanı sevirdi. Əgər İsa ölü idisə, o, ölü İsanı sevirdi. O, ölü İsanın məzarı başından çəkilmədi. İsa onun üçün heç nə edə bilməzdi. O, bir barmağını belə qaldıra bilməzdi, bir möcüzə göstərə bilməzdi, bir təsəlli kəlməsi deyə bilməzdi, bir

damla göz yaşını silə bilməzdi – bir sözlə heç nə edə bilməzdi. Amma yenə də O, Xilaskar idi. Odur ki, sən mənə desən ki, O ölüb – mən Onu yenə də sanki diridir kimi sevəcəyəm. Əgər bütün kilsə ölübsə və ya imanını itiribsə, bu, mənim imanımı itirməyim üçün bir səbəb ola bilməz."

Biz imanımızın əmin, möhkəm və şübhəsiz olduğu bir vəziyyətə çatmalıyıq. Mən sizə dedim ki, ibrani dilində "şübhə etmək" sözləri yoxdur. Bu ifadə Əhdi-Ətiqdə yoxdur. İbrani dilində olmayan başqa bir sözü sizə göstərə bilərəmmi? Məni tez-tez Ümumdünya Kilsələr Şurasının rəhbərləri ittiham edirdilər. Onlar mənim əleyhimə yazırdılar: "Vurmbrand Dəmir Pərdənin arxasındakı vəziyyəti ağ və qara rəngə boyayır. Belə deyil. Boz rəng də var". Mən onlardan soruşurdum ki əgər onlar mənə Əhdi-Cədiddə "boz" sözünü göstərsələr, bunu qəbul edirəm. Əhdi-Cədiddə çoxlu rənglər var, "boz" kimi qarışıq rəng yoxdur. Bir şey doğru və ya yalan, düz və ya səhv olur. Ağ və ya qaradır. Ya dünya ilə getməlisən, ya da Məsihlə getməlisən. Beləliklə, Əhdi-Ətiqdə, ibrani dilində "şübhə etmək" sözləri yoxdur. Biz toplama və vurma cədvəlindən əmin olduğumuz kimi bu iman problemlərində də arxayın olmalıyıq. İki vur iki dörddür. Bu doğrudur. Ailəm sağdır ya da öldürülübsə, tox qalsam da, ac qalsam da, azad olsam da, həbsdə olsam da, döyülsəm də, sığallansam da – riyaziyyatın həqiqəti dəyişmir.

Həqiqətə əminlik və Məcdəlli Məryəmin məhəbbəti kimi məhəbbət sizə beynin yuyulmasına qarşı durmağa imkan verir. Güclü surətdə müqavimət göstərin.

Özümü qəhrəman kimi göstərmək istəmirəm. Mən insanam və hər insan kimi mənim də qüsurlarım və zəif cəhətlərim var. Buna görə də, zəiflik anlarında bir-birimizi ruhlandırmaq üçün bir kilsə olaraq mövcuduq. Belə bir dəhşətli təzyiq altında mən bir anda yıxılmaq üzrə olanda bir qardaşa – Presviterian bir xidmətçiyə və çox yaxşı bir məsihçiyə pıçıldadım: "Qardaş, inanıram ki, imanımı itirmişəm. Artıq imanlı olduğumu düşünmürəm". O,

heç vaxt onu tərk etməyən təbəssümlə məndən soruşdu: “Sən nə vaxtsa heç iman etmisən?” Dedim: “Bəli, əlbəttə ki, iman etmişəm”. O dedi: “Onda İncilin bir ayəsini xatırla. Bakirə Məryəm Elizabetin yanına gələndə Elizabet ona dedi: ‘İman edən nə bəxtiyardır’. Bu sözlər keçmiş zamanda deyilib, əgər keçmişdə inanmısansa, sən xeyir-dualısan. Bu xeyir-dua ilə yaşa”. Həmin şəraitdə bu sözlərin mənim üçün nə demək olduğunu sizə deyə bilmərəm. İlahiyyat baxımından bu fikirlərin nə dərəcədə düzgün olduğunu bilmirəm, amma biz o zaman ilahiyyatla yaşamırdıq. Keçmiş xatirələrlə yaşayırdıq. Buna görə də, Müqəddəs Kitab bizə öyrədir ki, biz Rəbbə xeyir-dua verməli və Onun keçmiş xeyir-dualarını unutmamalıyıq. Ruhani qaranlıq bir gecədən keçsəniz də, keçmişdəki xeyir-duaları xatırlayın.

# Tənhalığa qalib gəlmək

Gizli kilsənin işçisi üçün ən böyük problemlərdən biri tənhalığı necə doldurmağı bilməkdir. Bizim əlimizdə heç bir kitab yox idi. Yalnız Müqəddəs Kitab yox, ümumiyyətlə heç bir kitab, bir parça kağız və ya bir qələm belə yox idi. Biz heç bir səs eşitmirdik və diqqətimizi yayındıracaq heç bir şey yox idi. Divarlara baxmaqdan başqa edəcəyimiz bir şey yox idi. Normalda belə şəraitdə insanın zehnində pozğunluq yaranır. Həbsxana həyatı ilə bağlı yazılmış böyük kitabları oxuyun (*Papillon 53* və bu kimi digər əsərlər gələcək gizli kilsə işçiləri üçün çox dəyərlidir), çünki azad bir insan həbsxana atmosferini nə qədər qavraya bilirsə, bu kitablar sizə onu verə bilər. Bu kitabları oxuyarkən görəcəksiniz ki, zehni məşğul edəcək heç bir şey olmadıqda, insanın düşüncəsi tədricən dağılır. Mən sizə öz təcrübəmdən deyə bilərəm ki, necə dəli olmamaq üçün mübarizə apardım, amma bunun üçün də əvvəlcədən ruhani məşqlərlə hazırlaşmaq lazımdır. Müqəddəs Kitabsız nə qədər tək qala bilərsiniz? Radionu, maqnitofonu və ya başqa bir şeyi açmadan nə qədər təkliyə dözə bilərsiniz?

Mən və bir çox başqa məhbuslar bunu belə etdik. Biz gecələr yox, gündüzlər yatdıq. Bütün gecə oyaq qaldıq. Bilirsiniz ki, məzmurda deyilir: "Rəbbə alqış edin, ey Onun qulları, ey Rəbb

---

[53] "Papillon" – Henri Şaryer tərəfindən yazılmış və 1969-cu ildə nəşr olunmuş bir romandır. Kitab, qətldə günahsız yerə ittiham edilərək ömürlük həbs cəzası alan bir adamdan bəhs edir. Filmdə də bu əsas qəhrəman həbsxanadan qaçmağa cəhd edəndə, təkadamlıq kameraya salınır. Mühafizəçilər onunla birgə qaçmaq istəyən şəxsin adını öyrənmək üçün qəhrəmanı aclıqla cəzalandırırlar. Lakin o, heç vaxt ad çəkmir.

evinin xidmətində gecələr oyaq duranlar!" (Məzmur 134:1). Gecənin bir duası gündüzün on duasına dəyər.

Bütün böyük günahlar və cinayətlər gecələr edilir. Böyük quldurluqlar, sərxoşluq, əylənmək, zina, bir sözlə bütün günahlı həyat gecə həyatıdır. Gün ərzində hər kəs fabrikdə, kollecdə və ya bir yerdə işləməli olur. Şər qüvvələr gecənin qüvvələridir və buna görə də gecələr onlara qarşı durmaq çox vacibdir. Ayıq olmaq çox vacibdir. Azad dünyada ayıq olmaq əsasən başa düşülmür. Mənim ölkəmdə, hətta kommunistlər hakimiyyəti ələ keçirməzdən əvvəl də biz oyaq qalıb gecə dua vaxtı keçirirdik. Oğlum Mihay üç və dörd yaşında olanda gecə oyaq qalıb dua etməkdən xəbəri var idi. Bütün gecəni dua ilə keçirərdik. Üç-dörd yaşlı balaca uşaqlar da bizimlə dua edərdilər, sonra isə bir-biriləri ilə dalaşardılar. Biz onları bir az danlayırdıq və yenidən dua edirdik, sonra bir neçə masanın altında uşaqlar yuxuya gedərdilər. Beləcə biz onları gecə dualarında tərbiyə edirdik.

Biz təkadamalıq kamerada oyananda digər məhbuslar yatmağa gedirdi. Biz vaxtımızı böyük bir proqramla keçirirdik ki, hətta onu axıra qədər yerinə yetirmək çətin olurdu. Biz günü dua ilə başlayırdıq – elə bir dua ki, onunla sanki bütün dünyanı gəzirdik. Hər ölkə üçün dua edirdik, tanıdığımız şəhərlərin və adamların adlarını çəkirdik, böyük vəzçilər üçün dua edirdik. Pilotlar, dənizdə və həbsxanalarda olanlar üçün dua edirdik. Müqəddəs Kitab hətta zindan kamerasında da yaşana biləcək böyük sevincdən danışır: "Sevinənlərlə sevinin" (Romalılara 12:15). Mən haradasa ailələrin uşaqları ilə birgə toplaşıb Müqəddəs Kitab oxuduqları, zarafatlar etdikləri və bir-birindən məmnun olduqları üçün sevinirdim. Haradasa bir oğlan bir qızı sevirdi və onunla görüşürdü – mən bu sevgiyə görə sevinə bilirdim. Haradas dua yığıncağı keçirilirdi, kimsə dərs oxuyurdu, başqası dadlı yeməkdən zövq alırdı və s. Biz sevinənlərlə sevinə bilirdik.

Bütün dünyanı gəzdikdən sonra Müqəddəs Kitabı yaddaşımda qalanlardan oxuyurdum. Gizli kilsə işçisi üçün Müqəddəs Kitabı əzbərləmək çox vacibdir.

Sadəcə bir az gülək deyə sizə başıma gələn bir hadisəni danışmaq istəyirəm. Bir dəfə taxtadan olan sadə çarpayımda uzanarkən, hafizəmdən Luka İncilinə əsasən Dağüstü vəzi oxuyurdum. Elə hissəyə çatdım ki, orada belə yazılmışdı: "Bəşər Oğluna görə insanlar sizə nifrət edəndə, sizi cəmiyyətdən qovub təhqir edəndə, adınızı bədnam edəndə nə bəxtiyarsınız! O gün sevinin və sevincdən atılıb-düşün!" (Luka 6:22-23). Mən bunu belə xatırlayırdım. Öz-özümə dedim: "Bu qədər laqeyd olmaq necə günahdır! Məsih burada iki fərqli şey deyib. Birincisi, sevinmək – bunu etmişəm. İkincisi isə atılıb-düşmək – bunu etməmişəm". Mən yatdığım yerdən qalxdım və atılıb düşməyə başladım.

> Yəni, hökumətə və onun siyasətinə qarşı mübarizə aparmaqla, fəal surətdə qarşı durmaqla cavab vermək idi. Bu düşüncə tərzinə görə, yeni sistem pisdir, Tanrıya ziddir və şeytani olduğu üçün ona boyun əymək olmaz, əksinə, Məsihin adı ilə ona qarşı durmaq lazımdır.[84]

Bu reaksiya da dağıdıcı nəticələrə gətirib çıxardı: məsihçilər öldürüldü, kilsə binaları dağıdıldı və – ən dəhşətlisi – Müjdəyə xəyanət edildi. Müjdəyə necə xəyanət edildi? Kuzmiç belə izah edir: "Məsihçilər əsas vəzifələrinin kommunizmlə mübarizə olduğunu düşündükləri hər yerdə bağışlamağı, kommunist düşmənlərini

---

[82] Kuzmiç, s. 342
[83] Matta 5:15
[84] Kuzmiç, s. 343

sevməyi və istər yaşadıqları, istərsə də öldükləri halda onlara şəhadətlik etməyi bacarmadılar."[85] Başqa sözlə, kilsə özünü düşmənə – istər kommunizmə, istərsə də cinsi inqilaba – qarşı müdafiə etməyə səfərbər etdikdə, sadəcə düşməninin düşməninə çevrilir. Artıq o, kilsə deyil, sadəcə başqa bir siyasi partiyadır.

Professor Kuzmiçin Şərqi Avropa məsihçiləri arasında müşahidə etdiyi üçüncü dağıdıcı reaksiya müqavimətin əksi idi. Bu təqibə *uyğunlaşmaq* idi. Prof. Kuzmiç bunu belə təyin edir: "Bu, vəziyyətə uyğunlaşıb söylədiyi fikirləri dəyişmək və onları hazırkı mövcud ideologiyaya uyğunlaşdırmaqdır."[86] Bu, Hitlerin dövründə Almaniyadakı Məsihçi Hərəkatının və Çindəki dövlət nəzarətində olan kilsənin reaksiyası idi. Bu, Amerika və Avropa kilsələrinin cinsi inqilaba verdiyi cavab idi. Guya onlar Müqəddəs Kitaba yenidən baxaraq, 2000 il ərzində görünməyən homoseksuallığın əslində həmişə orada olduğunu iddia etdilər.

Şübhəsiz ki, bu cür uyğunlaşma kilsəni məhv edir, çünki onun şəhadətini pozur və verdiyi mesajı dünyəvi fikirlərə tabe edir. Lakin Prof. Kuzmiç belə qeyd edir: "Bu, daha ağır bir məhvə – kilsənin parçalanmasına səbəb olur. Çünki bəzi kilsələr uyğunlaşma yolunu seçdiyi halda, digərləri gizli olmağa çalışır, nəticədə kilsə öz daxilindən bölünür".[87] Kilsə özünə qarşı düşmənə çevrilib və hətta özünü təqib edə bilər. Köləlik, kommunizm və ya cinsi inqilab kimi ideologiyalar sona çatsa belə, kilsənin özünə vurduğu yaralar sağalmaya bilər. Kilsənin təqibləri yüngülləşdirməsi həmişə çapıq izləri qoyur.

Bəs əgər qaçmaq, müqavimət göstərmək və təqibi yüngülləşdirmək kilsəni məhv edirsə, onu irəli aparan hansı cavabdır?

Prof. Kuzmiç deyir ki, kommunizm altında Şərqi Avropa kilsəsini irəli aparan yeganə yol – çarmıx teologiyası idi.

---

[85] Kuzmiç, s. 344
[86] Kuzmiç, s. 344.
[87] Kuzmiç, s. 344.

İsanın sözləri – "Əgər bir kəs Mənim ardımca gəlmək istəyirsə, özündən imtina etsin və çarmıxını götürüb ardımca gəlsin" (Mark 8:34) – onlar üçün dərin bir məna daşıyırdı. Müqəddəs Kitabın bu ayəsi onları inandırdı ki, əzab çəkmək həqiqi şagirdliyin əvəzolunmaz bir nişanəsidir.[88]

Çarmıx teologiyasına əsaslanaraq yaşamaq, İsanın bütün tələblərini, nə olursa olsun, tamlığı ilə həyata keçirmək idi. Bu, məsihçi həyatını, hökumətin müqavimətinə reaksiya olaraq deyil, Məsihin çağırışına cavab olaraq yaşamaq idi. Bu, "hər yerdə, hər zaman, hər kəs tərəfindən inanılan o imanla"[89] yaşamaq üçün hökumətin verdiyi istənilən cəzanı qəbul etməyi də əhatə edirdi. Buna görə də, Nasizm dövrünün zorakılığında, Dietrix Bonhöffer kilsə üçün *Şagirdliyin Qiyməti* və *Birlikdə Həyat* kimi unudulmaz məsihçi klassik əsərlərini yazarkən, Karl Bart sistematik teologiya yazırdı. Hər ikisi kilsəyə yalnız Nasizmi rədd etməyi deyil, tam və səmimi bir tərzdə kilsə olmağı öyrətdi.

Həmişə, kilsənin cavab qaytarmadan əzab çəkməyə hazır olması və düşmənlərini sevməyə davam etməsi, eyni zamanda məsihçi həyatının tamlığını yaşaması Məsihin işini irəli aparır.

## Kilsə qurucuları və mövcud kilsələr üçün fəaliyyət addımları:

- Kilsənizi müəyyən bir sosial məsələyə qarşı özünü-müdafiəyə hazırlamayın, əks halda klassik məsihçi imanını təhrif etmiş olarsınız və kilsə üzvlərinizin düşmənlərini sevməsi və onlar üçün əzab çəkməsi

[88] Kuzmiç, s. 349.

[89] Lerinsli Vinsent. *Commonitory*, II fəsil, §6; NPNF, II Seriyası, XI Cild, s. 132.

çətinləşər. Əmin olun ki, kilsənin ən qaranlıq saatlarında belə, icmanızın "həmişə, hər yerdə, hər kəs tərəfindən inanılmış olan həmin imanın" tamlığını anlayır və yadda saxlayır.

- Bu məqsədlə əmin olun ki, kilsənizin bütün üzvləri təkcə *Nikeya etiqadını* və ya *Həvari etiqadını* əzbər bilmir, həm də hər bir sətrin mənasını tam izah edə bilir.
- Kilsənizə, *"Şəhidlərin səsi"* təşkilatının qurucusu, möhtərəm Riçard Vurmbrandın "əzabşünaslıq" adlandırdığı dərsi – Müjdə uğrunda necə əzab çəkəcəyini öyrədin. Bu mövzuda mövcud olan nadir dərsliklərdən biri, Riçard Vurmbrandın *Gizli Kilsəyə Hazırlıq* adlı əsəridir.
- Vəzlərinizi və dərslərinizi nəzərdən keçirin və əmin olun ki, hər biri Mark 8:34-cü ayədə olan çarmıx teologiyasına əsaslanıb. Qlenn Pennerin *Çarmıxın Kölgəsində* kitabı Müqəddəs Kitaba çarmıxın gözü ilə baxır. Siz o kitabı *"Şəhidlərin səsi"* təşkilatından əldə edə bilərsiniz.
- *Şagirdliyin Qiyməti* və *Birlikdə Yaşamaq* kimi məsihçi klassik əsərlərini oxuyun, bu kitablar böyük müxalifət şəraitində kilsənin klassik məsihçi ənənəsini necə öyrəndiyini və yaşadığını göstərir. Bu cür kitabların nümunələrindən vəzlərinizdə istifadə edin ki, kilsə hər dəfə toplaşanda, Məsihin bizə hər gün çarmıxımızı götürməyə çağırdığını eşitsin.

# 3-cü Prinsip.
# Təqiblərə cavab olaraq gizli kilsəyə keçmək əvəzinə, əsas məsələni qorumaq üçün gizli kilsəyə keçin

Bir kilsənin gizli kilsəyə keçməsi üçün yalnız bir qanuni səbəb var. Təqiblərə cavab olaraq gizli kilsəyə keçmək həmin qanuni səbəb deyil.

Əvvəlki prinsipdə izah olunduğu kimi, kilsə təqiblərə cavab olaraq gizli kilsə formasına keçəndə, bu, qorxudan və zəiflikdən qaynaqlanan bir çıxış yoludur. Kilsə, Rəbb tərəfindən düşmənlərinə Onun əzablı sevgisini müntəzəm olaraq çatdırmağa tapşırılıb. Kilsə bunu yerinə yetirmədikdə sanki balina tərəfindən udulub sonra düşmənin qarşısında qusulmuş bir vəziyyətdə özünü görəndə təəccüblənməməlidir.

Buna bənzər şəkildə, kilsəni zülmkar rəhbərə qarşı müqavimət göstərmək məqsədilə gizli kilsəyə aparmaq, kilsəni siyasi partiyaya çevirir. Bu, həmişə Rəbdən eyni kəskin dörd sözlə tənqid edilir: "Qılıncını kənara qoy!"[90] Kilsəni qılıncla müdafiə edən hər kəs – bunun media qılıncı, siyasət qılıncı və ya ağıl qılıncı olması fərq etməz, eyni qılıncla ölər.[91] Kilsə bu dünyaya məxsus deyil, elə Rəbb də bu dünyaya məxsus deyil. Rəbbin bu dünyada müdafiə edilməsinə ehtiyacı olmadığı kimi, kilsənin bu dünyada müdafiə olunmasına ehtiyacı yoxdur. Peter mübahisə etdikdə, İsa onu

[90] Matta 26:52
[91] Matta 26:52

"Şeytan" adlandırmışdı.[92] Rəbb və Onun kilsəsi dünyada diri qurbanlar kimidr. İsanın çarmıxı dünyanı xilas edir, kilsənin çarmıxı isə dünyaya Rəbbin qələbəsinin çalındığını xatırladır.[93]

Nəhayət, məsihçilər kilsəni düşmənin fikirlərinə uyğunlaşdırdığı üçün onu gizli kilsəyə çevirmək çətin olur. Belə vəziyyətdə kilsə gizlindən belə qışqırır: "Təkcə mən qaldım, onlar canımı almaq üçün məni də axtarırlar". Rəbb həmin kilsəyə xatırladacaq ki, O həmişə Baala səcdə etməyən yeddi min müqəddəsini qoruyub saxlayır.[94]

Kilsənin gizli kilsəyə keçməsi üçün yeganə qanuni səbəb "əsas məsələni əsas məsələ kimi saxlamaqdır". Mən bu ifadəni Merv Naytdan öyrəndim. O, "Şəhidlərin səsi" təşkilatının tarixçisi və Avstraliyada "Şəhidlərin səsi" təşkilatının qurucularından biridir. Mervin bizə bunu xatırlatmaq üçün belə bir ifadə işlədir: "Əgər diqqətli olmasaq, xidmətimizdə əsas məqsədi unudub ikinci dərəcəli şeylərə çox vaxt ayıra bilərik. Ona görə də bəzi yaxşı işlərə "yox" deməliyik ki, əsas olan işə diqqət yetirə bilək.

Ən vacib şeyi ön planda saxlamaq, hər sahədə yaxşı məsləhətdir. Amma gizli kilsə qurmaqda bu, daha çox vacibdir. Kilsə üçün əsas məsələ nədir? Con Kalvin həqiqi kilsənin iki əsas əlamətini müəyyən etdi: "Allahın Kəlamı saf şəkildə təbliğ olunmalı, eşidilməli və müqəddəs ayinlər düzgün idarə olunmalıdır".[95]

Kilsəni gizli kilsəyə çevirmək üçün yeganə əsas səbəb, Allahın Kəlamının doğru şəkildə təbliğ olunmasına və müqəddəs ayinlərin düzgün yerinə yetirilməsinə mane olan əngəlləri aradan qaldırmaqdır.

- Hökumət kimlərin təbliğat edə biləcəyini, nəyi təbliğ edə biləcəyini və ya təbliğatın harada həyata keçirilə

[92] Matta 16:23
[93] Romalılara 12:1-2
[94] 1 Padşahlar 19:9-18
[95] Erik C. Titus, "Kalvinin Kilsə Əlamətləri: Bərpa Üçün Çağırış," UDK:265.1:265.3, Peşəkar məqalə, 2011, s. 114.

biləcəyini müəyyən edirsə, kilsə bu məhdudiyyətləri qəbul etmək əvəzinə gizli kilsə şəraitində fəaliyyət göstərməyə məcburdur.

- Hökumət və ya ictimaiyyət İncili sərbəst şəkildə eşidilməsinə mane olarsa, kilsə bu məhdudiyyətləri qəbul etmək əvəzinə gizli kilsəyə keçməyə məcburdur.
- Müqəddəs ayinlərin düzgün idarə olunması pozularsa, kilsə bu məhdudiyyətləri qəbul etmək əvəzinə gizli kilsəyə keçməyə məcburdur.

Gəlin, getdikcə daha çox qarşıya çıxan bir nümunəni nəzərdən keçirək. Təsəvvür edin ki, bir hökumət kilsəyə "dini azadlıq" verir: onlar Müqəddəs Kitabı vəz edə, eşidə və müqəddəs dini ayinləri keçirə bilər, lakin bunlar yalnız hökumətin rəsmi qeydiyyatdan keçirdiyi binalarda yerinə yetirilməlidir. Belə vəziyyətdə kilsə gizli kilsəyə keçməyə məcburdurmu? Bəli, kilsə gizli kilsəyə getməyə məcburdur, çünki belə bir vəziyyətdə Kəlam və müqəddəs ayinlər artıq həmin cəmiyyətdə demək olar ki, hər yerdə saf şəkildə vəz edilə, eşidilə və yerinə yetirilə bilməz. Belə bir vəziyyətdə kilsə gizli kilsəyə keçmir ki, yalnız kiçik gizli bir mağarada və ya meşənin ortasında açıq sahədə Kəlamı vəz etsin, eşitsin və ya müqəddəs ayinləri yerinə yetirsin. (Bu, gizli kilsənin stereotipidir.) Əvəzinə, kilsə gizli kilsəyə keçir ki, 2 Timoteyə 2:9-cu ayənin həqiqətinə sadiq qalaraq Kəlam və müqəddəs ayinlər heç bir şəkildə zəncirlənməsin. (Məsihçi üçün həqiqət, hökumət və ya ümumi ictimaiyyət tərəfindən deyil, Müqəddəs Kitab tərəfindən müəyyən edilir. Müqəddəs Kitab öyrədir ki, hətta hökumət bunun əksini israr etsə belə, Kəlam üçün sərhəd yoxdur və kilsə buna inanır.) Kəlam və müqəddəs ayinlər heç vaxt zəncirlənmədiyi üçün Rəbb kilsəni kilsə binasından başqa yerlərə aparacaq ki, həmin yerlərdə bu lütf vasitələri paylaşılsın.

Gəlin başqa bir nümunəyə baxaq. Təsəvvür edin ki, bir hökumət homoseksuallığın günah olduğunu deməyi və bu

haqda ictimai yerlərdə və ya mediada danışmağı cinayət sayan qanunlar qəbul edir.

Lakin hökümət deyir ki, kilsə öz binasında istədiyi hər bir şeyi edə bilər. Belə bir vəziyyətdə kilsə gizli fəaliyyətə keçməlidirmi?

Bəli, belə vəziyyətdə kilsə gizli kilsəyə keçməlidir, çünki Kəlamın zəncirlənməsinə cəhd olunur. Kilsə Kəlamın və müqəddəs ayinlərin sahibi yox, onlara xidmət edən qurumdur. Yəni, kilsə Allahın istədiyi yerdə və zamanda Onun Kəlamını eşitdirmək üçün xidmət etməlidir. Rəbb üçün Kəlamının harada, nə vaxt və kim vasitəsilə və kimlərə çatdırılacağı ilə bağlı heç bir sərhəd yoxdur. O, dünyaya qalib gəlib, orada sadəcə daşınmaz əmlak əldə etməyib. Lakin azad dünyada kilsə gizli kilsəyə keçmək əvəzinə, hökumətin qoyduğu belə məhdudiyyətləri qəbul etməyə meyllidir. Kilsə belə deyir: "Biz hələ də öz binamızda Müjdəni vəz edib ayinləri yerinə yetirə bilirik. Gizli kilsəyə keçməyə ehtiyac yoxdur". Amma bu düşüncəyə görə Rəbbin yerini kilsə tutur. Rəbb isə sanki kilsəyə xidmət edən biri kimi görünür. Bu halda, kilsə İncildə yazılmış axmaq adama bənzəyir. O adam öz-özünə deyirdi: "Ey canım, illərlə kifayət qədər var-dövlət yığmısan.

> Amma Allah ona dedi: 'Ay axmaq! bu gecə canını səndən alacaqlar. Bəs hazırladığın kimə qalacaq?' Özü üçün xəzinə toplayan, amma Allahın önündə varlı olmayan hər bir insanın axırı da elə olacaq".[96]

Allahın Kəlamı və müqəddəs ayinlər kilsəyə məxsus deyil, onları heç kim zəncirləyə bilməz. Kilsənin onları nəzarət altında saxlaması mümkün deyil, çünki onları heç kim məhdudlaşdıra bilməz. Kilsə onlara tabe olmalıdır və Allahın Ruhunun apardığı yerdə onları yerinə yetirməlidir.[97]

---

96 Luka 12:19-21.

97 Yəhya 3:8.

## Kilsə qurucuları üçün tədbirlər:

- Əgər siz gizli kilsə yaradırsınızsa, bunu cəmiyyətdə və ya mövcud kilsədə nəyinsə əleyhinə görə edirsinizsə, onda tövbə edin və bilin ki, heç bir kilsə "nəyinsə lehinə" və ya "nəyinsə əleyhinə" olmaq üçün yarana bilməz. Kilsə Kəlamın və müqəddəs ayinlərin sahibi deyil, əksinə onların xidmətçisidir.
- İncilin düşmənləri üçün fiziki və ruhani ölməyə hazırsınız? Əgər hazır deyilsinizsə, onda gizli kilsədə əsas şeyi saxlaya bilməzsiniz. Əvvəlcə hər an, hər yerdə Müjdəni vəz etməyə, dua etməyə və ya ölməyə hazır olun və yalnız bundan sonra siz gizli kilsə qurmağa hazır olacaqsınız.

## Mövcud kilsələr üçün tədbir addımları:

- Almaniyada mövcud kilsələrin nə zaman, necə və niyə gizli kilsələrə keçdiyini öyrənin. Xüsusilə də "Etiraf edən Kilsə"nin Barmen Bəyanatını[98] öyrənin və onu kilsənizin əsas sənədlərinə və inancına əlavə edin ki, yadda saxlansın və öyrənilsin.
- Özünüzə sual verin: "Allahın Kəlamı Koreyanın hər yerində vəz oluna, eşidilə bilərmi və yaxud müqəddəs ayinlər icra oluna bilərmi?" Əgər bunlar olunmursa, harada və niyə olunmur?
- Əsas şey hələ də kilsənizdə əsas şey olaraq qalıb? Yoxsa vəzlər getdikcə qısa, müqəddəs ayinlərsə nadir hallarda icra olunur ki, daha məşhur olan şeylər əsas şeyə çevrilsin? Əgər insanlar Kəlamın yalnız 20 dəqiqəlik düzgün vəzini dinləyə bilirsə, pastor bu

[98] http://www.sacred-texts.com/chr/barmen.htm.

vəzi qısaltmalıdırmı, yoxsa Müjdə tam çatdırılana qədər, kilsə üzvləri və ziyarətçilər narazı olsalar da, davam etməlidirmi?

- Zəngin gənc (Mark 10:17-27) öz yaşadığı yerdə Kəlamı qəbul etməyə hazır idi, lakin o öz yerini tərk edib Rəbbin istədiyi tərəfə getməsinə hazır deyildi. Müqəddəs Kitab deyir ki, bunun səbəbi onun çox böyük var-dövlətə sahib olması idi. Koreyada hökumət və cəmiyyət Kəlamı məhdudlaşdırmağa başladıqda, siz Kəlamın istədiyi yerə getməsi üçün kilsənin bütün var-dövlətini satmağa hazırsınız? Rəbb deyir ki, böyük anbarları olan adam, onları dağıdıb daha böyüyünü tikməyə çalışarsa, o ağıllı sayılmaz. Bəs siz Kəlamı və müqəddəs ayinləri Koreya hökumətinin və cəmiyyətinin məhdudlaşdırmağa çalışdığı yerlərə aparmaq istəyirsinizsə, bunu hikmətlə necə etməlisiniz?

# 4-cü Prinsip. Binalarda deyil, insanların çox olduğu yerlərdə görüşlər keçirin

Əvvəlki prinsipdə göstərildiyi kimi, kilsə qurmağın problemi ondan ibarətdir ki, çox vaxt bir ərazidə insanların Allahın Kəlamını dinləmək və müqəddəs ayinləri yerinə yetirmək üçün binaya ehtiyacları olur. Bu, tamamilə səhv bir yanaşmadır. Con Vesli "Dünya mənim məhəlləmdir" deyərkən, hər kənddə metodist kilsəsi tikilməsini nəzərdə tutmurdu. O, sadəcə olaraq Müjdənin hər yerə çatmasını və insanların müqəddəs ayinlərə olan ehtiyacının ödənilməsini istəyirdi. Başqa sözlə o demək istəyirdi ki, harada olmağımdan asılı olmayaraq, bu dünyada olduğum hər bir yerdə, Müjdəni dinləməyə hazır olanlara Rəbbin xilasını bəyan etmək mənim borcumdur.[99]

Con Vesli əvvəlcə açıq havada (yəni insanları xüsusi binalara toplamaq əvəzinə, onların olduqları ictimai yerlərdə) vəz etmək fikrindən dəhşətə gəlmişdi. Lakin tezliklə bu, onun üçün praktik bir zərurətə çevrildi, çünki bütün kilsə binalarının qapıları onun üzünə bağlanmışdı.[100] Amma sonda onu açıq havada vəz etməyin Müqəddəs Kitaba əsaslanan bir zərurət olduğuna inandıran praktiki səbəblər deyil, teoloji əqidə oldu. Con Vesli yazırdı ki, açıq havada Kəlamı vəz etməyə onu ruhlandıran sadəcə "məsihçi olmaq arzusu" idi.[101]

---

99 Con Vesli, "Bütün Dünya Mənim Xidmət Ərazimdir," Con Veslinin Gündəlikləri. Link to Journal

100 Məsihçiliyin Tarixi, "Con Vesli: Bilməli Olduğunuz Nədir?" Christianity Today. Link to Article.

101 Eyni mənbə

Kilsə Kəlamın və müqəddəs ayinlərin sahibi deyil, xidmətçisi olduğunu anladıqda, gizli kilsənin niyə binaya sahib olmadığını başa düşmək olur. Bu, təkcə qanunla binaya sahib olmadığına görə deyil. Bu, həm də ona görədir ki, gizli kilsə heç bir halda məhdudlaşmayacaq Kəlam həqiqətinə uyğun yaşasın və müqəddəs ayinləri yerinə yetirsin. O, hökumətin "Burada deyil, amma orada vəz et, bu mövzuda deyil, başqa mövzuda danış, Kəlamı bu adamlara deyil, digərlərinə danış" kimi təkliflərini qəbul etməyə səlahiyyəti yoxdur.

Ən sadə şəkildə desək, biz gizli kilsəni özümüzün və tanıdığımız insanların artıq yaşadığı, işlədiyi, görüşdüyü və oynadığı yerlərdə qurmalıyıq.

Müqəddəs Kitab deyir ki, Allahın Kəlamı zəncirlənməmişdir. Kilsələr hökumətin deyil, Rəbbin Kəlamına itaət etməlidir. Hökumətlər Kəlamın yalnız rəsmi qeydiyyatdan keçmiş binalarda yayıla biləcəyini iddia etsələr də, bu, doğru deyil. Hökumət istənilən binanı açıb və ya bağlaya bilər, amma hər bir ölkədə insanlar həmişə yaşayır, işləyir və görüşürlər. İnsanlar haradadırsa, gizli kilsə də orada cücərməyə başlayır. Bu yolla, qaranlıq heç vaxt nuru[102] məğlub edə bilməz və Kəlam əsla zəncirlənə bilməz.

Məhz buna görə də biz gizli kilsə üçün "gizlənir" demirik. O sadəcə insanların toplandığı yerdə yaranır. Rəbbin Kəlamının vəz olunduğu və müqəddəs ayinlərin yerinə yetirildiyi yer məhz buradır. Rəbbin kilsəsi də bu yolda itaətlə Onu izləməlidir. Həvarilərin İşləri kitabında ilk məsihçilər evlərdə[103], çay kənarında[104] və mühazirə zallarında[105] yığışırdı. Burada məqsəd gizlənmək üçün deyildi, sadəcə adi insanların toplandığı yerlər idi və Rəbb Özünü təqdim etmək üçün bu yerləri seçmişdi.

---

[102] Yəhya 1:5
[103] Həvarilərin İşləri 2
[104] Həvarilərin İşləri 16:13
[105] Həvarilərin İşləri 19:9

Matta 13:33-cü ayədə İsa Məsihin dediyi məsəldən istifadə etsək, kilsə xəmir mayası, insanların toplandığı yerlər isə xəmirdir. Bugünkü düşüncə tərzimizdəki problem odur ki, biz səhvən kilsənin özünü xəmir kimi qəbul edirik. Biz kilsəni mayalandırmağa çalışırıq və kilsə böyüdükcə daha böyük "çörək qutusu"na ehtiyac duyur. Bu vaxt isə xəmir – yəni dünya – zəifləyir və unudulur.

Çünki dünya gizli kilsənin xidmət sahəsidir (və burada "dünya" anlayışını coğrafi yox, Müqəddəs Kitabda olduğu kimi, Allahın Padşahlığına qarşı duran hər şey kimi başa düşürük). Bizim harada toplaşacağımız aydındır, biz toplandığımız yerlərdə yığışırıq. Əgər xüsusi bir bina əldə etsək, onda biz dünyanı deyil, özümüzü mayalandırmış olarıq (bu da əvvəlki prinsipdə qeyd olunan Luka 12:19-21-ci ayələrdəki axmaq insanın günahıdır) və əsl xəmiri, yəni dünyanı mayasız qoymuş olarıq.

Əlbəttə ki, artıq olduğumuz yerlərdə yığışmağın bir çox əlavə faydaları var. Məsələn, gizli kilsə adi insanların olduğu yerlərdə toplaşmaqla istənilən yerdə və istənilən vaxt yığışmağı öyrənir. Bu isə ciddi təqiblər dövründə çox vacibdir. Üstəlik, evlərimizə və toplaşdığımız yerlərə müqəddəs məkan kimi baxmağa başlayırıq. Demək olar ki, binalara pul xərclənmir və məsihçilər öz ondabirlərini, ianələrini Allahın sevgisini dünyaya göstərməyə sərf edə bilirlər. Gizli kilsədə ondabirlər və ianələr barədə daha ətraflı şəkildə 15-ci Prinsipdə danışılacaq.

## Kilsə yaradanlar üçün tədbirlər:

- Gizli kilsəni açıq havada vəz etmək üçün yaradın. Açıq havada vəz etmək küçə küncündə durmaq demək deyil. Bu, sizin və başqalarının artıq olduğu yerlərdə vəz etmək deməkdir. Açıq havada Müjdəni vəz etmək

barədə daha ətraflı məlumat üçün Çarlz Spercenin *Açıq Havadakı Vəz*[106] klassik əsərinə müraciət edin.

- Siz Kəlamı Müqəddəs Ruhun istədiyi yerə aparmağı bacarırsınızmı? Bunun üçün əsas mətn olan Həvarilərin İşlərini oxuyun.
- Gizli kilsə sadəcə ev kilsəsi deyil. Əsas məsələ kilsənin hansı quruluşa sahib olması deyil, kilsənin xəmir, yoxsa mayalanan kütlə olmasıdır. Gizli kilsəni qurmağa başladıqda, insanların artıq olduğu yerlərdə görüşlər keçirməyə məqsədli şəkildə yanaşın. Əgər öz evinizdə görüşsəniz, sadəcə kiçik bir binada toplaşan kilsə olacaqsınız, amma gizli kilsə olmayacaqsınız.

## Mövcud kilsələr üçün tədbirlər:

- Kilsənizin görüş yeri haradır? Tarix boyu kilsələr müəyyən bölgələrə ayrılırdı və pastor həmin bölgədə yaşayan hər bir insana xidmət etməli idi. Siz də kilsənizlə birgə dua edərək hansı insanlara və hansı əraziyə xidmət etməli olduğunuzu müəyyən edin. Sonra həmin ərazidə Allahın Kəlamını və müqəddəs ayinləri sadiqliklə öyrədin və yerinə yetirin. Bu, sadəcə insanları kilsə binasına dəvət etmək və ayinləri orada keçirmək deyil. Bu, Kəlam və müqəddəs ayinlərlə yaşadığınız ərazidəki insanlara xidmət etmək deməkdir.
- Kilsənizin ərazisində yeni görüş yerləri tikmək əvəzinə kilsə üzvlərinizi ruhlandırın ki, toplaşdıqları yerlərdə (dua ilə müəyyən etdiyiniz ərazidə) Kəlamı yaysınlar və müqəddəs ayinləri həyata keçirsinlər. Başqa sözlə,

[106] İngilis dilində olan pulsuz bir nüsxəni bu ünvandan yükləyə bilərsiniz: http://www.chapellibrary.org/files/3214/4908/7639/oapr.pdf

kilsə insanların olduğu yerə getsin və onlara bir maya kimi təsir etsin. Kilsə binasını özünüz üçün mərkəzə, yəni xəmirə çevirməyin.

- Səhər dua xidmətlərini kilsə binasından kənarda, mümkün qədər müxtəlif yerlərdə keçirin. Bu görüşləri kilsə üzvlərinin evlərində keçirmək olar, amma diqqət edin ki, fəaliyyətiniz yalnız onların yaşadığı yerlərlə məhdudlaşmasın.

# 5-ci Prinsip. Kilsə ailələrin ailəsi olaraq

Əvvəlki prinsipin izah etdiyi kimi, gizli kilsə gündəlik həyatda, adi insanların artıq mövcud olduğu yerlərdə qurulur. Lakin bu, bizim sadəcə insanların olduğu yerdə Müjdəni yaymağımız və sonra həmin yerdə iman edənlərlə ibadət xidmətləri keçirməyə başlamağımız demək deyil.

Çünki biz insanları və yerləri kilsəyə daxil etmirik, əksinə, kilsəni insanlara və yerlərə daxil edirik. Bu, gizli kilsə qurulmasının sirridir və əslində biz kilsə qurmuruq. Bunun əvəzinə, biz Kəlamı və müqəddəs ayinləri insanların mövcud olduğu yerlərə, yəni ailələrə, iş yerlərinə və məktəblərə daxil edirik.

Hər insanın bir əlaqə dairəsi var. İnsanlar bu dairələrdə bir-birilə öyrəndikləri vərdişlərə uyğun tərzdə münasibət qururlar. Əgər biri İsanı tanımırsa, onun əlaqələri əsasən dünyadan öyrəndiyi davranışlara və günahkar[107] təbiətə əsaslanır. Amma Müjdə və müqəddəs ayinlər bu dairələrə daxil olduqda, bu münasibətlər dəyişə bilər.

Burada yalnız insan deyil, bütövlükdə əlaqə dairəsi dəyişə bilər[108]. Kilsə, insanların köhnə vərdişlərinə və günahlı təbiətinə əsaslanan əlaqə dairəsi deyil. Kilsə, Allahın Kəlamının düzgün təbliğ olunduğu və müqəddəs ayinlərin düzgün icra edildiyi, insanların münasibətlərinin dəyişdiyi bir əlaqələr şəbəkəsidir. Bu anlayışla kilsə quruluşunu görəndə başa düşürük ki, Əhdi-Cədidin çox hissəsi bizə əvvəlcə öz əlaqə dairələrimizdə, sonra başqalarının əlaqə dairələrində bu işi görmək üçün yazılıb. İsa

107 Müqayisə edin, xüsusilə Yaradılış 3:16-19.

108 Həvarilərin İşləri 16:31-ci ayəyə baxın.

qeyd etdi ki, Kəlam ailəyə və ya mövcud əlaqə dairəsinə təqdim edildikdə, nəticədə tez-tez münaqişələr yaranır. Əlaqə dairəsindəki bəzi insanlar, dünyadan öyrəndikləri və əsas günahdan irsən götürdükləri nümunələrə görə bir-birləri ilə ünsiyyət qurmaq istəyirlər. Digərləri isə Kəlam və müqəddəs ayinlər vasitəsilə İsa Məsihdən öyrəndikləri yeni nümunələrə əsasən bir-birləri ilə ünsiyyət qurmaq istəyirlər. Buna görə də İsa deyir:

> "Çünki Mən oğulu atasından, qızı anasından, gəlini də qayınanasından ayırmağa gəlmişəm. 'İnsanın düşməni öz ev əhli olacaq'."[109]

Burada "ev əhli" sözü sadəcə ailə üzvlərini yox, birlikdə yaşayan və bir-birinə bağlı olan insanları – ailə üzvləri, qulları, xidmətçiləri və işçiləri əhatə edirdi.[110] Bizim bu gün "əlaqə dairəsi" dediyimiz anlayış Müqəddəs Kitabda "ev əhli" adlandırılır. Yəni, kilsə – Allahın Kəlamı və müqəddəs ayinlərlə yaşayan bu insanların qrupudur.

İsanın dövründə hər ailəni adətən bir kişi idarə edirdi. Bu kişiyə "ailə başçısı" deyilirdi. O, ailəsindəki insanların həyatına tam nəzarət edirdi – hətta onların yaşayıb-yaşamayacağına qərar verə bilərdi. Ailə başçısı, ailəni öz öyrəndiyi qaydalarla və günahkar insan təbiətinə uyğun şəkildə idarə edirdi. Məsələn, bir uşaq doğulanda onu yerə qoyurdular. Əgər ailə başçısı onu yerdən qaldırırdısa, onda uşaq ailənin bir üzvü sayılırdı. Əks halda, uşaq taleyin ümidinə buraxılardı və ya kiminsə tərəfindən alınıb qul kimi böyüdülə bilərdi.[111]

Erkən məsihçilərin məqsədi ailə başçısını yaxınlıqdakı bir kilsəyə getmək və ya onun evini açıb orada kilsə görüşləri keçirməyə razı

---

109 Matta 10:35-36.

110 Ben Vizerinqton, *Həvarilərin İşləri: Sosial-ritorik şərh.* Qrand Rapids, Miçiqan: Wm. B. Erdmans Nəşriyyat Şirkəti, 1997, səh. 338.

111 PBS. "Ailə Həyatı," *Birinci Əsr Roma İmperiyası.* http://www.pbs.org/empires/romans/empire/family.html.

salmaq deyildi. Erkən məsihçilərin məqsədi, Kəlamı və müqəddəs ayinləri ailə başçısının idarə etdiyi evə gətirmək idi ki, o evdəki hər kəsin münasibətləri dəyişsin. Dəyişmiş bir ev əhli, *kilsənin* əsasıdır.

İsa şagirdlərini kilsə qurmaq üçün göndərərkən, Onun əsas strategiyası sülhsevər ailə başçısını tapmaq idi.[112] Paul şəhərlərdə məsihçi rəhbərləri təyin edərkən, o, ailələrini Məsihin qaydalarına görə yaxşı idarə edən ailə başçılarını seçirdi. O, soruşurdu: "Öz şəxsi evini idarə edə bilməyən Allahın cəmiyyətinin qayğısına necə qala bilər?"[113] Çünki Tanrının kilsəsi ailələrdən ibarət bir ailə kimi təsvir edilir.

İndiki kilsələr xitabət kürsüsündən qurulur. İnsanlar xitabət kürsüsü ətrafında qurulmuş xüsusi bir binaya toplaşırlar. Kilsənin pastoru həmin kürsüdən kilsəni idarə edir. Kürsü kilsə həyatının mərkəzidir. Burada Müjdə düzgün şəkildə təbliğ olunur və ayinlər düzgün şəkildə icra edilir.

Amma gizli kilsə "ailə başçısından" qurulur: Hər bir ailə kilsə həyatının mərkəzi olaraq Müjdəni düzgün şəkildə vəz edir və ayinləri düzgün şəkildə icra edir. Pastorun və ağsaqqalların vəzifəsi isə bunu təşkil etməkdir.

İndiki ictimai kilsə asanlıqla bağlana bilər. Məsələn, pastor həbs oluna bilər və ya bina bağlana bilər. Amma gizli kilsəni dayandırmaq çətindir, çünki hətta pastor həbs olunsa belə, hər bir ailə bu fəaliyyəti davam etdirir. Hər bir ailə başçısı öz ailəsində Müjdəni düzgün şəkildə vəz edir, ayinləri icra edir və onların həyatı Məsihin yolunu əks etdirir.

## Kilsə qurucuları üçün tədbir addımları:

- Öz ailənizi yaxşı idarə etmisinizmi? Orada Kəlam aydın şəkildə təbliğ edilirmi? Orada müqəddəs ayinlər

[112] Luka 10:6-cı ayəyə baxın.

[113] 1 Timoteyə 3:1-5

düzgün icra edilirmi? Oradakı ünsiyyətlər Məsihin yolunu əks etdirirmi? Bu, gizli kilsə quruculuğunun başlamalı olduğu düzgün yerdir.

- Strategiyanızı Müjdəni təkcə insanlara çatdırmağa yox, Müjdəni evlərə çatdırmağa yönəldin. Unutmayın, kilsənin əsas məqsədi — hər evdə Allahın Kəlamının düzgün şəkildə təbliğ olunması və müqəddəs ayinlərin düzgün şəkildə icra edilməsidir. Orada sülhpərvər bir insan varsa, məqsəd onu oradan çıxarıb sizin evinizə gətirmək deyil. Ətraflı və praktiki bir bələdçi üçün Luka 10-cu fəsli oxuyun.

## Mövcud Olan kilsələr üçün tədbir addımları:

- Kilsənizin mərkəzi pastorun dayandığı kürsü deyil, hər bir ailə başçısının evi olmalıdır. Camaata başa salın ki, pastorun əsas rolu – ailə başçılarını (və ya tək yaşayan şəxsləri) təlimləndirməkdir ki, onlar öz evlərində Allahın Kəlamını düzgün öyrətsin və müqəddəs ayinləri düzgün şəkildə yerinə yetirsinlər. Kilsənin bütün planları bu məqsədə xidmət etməlidir. Çünki bu, kilsənin əsas vəzifəsidir.
- Pastorlar, yuxarıdakı tədbir addımında kilsə qurucusuna verilən sualları özlərinə verməlidirlər: “Öz ailənizi yaxşı idarə edirsinizmi? Orada Kəlam aydın şəkildə təbliğ edilirmi? Orada müqəddəs ayinlər düzgün icra edilirmi? Oradakı ünsiyyətlər Məsihin yolunu əks etdirirmi? Əgər pastor öz ailəsini yaxşı idarə etmirsə, o, kilsəni yaxşı idarə edə bilməz.

# 6-cı Prinsip. Kilsəni bazar günü ibadətindən gündəlik ailə həyatına keçirmək

Koreyalı məsihçilər üçün “Kilsəyə gedirsənmi?” sualı eyni zamanda “Sən məsihçisən?” sualı ilə eynidir. Kilsəyə getmək, koreyalı məsihçilərin etdikləri yeganə şey deyil. Lakin bu, ümumiyyətlə, əsas bir şey hesab edilir.

Əslində, koreyalı məsihçilərin fikrincə, bazar günü ibadət üçün bir yerə yığışmadan güclü bir məsihçi olmaq mümkün deyil. Əlbəttə, az sayda koreyalı məsihçi bazar günü kilsəyə getməyin güclü məsihçi olmaq üçün yetərli olduğunu düşünür. Lakin çoxları güclü məsihçi olmaq üçün bazar günü kilsəyə getməyin vacib olduğunu deyir.

Lakin tarix boyu gizli kilsələr məsihçi həyatını belə yaşaya bilməyiblər. Şimali Koreya, Somali və ya Səudiyyə Ərəbistanı kimi ölkələrdə insanlar həftəlik ibadət üçün evlərdə toplaşa bilmirlər. Buna görə də gizli məsihçilər üçün bazar günü ibadətə yığışmaq əsas ola bilməz. Əvvəlki prinsipə görə, gizli kilsə hər ailəni dəyişdirməyə və Məsihi ailə həyatının mərkəzinə qoymağa çalışır.

Bazar günü hamının bir yerdə ibadət etməməsi gizli məsihçiləri zəiflətmir. Onlar ümumi kilsəyə gedib orada inciyən məsihçilər deyillər. Belə ki gizli məsihçilər sərbəst dünyadakı məsihçilərdən daha güclüdür, çünki hər ailə “bütün kilsə” kimi davranmağı öyrənir. Hər ailə Kəlamı düzgün oxuyub, müqəddəs ayinləri düzgün yerinə yetirməyi

öyrənməlidir. Onlar kilsədə təkcə pastorun dedikləri ruhani qida ilə kifayətlənməməlidirlər. Onlar özləri də ruhani qida hazırlamağı bacarmalıdılar.

Gizli kilsə üçün əsas ibadət forması gündəlik ailə ibadətidir. Bu ibadət çox sadə və rəsmi olmayan şəkildə keçirilir və vəziyyətdən asılı olaraq 10 dəqiqə və ya bir neçə saat çəkə bilər. Çox vaxt bu ibadətdə yalnız ailə üzvləri iştirak edir, çünki onlar artıq hər gün birlikdədirlər. Aşağıda gündəlik ailə ibadətinin ümumi görünüşü verilib (bu mövzuların bir çoxu növbəti prinsiplərdə daha geniş izah olunacaq).

- Ailənin rəhbəri hər gün (və ya axşam) ibadəti idarə edə bilər. Rəhbərliyi başqa ailə üzvü də idarə edə bilər, uşaqlar da burada iştirak edir. Bu şəkildə ailədə hər kəs ibadəti aparmağı öyrənir.
- Ailə üzvləri birgə ilahilər oxuyur, əzbərləmək istədikləri yeni ilahiləri də öyrənirlər. Çox vaxt ilahiləri musiqi alətləri olmadan oxuyurlar. Bu şəkildə hər kəs oxumağı öyrənir və tək başına oxumağa rahatlıqla öyrəşir.
- İbadət rəhbəri Müqəddəs Kitabdan bir parça oxuyur, çox vaxt bunu əzbərləmək lazım gəlir. Ailənin digər üzvləri həmin yazını əzbərləmək üçün təlim alır. Eyni yazını bir neçə gün araşdıraraq, beləcə bütün ailə onu əzbərləyə bilər.
- İbadət rəhbəri Müqəddəs Kitabdan bir hissəni paylaşır. Ailə üzvləri onu öz həyatlarına necə tətbiq edəcəklərini müzakirə edirlər.
- İki fərqli etiqad bəyanatı, *Nikeya etiqadı* və *Həvari etiqadı* birgə oxunulur və öyrəndiyiniz həmin bəyanatla yoxlanılır.
- Dua zamanı, ailə həm əzbərlənmiş duaları (məsələn, Rəbbin duası, dua kitabları və məşhur məsihçilərin

duaları), həm də hər bir şəxsin özünə aid qeyri-formal dualarını edir. Hər kəs burada dua edir. Bu yolla hər kəs ucadan dua etməyi öyrənir.

- Ailə içindəki hər hansı münaqişələr açıq şəkildə müzakirə edilir və Məsihin yoluna uyğun tərzdə həll olunur[114]. Sonra görüş Məsihin məhəbbətini göstərməklə yəni, əl sıxmaq, görüşmək və ya qucaqlamaqla bitir.
- Kilsənin denominasiya mənşəyinə və mövcud vəziyyətinə görə, müvafiq hallarda, müqəddəs ayinlər tətbiq oluna bilər.

Gündəlik ailə ibadəti vasitəsilə xilas bu evə[115] də gəlir. Məsihin yolu gündəlik ailə daxilindəki münasibətləri, eləcə də ailənin dünya ilə münasibətini dəyişdirir.

Bu yolla gizli kilsə erkən kilsəyə daha çox bənzəyir. Cəmiyyət erkən kilsə haqqında belə demirdi: “Baxın, onlar nə qədər tez-tez ibadət üçün yığışırlar”. Bunun əvəzinə, cəmiyyət sadəcə deyirdi: “Baxın, məsihçilər necə bir-birlərini sevirlər”.[116]

Bəzi məsihçilər bu prinsipi oxuyub etiraz edə bilərlər. Amma İbranilərə 10:25-ci ayədə deyilir: “Bir-birimizlə görüşməyə laqeyd yanaşmayaq”. İbranilərə 10:25-ci ayə yalnız hazırkı Koreya kilsəsinin görüşmə tərzini dəstəkləmək üçün istifadə edilməməlidir. İbranilərə 10:25-ci ayədə söhbət xüsusi kilsə binalarında keçən görüşdən getmir. İbranilərə 10:25-ci ayə yazıldığı zaman bu cür binalar mövcud deyildi. İbranilərə 10:25-ci ayə yazıldığı dövrdə kilsə təqib ilə üzləşirdi və məsihçilər gizli fəaliyyət göstərirdilər. Onlar qarşıdurma və əzabdan qorxaraq bir araya gəlməkdən imtina edirdilər. Şübhəsiz ki, İbranilərə 10:25 və Əhdi-Cədidin qalan hissəsi yazıldığı zaman məsihçilər ailələrdə toplaşırdılar.

114 Matta 18:15-35.
115 Luka 19:9.
116 Tertullian. “Sitatlar.” http://www.tertullian.org/quotes.htm.

# Kilsə quranlar üçün addımlar:

- Evdə hər gün ailə ilə birgə ibadəti əsas ibadət formasına çevirin. Gizli kilsə məhz bu şəkildə formalaşacaq, çünki sizin nümunəniz digər ailələrə də yol göstərəcək və onları ruhlandıracaq.

# Mövcud kilsələr üçün addımlar:

- Kilsə rəhbərləri və pastorlar evlərində gündəlik ailə ibadətini əsas kilsə təcrübəsi kimi vərdişə çevirməlidirlər. Sonra isə bazar günü ibadətlərini əsasən ailə başçılarını evdə bu ibadəti aparmağa hazırlamaq və onları bu işə cavabdeh olmağa yönəltmək lazımdır.
- Pastorlar və kilsə rəhbərləri ailələri ziyarət edəndə, əsas məqsədləri həmin evləri ailə ibadəti üçün hazırlamaq olmalıdır. Donald Vitninin *Ailə İbadəti* adlı kitabı həm ingilis, həm də koreya dilində mövcuddur və bu mövzuda faydalı ola bilər. Kilsədəki hər ailəyə bu kitabdan bir nüsxə verin və birlikdə oxumaq üçün ümumi bir plan hazırlayın.

# 7-ci Prinsip. Peşəkar rəhbərlərin əvəzinə həvəskarları istifadə edin

Azad kilsələr üçün mümkün qədər böyük, mərkəzləşmiş və peşəkar olmaq bir çox üstünlüklər təqdim edir. Ən böyük kilsələr ən istedadlı vəzçiləri və ilahi oxuyan rəhbərləri işə götürürlər. Bu yolla onlar öz kitab dükanlarını, kafelərini və media şəbəkələrini idarə edirlər. Marketinq, reklam və könüllülərin dəstəyi ilə kilsələr özünə daha çox üzv cəlb edib böyüyürlər. Onlar kiçik və çətinlik çəkən kilsələrə kömək edə bilirlər. Nəhayət, məsihçi adından siyasətə və ictimaiyyətə təsir göstərə bilirlər.

Bu cür azad kilsə bir şirkət olduğu üçün o, dünyanın sistemlərinə bağlıdır və daxili quruluşu ilə insan resurslarına olan ehtiyacları mürəkkəbdir. Buna görə də, azad kilsə peşəkarlar tərəfindən idarə edilir.

Koreya kilsəsində bir nəfər iman yolunda daha ciddi olmaq və məsihçi cəmiyyətində rəhbərlik məsuliyyəti daşımaq istədikdə, ona adətən seminariyaya getmək tövsiyə olunur. Orada o, rəsmi şəkildə xidmət üçün təlim alır və peşəkar şəhadətnamə əldə edir. Bu şəhadətnamə isə ona azad kilsədə işləmək üçün qapı açır.

Bu, son onilliklərdə Koreya kilsəsinin böyüməsinə səbəb olan bir strategiyadır və bir çox baxımdan uğurlu sayılır. Belə bir strategiya o zaman yaxşı işləyir ki, kifayət qədər maliyyə, insan resursu və ictimai maraq olsun, hökumət də ya dəstək versin, ya da ən azı mane olmasın.

Bir strategiya bir mühitdə işləyə bilər, amma başqa bir mühitdə eyni nəticəni verməyə bilər. İndi isə yeni bir vəziyyət

açıq şəkildə görünür. Kilsəyə gələnlərin və üzvlərin sayı xüsusilə gənclər arasında getdikcə azalır.[117] Bu da, yaxın gələcəkdə pul məsələləri ilə bağlı suallar yaradır. Üstəlik, Koreyada insanlar kilsə barədə pis düşünməyə başlayıb.[118] Belə çətin bir vaxtda, Koreya kilsəsi bu "böyük, mərkəzləşdirilmiş və peşəkar" sistemi necə davam etdirəcək?[119]

Kilsəni böyük, mərkəzləşmiş və peşəkar bir açıq, azad təşkilat kimi idarə etmək üçün verilən təlim, gizli kilsə üçün demək olar ki, heç bir fayda vermir. Gizli kilsə tamamilə fərqli bir təlim növünə ehtiyac duyur və bu təlim növü isə həvəskarlar üçün daha uyğundur.

Bu gün "həvəskar" sözü çox da müsbət mənada işlədilmir və tərif kimi səslənmir. Bu söz, adətən, peşəkar olmayan birini, ya kifayət qədər bacarığı olmayan, ya təcrübəsi az olan, ya işi ciddi bacarmayan, ya da öz iş sahəsində maaş almağa layiq görülməyən birini təsvir edir. Amma bu təəssüf doğuracaq qədər yanlış bir tərifdir. "Həvəskar" sözü latınca *amare* – "sevmək" sözündən

[117] Byuq Joon Çunq, "Koreya Protestant Kilsəsinin Artımı və Azalması üzərində Düşüncələr," *International Review of Mission*, 103:2, 2014, s. 319-333; həmçinin Kvon Hyeok-ryul, "Koreyada məsihçilərin sayı niyə azalır?" *The Hankyoreh*, http://english.hani.co.kr/arti/english_edition/e_opinion/148175.html.

[118] Bu silsilənin birinci cildi olan *Gizli Kilsəyə Hazırlıq* (Seul: Şəhidlərin səsi təşkilatı, 2017) kitabına, xüsusilə də mənim yazdığım Giriş hissəsinə baxın.

[119] Tarix göstərir ki, böyük, mərkəzləşdirilmiş və peşəkarlaşdırılmış kilsə quruluşları sosial dəyişikliklərə çox tez uyğunlaşa bilər və bu strukturlar hökumət tərəfindən həmin dəyişiklikləri təşviq etmək və dəstəkləmək üçün istifadə oluna bilər – hətta bu dəyişikliklər imanlı kilsənin həmişə təlim verdiyi şeylərə zidd olsa belə. Bax: Peter Kuzmic, "Pentekostal Teologiya və Kommunist Avropa," W.K. Kay və A.E. Dayer (red.), *Avropa Pentekostalizmi* (Qlobal Pentekostal və Xarizmatik Araşdırmalar). Leyden, Hollandiya: Brill, 2011, s. 344; Robert P. Eriksen və Susanna Heşel (red.), *Xəyanət: Alman Kilsələri və Holokost*, Minneapolis: Auqsburq, 1999; həmçinin bu silsilənin birinci cildində yazdığım giriş bölməsi: *Gizli Kilsəyə Hazırlıq*, Seul: Şəhidlərin səsi təşkilatı, 2017, s. 68-73.

yaranıb.[120] Yəni həvəskar bir işi sevdiyi üçün, şəxsi qazanc güdmədən görən insandır. Bu isə gizli kilsənin rəhbərliyi üçün zəruri və təsirlidir. Əslində bu, Müqəddəs Kitaba da uyğundur:

- İsa Məsih Özü də peşəkar deyildi və rəsmi təlim almış Rabbi (dini müəllim) sayılmırdı. Bu vəziyyət o dövrün dini peşəkarlarını dəli edirdi.
- Yəhya? Həvəskar.
- Peter? Həvəskar.

Əslində, kilsə tarixinin ilk əsrlərində çıxış edən böyük şəxsiyyətlərin əksəriyyəti, o cümlədən Müqəddəs Kitabın müəllifləri hamısı kiçik gizli kilsələrə rəhbərlik edən həvəskarlar idi. Onlar maaşla çalışan, böyük və mərkəzləşdirilmiş korporativ kilsələrə rəhbərlik edən peşəkarlar deyildilər. Amma heç kim onları təhsilsiz adlandıra bilməzdi, çünki onlar bütün dünyaya Müjdəni çatdırmağı bacardılar. [121]

Həvəskarlar tərəfindən idarə olunan kilsə İncil dövründə köhnə bir model deyil. Bu, Con Veslinin əvvəlcə İngiltərədə, sonra da Şimali Amerikada həyata keçirdiyi model idi. Vesliyan Oyanışı ("Wesleyan Revival") elə insanları və yerləri əhatə edirdi ki, bunlar "azad kilsə" çərçivəsinə sığmırdı. Vesli, bugünkü "pastor"un təkbaşına yerinə yetirdiyi xidmətləri görmək üçün həvəskar ilahi oxuyan rəhbərləri, yerli məsihçi rəhbərləri və bölgələri gəzən müjdəçiləri təyin edirdi.

Bu gün də həvəskar ruhani rəhbərlər dünyaya Müjdəni yaymaqda davam edir. Sadəcə, kilsənin sürətlə böyüdüyü bölgələrə nəzər salın və onlardan soruşun ki, orada rəhbərlik edən kimdir – həvəskarlar, yoxsa peşəkarlardır? Sonra kilsənin üzvlərinin azaldığı yerlərə baxıb eyni sualı verin. Bu sanki

---

[120] Onlayn Etimologiya Lüğəti, http://www.etymonline.com/index.php?term=amateur.

[121] Həvarilərin İşləri 17:6.

ödənişli pastorlar və binalar əldə olunana qədər kilsənin neytral vəziyyətdə qalması deyil. Əslində, bu, bir az əksinədir.

Peşəkarlıq, əlbəttə, təşkilatçılıq və idarəçilik baxımından səmərəlidir. Amma məsihçi yetkinliyinin yetişdirilməsi baxımından çox ciddi itkilər verir. Başqa sözlə, əgər pastor hər bazar günü böyük, mərkəzləşdirilmiş və peşəkar kilsədə vəz edirsə, onda adi bir məsihçinin vəz etməyi öyrənməsi çox az ehtimalla baş verəcək.

Amma pastor bir evə hər altı həftədən və ya altı aydan bir dəfə baş çəkirsə (Veslinin müjdəçiləri kimi), ya da heç vaxt baş çəkmirsə (şimali koreya məsihçiləri kimi) və bu müddət ərzində evdəkilər tam bir kilsə kimi fəaliyyət göstərirlərsə, onda heyrətamiz şeylər baş verəcək. Həmin ev rəhbərlərinin rəsmi təlim alıb-almamasından asılı olmayaraq onlar vəz etməyi, müqəddəs ayinləri yerinə yetirməyi öyrənirlər. Eləcə də, onlar teoloji düşüncəni araşdırmağı, məsləhət verməyi və imanlıların Məsihdə yetkinləşməsinə rəhbərlik etməyi öyrənirlər, çünki bunu Müqəddəs Ruhun köməyi ilə edirlər.

Gizli kilsə peşəkar pastor olmadan da ibadət etməyi öyrənib. Atalar, analar və evin rəhbərləri evdə toplaşan kilsələrə təbii şəkildə rəhbərlik edirlər. Əgər pastorlar belə kilsələrə baş çəkərlərsə, onlar ailə başçısının rəhbərliyini əvəz etmir, sadəcə ona dəstək olurlar.

Gizli kilsədə rəhbərlər seminariyadan çıxmır. Erkən kilsədə rəhbərlik etmək üçün xüsusi bir məktəbə getmək lazım deyildi. İnsan Məsihə imanda böyüdükcə və başqaları da buna şahid olduqda digərlərinə ruhən böyüməkdə kömək etməyə başlayırdı. Buna görə də Paul 1 Korinflilərə 11:1-ci ayədə belə deyirdi: “Mən Məsihdən nümunə götürdüyüm kimi siz də məndən nümunə götürün”.

Həvəskar rəhbərlərdən istifadə sadəcə pula qənaət etmək və ya təhlükədən qorunmaq üçün bir yol deyil. Bu, gizli kilsənin əsas məqsədini əks etdirir və hər bir üzvünün gündəlik həyatında Məsihə yaxınlaşmasına kömək edir. Ev rəhbərləri peşəkar deyil,

sadə insanlardır, amma Məsihin ardınca necə getdiklərini ailələrinə göstərərək nümunə olurlar. Paul da bu səbəbdən çadır tikirdi – çünki xidmətini sevirdi və Müjdəni yaymaq üçün peşəkar olmağa ehtiyac duymurdu.[122]

Bəs bu o deməkdir ki, Müqəddəs Kitab məktəbləri, seminariyalar və sertifikatlar artıq lazım deyil? Əsla. Onlar xüsusilə bir neçə evə və rəhbərə deyil, daha böyük bölgəyə rəhbərlik edən insanlar üçün faydalıdır. Yalnız regional səviyyədə rəhbərlik edənlər üçün seminariya təhsili, sertifikat və az miqdarda ödəniş tətbiq edilə bilər. Bu ödəniş sadəcə xərcləri ödəmək üçün kifayət etməlidir və bu işi heç vaxt gəlir mənbəyinə çevirmək olmaz.

## Kilsə quranlar üçün fəaliyyət addımları:

- Xidmətə çağırıldığınızı hiss edirsiniz? Seminariyaya getməyə tələsməkdənsə, əvvəlcə evinizdə yaxşı bir ailə rəhbəri kimi xidmət etməyə başlayın. Sonra bir neçə evdə xidmətə rəhbərliyi öyrənin. Əgər bu evlərdə sizi yetkin və faydalı bir rəhbər kimi tanıyarlarsa, o zaman seminariya və sertifikat barədə düşünmək olar.
- Həvari Paul kimi, xidmət etdiyiniz insanlar sizi tam dəstəkləyə bilməyincə, özünüzü həmişə həvəskar rəhbər və çalışqan biri kimi aparın.

## Mövcud kilsələr üçün fəaliyyət addımları:

- Böyük və tanınmış kilsə qurmaq arzusundan imtina edin. Dünyada Müqəddəs Kitabdakından daha böyük kilsə qurmağa ehtiyac yoxdur. Hətta Romalılara məktub bir neçə kiçik ev kilsəsinə yazılmışdı. Nəzarət

[122] 1-ci Korinflilərə 9:1-23

etdiyiniz evlərin sayı o qədər az olmalıdır ki, siz onlara tez-tez baş çəkə və hər bir ailə üzvünün Məsihdə böyüməsini izləyə biləsiniz.

- Pastor olaraq özünüzdən soruşun: "Mənim təlimim gizli kilsəyə rəhbərlik etməyə məni hazırlayıbmı? Orada əsas işim mütəmadi olaraq hər evə baş çəkərək, ev rəhbərinin Allah Kəlamını düzgün paylaşmasını və himayəsində olanlara müqəddəs ayinləri yerinə yetirməsini öyrətməkdirmi?" Əgər bu suallar sizi düşündürürsə, Riçard Baksterin *Allahın evi* və Con Veslinin əsərlərini oxuyaraq, ənənəvi pastorların həvəskar ev rəhbərlərini necə yetişdirdiyini öyrənə bilərsiniz.

# 8-ci Prinsip.
# Məcbur etməyin; əvəzində Məsihin ardınca getmək barədə ailələri xəbərdar edin

Məsihin ardınca getmək üçün axmaq insan şərtləri və maneələri qoymayın. İnsanları Məsihin ardınca getməyə cəlb etməyə və ya inandırmağa çalışmayın. Onlara xeyir-dua vəd etməyin. Yalnız azadlığa qovuşacaq həqiqəti[123], hər şeyin bahasına başa gələcək çarmıxı[124] və İsanın Özü kimi bu səfərdə əbədi müşayiətini[125] vəd edin.

İsa, şagirdlərindən Onun ardınca getməzdən əvvəl ailədən, var-dövlətdən və şəxsi təhlükəsizlikdən imtinanın nə qədər ciddi bir qərar olduğunu düşünmələrini istədi.[126] O, gələcək şagirdlərə açıq-aydın bildirdi ki, Onun ardınca getmək əlavə bir vəzifə və ya məsuliyyət deyil.[127] İsa hər dəfə Ona tabe olmağın faydalarını qeyd edəndə, bunun baha başa gələcəyini də bildirirdi.[128] İsa Onun ardınca getmək istəyənlərlə danışır, tərəddüd edənləri isə inandırmağa çalışmırdı. Buna görə də çoxları geri çəkilirdi.[129]

---

123 Yəhya 8:32.

124 Matta 16:24.

125 Yəhya 17:3. Əbədi həyat Məsihin daimi müşayiəti kimi; həmçinin Matta 28:16-20 — gedənlərə, vəftiz edənlərə və öyrədənlərə Məsihin verdiyi müşayiət vədi.

126 Luka 14:25-33.

127 Matta 8:18-22.

128 Mark 10:28-30.

129 Mark 10:17-27.

Bir neçə il əvvəl bir usta bizə ev təmiri ilə bağlı evimizə gəldi. O bizim kim olduğumuzu biləndə uzun müddət kilsəyə getməyən bir məsihçi olduğunu dedi. O ümid edirdi ki, indiyə qədər aşkar etdiyi kilsə təcrübəsindən daha dərin olanı əldə edəcək. Mən ustaya ev ibadətimiz haqqında iki saatdan çox danışdım və onu ibadətimizdə iştirak etməyə dəvət etdim. Bu onun çox xoşuna gəldi və həmin bazar günü bizə gələcəyini söz verdi və getdi.

Amma o heç vaxt gəlib çıxmadı.

Lakin həmin bazar günü diqqətimi çəkən üçüncü əsrin yazısı olan Hippolitusun *Həvari Ənənəsi* adlı kitabından bir parça oldu. Bu qədim yazı, gənc, gizli və təqib olunan kilsənin həvarilərdən sonrakı nəsillərdə qonaqlarla necə davrandığını izah edirdi:

> "Qoy Kəlamı eşitmək üçün imana gələcək insanlar əvvəlcə müəllimlərin yanına gətirilsin. Onlardan bu iman yoluna niyə maraq göstərdiklərinin səbəbi soruşulsun. Qoy onları gətirən insanlar şəhadətlik etsinlər ki, bu adamlar Kəlamı eşidə bilirlər yoxsa yox? Qoy onlardan həyatları haqqında soruşsunlar: 'Həyatları nə cürdür?'"[130]

Bu, mənə Şimali Koreyada gizli kilsə məsihçilərinin Məsih barədə öyrənmək istəyən ailə üzvlərinə necə yanaşdıqlarını yada saldı.[131] Markus Noland deyir ki, Şimali Koreyada, yeni evlənənlər bir müddət həyat yoldaşlarının ailəsinin dini inancları barədə məlumat vermirlər, çünki əvvəlcə etibar qazanılmalıdır.[132] Onlar Məsihə bağlılıqlarını açıqca ifadə etmədən əvvəl birlikdə yaşaya bilərlər.

[130] Paul F. Bradşav, Maksvel E. Conson və L. Edvard Fillips, *Həvarilərin Ənənəsi: Şərh*, Minneapolis: Auqsburq Fortress Publishers, 2002, s. 82.

[131] Bu mövzu *Bu İmanlı Nəsillər* (Kolorado Sprinqs: W Publishing, 2012) adlı kitabda dəfələrlə vurğulanır. Bu kitabı Şimali Koreyadan olan gizli gilsə məsihçiləri olan cənab və xanım Be ilə birgə yazmışam.

[132] Markus Noland, "Şimali Koreya: Transformasiyaya Şahid," Peterson Beynəlxalq İqtisadiyyat İnstitutu, 24 aprel 2011, http://bit.ly/pxuq9r.

Mənim usta ilə davranışım bundan çox fərqli idi. Təsəvvür edin ki, əgər mən ona belə desəydim, necə də fərqli olardı: "Qardaş, ilkin kilsələrə kimsə dəvət olunmazdan əvvəl, toplantı rəhbərləri onun yanına gəlib həyatını və niyə Məsihin ardınca getmək istədiyini soruşardılar. Məqsəd, kilsədə yalnız Məsihdə böyümək istəyənlərin olmasıdır. Gizli kilsədə də belə olur. Əgər evimizdəki ibadətə gəlmək istəyirsənsə, onda əvvəlcə mən sənin evinə gəlib səninlə və ailənlə tanış oluram, həyatın və Məsihə marağın haqqında soruşuram".

Gizli kilsədə pastorun maaşını və bina xərclərini ödəməkdən ötrü böyüməyə ehtiyac yoxdur. Ona görə insanlara yalvarmaq lazım deyil ki, gəlsinlər, onların iştirak etmələri daha vacib bir şeydir. Biz Məsihə iman etmək istəyənlərlə onlar toplantıya gəlməzdən əvvəl görüşə bilərik.

## Kilsə qurucuları üçün fəaliyyət addımları:

- Özünüzə sual verin: "Əgər sizə yalnız həqiqət, çarmıx və Məsihin hüzuru veriləcəksə, gizli kilsə qurmağa razı olarsınızmı?"
- Gizli kilsə qurmaq istəyən hər bir şəxslə müsahibə aparmaq üçün Hippolitusun yazısındakı suallardan istifadə edin.

## Mövcud kilsələr üçün fəaliyyət addımları:

- İnsanları toplantıya dəvət etmək üçün materiallarınızı və proseslərinizi bir daha gözdən keçirin. Özünüzdən soruşun: "Bu materiallar insanları kilsəyə necə dəvət etdiyimizi aydın göstərirmi?" Yalnız həqiqət, çarmıx və Məsihin əbədi dostluğunu vəd edirmi? Yoxsa yalnız

xeyir-dualardan danışır? Materialları Luka 14:25-33-cü ayələrdə İsanın xəbərdarlıqlarına uyğun yenidən hazırlayın. Bu Müqəddəs Kitab hissəsini insanları toplantıya dəvət etmək işinizdə önə çəkin.

- Kilsənizin hər bir üzvündən niyə Məsihin ardınca getdiklərini soruşun. Əgər onlar həqiqət və çarmıxdan daha artıq bir şey axtarırlarsa, onlara xəbərdarlıq edin ki, Məsihin ardınca getməzdən əvvəl bu yolun xərcini hesablasınlar.

# 9-cu Prinsip.
# Kilsə üzvlərinizi yalnız bir sahəyə yönəltməkdənsə, hərtərəfli xidmətə hazırlayın

Bu gün kilsədə işlərin bölünməsi o qədər adiləşib ki, bütün üzvlərin hər sahədə hazırlandığı bir kilsəni təsəvvür etmək çətindir. Ancaq məhz Əhdi-Cədidin təqdim etdiyi gizli kilsə üçün bu çox vacibdir.

Bu həm də İsanın Böyük tapşırığının əsas mənasıdır: İsa bizə insanların öz şəxsi çağırışlarını tapmasına kömək etməyi buyurmur. Əksinə, O, bizə deyir ki, insanlara Onun bizə öyrətdiyi hər şeyə itaət etməyi öyrədək.

Bir çox kilsənin etdiyi kimi, İsa şagirdlərini bacarıqlarına və maraqlarına görə sahələrə bölmədi. O, onlara qabiliyyət testləri vermədi. Əvəzində, şagirdlərini yanında saxlayaraq onlara Özü nə edirdisə — şəfa verməyi, Müjdəni yaymağı, çörəyi bölməyi, evlərini açmağı və hətta çarmıxlarını götürməyi öyrətdi. İsa hər bir şagirddən ona verilən xidməti yerinə yetirməsini istəyirdi. Çünki ən çətin və ağır görünən xidmətlər bizə göstərir ki, öz gücümüzə yox, Allahın gücünə arxalanmalıyıq. Həm də anlayırıq ki, başqalarına həqiqi tərzdə xidmət edə bilmək üçün əvvəlcə Allah bizə xidmət etməlidir.[133] Həvari Paulun öyrətdiyi kimi, biz yalnız "Allahdan nümunə götürərək"[134] xidmət edə bilərik. Beləliklə, biz başqalarına xidmət etdikcə, Allahın bizə əvvəl və indi necə xidmət etdiyini daha dərindən başa düşürük.

[133] Yəhya 13:1-13; 1 Yəhya 4:19.

[134] Efeslilərə 5:1.

Bu gün bəzi məsihçilər 1 Korinflilər 12-ci fəsildəki bədən bənzətməsinə əsaslanaraq xidmətlərini yalnız bir-iki ruhani sahəyə yönəltməyə çalışırlar. Digər xidmətləri isə bu sahədə daha bacarıqlı olduqlarını düşündükləri insanlara verirlər. Məsələn, onlar özlərini ayaq kimi deyil, amma göz kimi görürlər, Müjdə paylaşan kimi deyil, ibadət rəhbəri kimi görürlər. Onlar düşünürlər ki, hər kəs öz sahəsinə diqqət yetirsə, Məsih bu hissələri birləşdirib işlək bir bədən yaradacaq.

Lakin müasir biologiya göstərir ki, tək bir göz hüceyrəsi belə yalnız gözü deyil, eyni zamanda ayağı və hətta bütün bədəni yenidən yaratmağa qadir olan DNT-ni daşıyır. Bu isə o deməkdir ki, biz hansısa bir xidmət sahəsində fəaliyyət göstərsək də, kilsənin fəaliyyəti üçün lazım olan hər bir xidməti yerinə yetirə biləcək ümumi xidmətçilər olmağa çağırılmışıq. Biz göz ola bilərik, amma ehtiyac olduqda, İsa bizdən ayaq kimi də xidmət etməyimizi gözləyir. Özlərini yalnız bir növ xidmətlə məhdudlaşdıran "mütəxəssis" xidmətçilər, əslində, xərçəng hüceyrələrinə bənzəyirlər. Onlar sağlam inkişafı təmsil etmirlər, çünki bütövlükdə bədəni deyil, yalnız özlərini artıra bilirlər. Mütəxəssislərlə dolu kilsələr məhz Həvari Paulun 1 Korinflilərə 12-ci fəsildə xəbərdarlıq etdiyi nəticələrlə üzləşir. Bədənin hər bir hissəsi yalnız öz funksiyasını yerinə yetirməyə çalışdıqda ümumi sağlamlıq və ahəng pozulur.

Məsuliyyət pastorların üzərinə düşür, onlar bütün kilsə üzvlərini mütəxəssis kimi deyil, hər tərəfli xidmətçi kimi yetişdirməlidirlər. Təəssüf ki, əksər hallarda pastorlar özləri də müəyyən sahələrə diqqət yönəldərək həmin sahədə peşəkar xidmətçiyə çevrilir və kilsədəki ən vacib və çətin vəzifələri öz üzərlərinə götürürlər. Kilsə binası isə bu xüsusi və mühüm işlərin icra edildiyi yerə, onların əsas xidmət məkanına çevrilir.

Əvvəlki prinsiplərdən birində qeyd olunduğu kimi, Con Kalvin orijinal kilsənin iki əsas əlamətini – Allahın Kəlamının düzgün təbliğ edilməsi, onun eşidilməsi və müqəddəs ayinlərin

düzgün şəkildə icra olunmasını vurğulayırdı. Bəzi kilsə ənənələri bu vəzifələri yalnız pastorların öhdəsinə qoyur və onların icrasını kilsə binası ilə məhdudlaşdırır. Lakin Müqəddəs Kitabda bu cür məhdudiyyətlər mövcud deyil. Rəbbin Süfrəsi barədə İsa demir ki, bunu pastor iştirak etdiyi zaman edin, əksinə deyirdi: "Bunu Məni xatırlamaq üçün edin".[135] Qəzzəyə gedən yolda həbəşli hərəmağa Filipdən "Burada su var. Mənim vəftiz olmağıma nə isə mane olurmu?" deyə soruşanda Filip demədi ki, maneə odur ki, mən sadəcə diakonam, biz kilsə binasına çatanda səni orada səlahiyyətli biri vəftiz edəcək.[136]

Müqəddəs Yazılarda təbliğ, Rəbbin Süfrəsi və vəftiz haqqında geniş və dərin göstərişlər yazılmışdır. Bəzi kilsə ənənələrində vacib xidmətlər kilsə binalarında yalnız pastorlara tapşırılır ki, hər şey qaydasında və düzgün tərzdə icra olunsun. Amma gizli kilsə üçün belə qaydalar insanları bu xidmətlərdən tamamilə məhrum edə bilər. Çünki gizli kilsədə olanlar uzun müddət, bəzən isə bütün həyatı boyu pastor və ya bina olmadan yaşamalı olurlar.

Hətta pastoru və kilsə binası olan məsihçilər üçün də bu xidmətləri öyrənməyə maneə yaratmaq düzgün deyil. Məsih bizə deyir ki, şagirdlərə Onun bizə öyrətdiyi hər şeyi öyrədək. Buna Müjdəni yaymaq və evdə Rəbbin ayinlərini icra etməyi öyrənmək də daxildir. Bu o deməkdir ki, biz əvvəlcə ailəmizdəki insanlara xidmət etməliyik. Kilsənin "Təlim almayan biri nə Müjdə paylaşmalı, nə də ayin keçirməlidir" deməsi doğrudur. Ailədə yetkinləşməmiş birinin bu xidmətləri evlərindən kənarda etməsinin qarşısını almaq da ağıllı fikirdir.[137] Lakin məsihçilərin bu əhəmiyyətli xidmətləri öz evlərində necə icra etməyi öyrənməsinə mane olmaq düzgün deyil, çünki bu, Rəbbin bizə verdiyi bir əmrdir.

---

[135] 1 Korinflilər 11:23-26

[136] Həvarilərin İşləri 8:26-40

[137] 1 Timoteyə 3:1-5

# Kilsə quranlar və mövcud kilsələr üçün hərəkət addımları:

- İsanın Böyük tapşırığı (Matta 28:16-20) bizə şagirdlərimizə Məsihin əmrlərini öyrətməyi buyurur. Bu, bir insan kilsəyə qoşulduğu zaman avtomatik baş vermir. Kilsənin bir planı olmalıdır. Bir çox planlar mövcuddur və belə bir plan mənim *Bütün Həyat Hədiyyəsi* kitabımda təqdim olunub. Bu seriyanın üçüncü cildi, *Gizli Kilsədə Yaşamaq* (2017-ci ilin noyabrında nəşri planlaşdırılıb) başqa bir plan təqdim edir. Hər iki mənbədən və ya mövcud olan digər mənbələrdən istifadə etsəniz də, Rəbbin sizə əmanət etdiyi hər kəsin dərin şagirdlik təlimi üçün öz planınız olmalıdır. Bunun üçün siz Ona cavab verəcəksiniz.[138]
- Əgər siz pastor və ya kilsə rəhbərisinizsə, ailə rəhbərlərinə necə kömək edə biləcəyinizi düşünün ki, onlar evdə Kəlamı öyrədib ayinləri (vəftiz və Rəbbin Süfrəsi) düzgün şəkildə yerinə yetirə bilsinlər. Əksər Protestant məzhəblərində bunun üçün qaydalar var. Siz də elə üsul seçin ki, ailə rəhbərləri bunu asanlıqla yerinə yetirə bilsinlər.
- Kilsə üzvlərinə yalnız bacarıq və maraqlarına uyğun xidmətlərdə iştirak etməyə icazə verməyin. Onlara izah edin ki, mərhəmət işləri – məsələn, Rəbbin Süfrəsini paylaşmaq, evlərini açmaq, xəstələri və həbsdə olanları ziyarət etmək – bizə Allahın sevgisini daha yaxşı başa düşməyə və bu sevgini başqalarına göstərməyə kömək edir. Bu mövzu haqqında daha ətraflı məlumat üçün *Bütün Həyat Hədiyyəsi* kitabıma baxa bilərsiniz.

---

[138] Yaqub 3:1.

# 10-cu Prinsip. Kim olduğunuzu xatırlayın

Şimali Koreya gizli kilsəsi ilə işlədiyimiz üçün insanlar mənə tez-tez Şimali Koreyada gizli məsihçi həyatına dair suallar verirlər. Ən çox verilən suallardan biri isə “Şimali Koreyada gizli məsihçilər necə ibadət edirlər?” sualıdır. Mən deyəndə ki, Şimali Koreya gizli məsihçi ibadəti On Əmr, *Həvari etiqadı* və Rəbbin Duasından[139] ibarətdir, insanlar çaş-baş qalırlar. Onlar Şimali Koreya gizli məsihçilərinin meşədə, böyük həvəslə ilahilər oxuduqlarını və ya bir zirzəmidə sıxışaraq, qulaq asaraq on dörd saatlıq təlim marafonuna qatıldığını düşünürdülər. Ya da bir yorğanın altında gizlənib, bircə Müqəddəs Kitab oxumaq üçün fənərdən istifadə etdiklərini təsəvvür edirdilər (insanlar bu Müqəddəs Kitabın azad dünyadan gələn məsihçilər tərəfindən göndərildiyini düşünürlər).

Bu şeylər bəzən gizli kilsələrdə baş verir, lakin bunlar reallıqdan daha çox bizim təxəyyülümüzün məhsuludur. Azad dünyada ibadət xidmətləri mahnılar və pastorların təbliğləri ilə qurulduğundan, azad dünyadakı məsihçilər gizli kilsə ibadətinin də buna bənzəyəcəyini, sadəcə daha gizli, daha rahat olmayan və daha çox təhlükəli olduğunu düşünürlər. Azad dünyada yaşayan məsihçilər ibadətlərində On Əmr, *Həvari etiqadı* və Rəbbin

139 Rəbbin Şam yeməyi, baxmayaraq ki, bu, digər üçündən daha az yayılmışdır. Şimali Koreyanın gizli kilsə ibadəti haqqında daha ətraflı məlumat üçün *Bu imanlı nəsillər* kitabıma baxın. (Kolorado Sprinqs: W, 2012). http://dotheword.org/2013/08/26/how-to-sign-up-for-100-days-of-worship-in-the-common-places-with-the-north-korean-underground-church/.

Duasına yer verirlər, amma onların ibadət həyatı bu əsaslar üzərində qurulmur.

Lakin gizli kilsə üçün istər Şimali Koreyada, istərsə də Cənubi Koreyada və azad dünyanın digər yerlərində ibadət, yalnız ilahilər və vəzlərlə məhdudlaşa bilməz. İbadət vaxtı kilsənin kim olduğunu xatırlaması çox yaxşı imkandır. Bu isə, onun Tanrısının kim olduğunu dəqiq və aydın şəkildə anlaması ilə baş verir. Məhz buna görə, gizli kilsədə Kəlam, iman bəyanatları və Müqəddəs Yazılarda ifadə olunan dualar çox vacibdir.

Məsihçilik heç vaxt yeni şeylər yaratmaqla bağlı olmayıb, həmişə sədaqətə əsaslanıb. Bu o deməkdir ki, bizdən əvvəl yaşayan sədaqətli məsihçilərin inandığı həqiqətləri tam qəbul edib, onları həyatımızda yaşamalı, heç nəyi dəyişmədən və uyğunlaşdırmadan o imanla yaşamalı və bu imanla öz dövrümüzdə insanlara danışmalıyıq. Eyni zamanda, bu iman mirasını gələcək nəsillərə tam və dəyişmədən ötürmək lazımdır.

Məsihçilik, Tanrının xasiyyətinin tam və dolğun şəkildə açıqlanmasıdır. Bu xasiyyət ən gözəl ibadət mahnılarında belə yalnız qismən və natamam şəkildə göstərilir. Hətta ən güclü vəzlər də onu tam ifadə edə bilmir. Con Kalvinin dediyi kimi, orijinal kilsənin iki əsas xüsusiyyətindən biri "Kəlamın saf şəkildə vəz olunması və dinlənilməsidir." Burada vurğu təkcə vəzə yox, həm də Kəlamın dinlənilməsinədir.

Bəs İman bəyanatının əhəmiyyəti nədir?

İlahiyyatçı Tomas Oden bunu belə izah edir:

> "*Nikeya etiqadının* birinci maddəsi belə bir fərziyyəyə əsaslanır ki, məsihçilərin iman kimi etiraf etməli olduqları obyektiv, müəyyən olunmuş bir təlim toplusu mövcuddur. Bu fikir bizə adi və təbii görünə bilər, lakin qədim dünyada bu, yeni bir anlayış idi. Nə yəhudilik, nə də hər hansı bir bütpərəst dini və ya

fəlsəfəsi, ona bağlı olan hər kəsin açıq şəkildə etiraf etməli və hər cür iddiaya qarşı müdafiə etməli olduğu dəqiq müəyyənləşdirilmiş etiqadlar toplusuna sahib olduğunu iddia edə bilməzdi."[140]

Təəssüf ki, bu gün azad dünyada yaşayan məsihçilər üçün müəyyən bir iman əsaslarını əzbərləmək, açıq şəkildə etiraf etmək və qorumaq fikri bir qədər yad və yeni görünür. Çünki biz İsa ilə münasibəti adətən şəxsi bir bağ kimi anlayırıq. İsanı "şəxsi xilaskarımız" adlandırırıq və düşünürük ki, xilas da bu şəxsi münasibət sayəsində gəlir. Ona görə də biz ilahilərə və vəzlərə çox yer veririk, çünki imanla bağlı həqiqətləri daha çox öz daxili hisslərimiz və şəxsi təcrübəmizlə dəyərləndiririk.

Amma on yeddi əsr boyunca Nikeya etiqadı kilsəyə və dünyaya xatırladır ki, məsihçilik sadəcə fərdi anlayışlar və şəxsi təcrübələr toplusu deyil. Məsihçilik, Tanrının zaman və məkan daxilində dəyişməyən ilahi açıqlamasıdır. Bizim vəzifəmiz imanımızı şəxsi hisslərimizə və təcrübəmizə əsaslanaraq qurmaq deyil. Məsihçi imanını, yəni sadiq kilsənin inandığı iman həqiqətlərini olduğu kimi, heç nə əlavə etmədən və çıxarmadan qəbul etmək, həyatımızda və ailəmizdə yaşamaq, qorumaq və gələcək nəsillərə ötürməkdir.

Gizli kilsənin Müjdəni yaymaq tərzi də buna uyğundur. Gizli kilsədə vəzlər maraqlı, qısa və ya yaradıcı olmaq üçün deyil, sadiq qalmaq üçün edilir. Müqəddəs ayinlər də xüsusi və təsirli görünmək üçün yox, sadəcə sədaqətlə yerinə yetirilir.

Gizli kilsədə insanlar sadəcə toplantılar, bazar günü ibadətləri ilə və ya şəxsi hekayələrini paylaşmaqla Məsihə iman etmirlər. Bu şeylər ola bilər, amma bunlara müjdəçilik deyilmir. Müjdəçilik – Allahın bizə verdiyi ən vacib xəbəri insanlara sadə və sadiq şəkildə çatdırmaqdır.

[140] Tomas C. Oden, *Ümumi Giriş,* Tomas C. Oden & Gerald Bray, *Ənənəvi Məsihçi Doktrinası*, 1-ci cild, Douners Qrov, IL: IVP Academic.

> “Özümün də qəbul etdiyim bu ən əhəmiyyətli təlimi sizə çatdırdım: Müqəddəs Yazılara uyğun olaraq, Məsih günahlarımız üçün öldü, dəfn olundu və Müqəddəs Yazılara uyğun olaraq, üçüncü gün dirildi. O əvvəl Kefaya, sonra On İki şagirdə göründü. Bundan sonra beş yüzdən çox bacı-qardaşa eyni anda göründü. Bu bacı-qardaşlardan çoxu indi də yaşayır, bəziləri isə vəfat etmişdir. Məsih daha sonra Yaquba, sonra bütün həvarilərə göründü. Hamıdan sonra isə vaxtından əvvəl doğulmuş bir uşağa bənzəyən mənə də göründü.”[141]

Müjdə, azad dünyada bəzi məsihçilərin düşündüyü kimi, məsihçi olmağın nə demək olduğunu ümumi şəkildə izah edən bir bəyanat deyil. O, sadəcə şəxsi iman hekayələrinin paylaşılması və ya “Dörd Ruhani Qanun” kimi müjdəçilik metodlarının təqdimatı da deyil. O, hətta Yəhya 3:16-cı ayədə də deyil. Müjdə konkret olaraq 1 Korinflilərə 15:3-7-ci ayələrdə yazılan həqiqətdir. Bu, yeni bir padşahın gəlişinin elanıdır. O, Əhdi-Ətiqdən gələn peyğəmbərliklərin yerinə yetirildiyinə və İsanın dirilməsi ilə bağlı tarixi şahidlərin verdiyi ifadələrə əsaslanır.

Paul bu ayəni “ən vacib” şey adlandırır və hər bir məsihçi bunu əzbər bilməlidir. Bu, Müjdədir. Əgər biz şəxsi fikirlərimizi, hisslərimizi və ya iman hekayəmizi daha vacib hesab ediriksə, deməli məsihçi kimi çağırışımıza tam əməl etmirik. Bizim əsas məqsədimiz — hər zaman və hər yerdə məsihçilərin inandığı saf və doğru imanı qəbul etmək, qorumaq və başqalarına ötürməkdir. Başqa şeylər doğru və dəyərli ola bilər, amma onlar Müjdə deyil.

Həvari Paul 1 Korinflilərə 15:3-8-ci ayələrdə Müjdəni cəmi 90 sözlə izah edərkən, inancımıza yaradıcılığın qarışmaması üçün xüsusi diqqət yetirir. O bunu “Müqəddəs Yazılara görə” ifadəsini iki dəfə təkrar etməklə vurğulayır. Bu, Paulun Müjdə xülasəsində iki dəfə təkrar etdiyi yeganə ifadədir.

141 1 Korinflilərə 15:3-8

Bu ifadə Nikeya etiqadında da xüsusi yer alır, çünki Nikeya etiqadının əsas məqsədi – diqqətimizi Müqəddəs Yazılara yönəltmək, onları düzgün anlamağa kömək etmək və bizə vacib olan Müjdəni xatırlatmaqdır.

Gizli məsihçilər həyatlarını Müqəddəs Yazılara, kilsənin etiqad etiraflarına və dualarına uyğun qururlar. Bu ruhani xəzinələri qoruyur, əzbərləyir və gələcək nəsillərə ötürmək üçün hətta həyatlarını təhlükəyə atırlar. Onların bu dərin və sadiq ənənəsi üzərində biz Müjdəni təbliğ edir, Ona itaət edirik, müqəddəs ayinləri icra edirik və iki min illik iman irsini daşıyan məsihçilər kimi dua edirik.

Bəziləri bunun cansıxıcı və ruhsuz bir qanunpərəstliyə çevriləcəyini düşünə bilər. Amma unutmayaq: caz musiqiçiləri sərbəst və yaradıcı ifa edə bilmək üçün əvvəlcə musiqi qaydalarını dərindən öyrənirlər. Eyni şəkildə, məsihçilər də iman əsaslarını dərindən mənimsəməsələr, onların sərbəst və canlı ifası nə insanlara təsir edəcək, nə də Məsihə layiq olacaq.

## Kilsə qurucuları üçün praktik addımlar:

- Gizli kilsəni öz fikrinizlə, xoşunuza gələnləri seçib bəyənmədiklərinizi kənara atmaqla qurmayın. Bu düzgün deyil. Gizli kilsə bütün zamanlarda və yerlərdə sədaqətli kilsə ilə bağlı olmalıdır. Bu əlaqə Müqəddəs Yazılar, kilsə etiqadları və dualarla qorunur. Gizli kilsə həyatını bu dəyərlərə əsaslandırmalıdır. Kilsə heç nə yeni şey yaratmamalıdır.
- Tarixdə yaranmış məsihçi imanını mümkün qədər yaxşı öyrənin və əzbərləyin. On Əmr, Nikeya etiqadı, Rəbbin Duası və Paulun Müjdə xülasəsindən başlayın. Hər həftə Müqəddəs Yazıdan bir hissə əzbərləyin, çünki bilmədiyiniz şeyi nə sevə, nə də qoruya bilməzsiniz.

## Mövcud kilsələr üçün praktik addımlar:

- Ayinlərdə *Həvari etiqadı* yerinə *Nikeya etiqadı* materiallarından istifadə edin. *Nikeya etiqadı* daha genişdir və dünyanın çox məsihçiləri bunu qəbul edir.
- Etirafı, duaları və əmrləri sadəcə ucadan oxumaqla kifayətlənməyin. Onları müntəzəm olaraq, sətir-sətir öyrədin. Yaradıcı olmağa çalışmayın, amma mümkün qədər sədaqətli və tam şəkildə öyrədin.
- Vəftiz zamanı, vəftiz olunan şəxs böyükdürsə özü, uşaq və ya körpədirsə, onun valideynləri və ya xaç atası (xaç anası) Nikeya etiqadını əzbər bilməlidir. Yalnız əzbərləmək kifayət deyil, bu etirafı sətir-sətir izah etmək bacarığı da olmalıdır. Bu ənənə kilsənin çox qədim dövrlərindən gəlir.
- Öz vəz etmək qabiliyyətinizi yoxlayın. Təlimləriniz daha çox yaradıcılığa yox, imanlı kilsənin hər zaman və hər yerdə inandığı həqiqətləri tam şəkildə çatdırmağa əsaslanırmı? Yalnız öz məzhəbinizdə və ya mədəniyyətinizdə vurğulananları deyil, həm də bütün zamanlarda və bütün məsihçilər tərəfindən qəbul edilmiş həqiqətləri qəbul edib başqalarına ötürün.

# 11-ci Prinsip.
# Ondabir vermək – kilsəni dəstəkləmək üçün yox, Allahın xasiyyətini aşkar etmək üçün

Gizli kilsələr rəsmi qeydiyyatdan keçmədiyi, bina almadığı və tam ştatlı işçilər saxlamadığı üçün maliyyə xərcləri çox az olur. Bu, ümumi gəlirinin təxminən 97%-ni öz fəaliyyətlərinə sərf edən azad kilsələrin vəziyyətindən xeyli fərqlənir.[142]

Əgər gizli kilsələrin təşkilati xərclərə ehtiyacı yoxdursa, o zaman məsihçilərə ondabirlər və ianələr vermək tövsiyə olunurmu? Bəs bank hesabı olmayan bu kilsələrdə ondabirlər necə idarə olunur?

Müqəddəs Yazılarda pul və mülkiyyətlə bağlı 2300-dən çox ayə mövcuddur. Bu ayələrin hər hansı biri ayrı-ayrılıqda istənilən cür ianə anlayışını əsaslandırmaq üçün istifadə oluna bilər. Amma bu ayələri bütöv şəkildə oxuduqda diqqət daha çox nə qədər verməyə deyil, necə verməyə yönəlir.

İsa, ianədən danışarkən, bunu kilsə üzvləri olaraq yox, qonşular, bacı-qardaşlar və ehtiyac içində olan dostlar olaraq necə verməyimizdən danışır. O, ianələri kilsəyə yox, ehtiyacı olanlara şəxsən və birbaşa yardım göstərməkdən danışır. İsa, ianəni sosial problemləri həll etmək üçün yox, Allahın xasiyyətini əks etdirmək üçün istifadə etməyimizi vurğulayır.

İsa üçün vermək, artıq olanı paylaşmaq deyil, gəlirinizin bir hissəsini verməkdir. Yəni biz ona görə vermirik ki, çox şeyimiz

---

142 Teri Austin, "Kilsə Pulunun 97%-i Onu Verənlərə Xərclənir? Bir şey Düzgün Deyil," *Generous Church*, 29 Dekabr 2010, http://www.generouschurch.com/512.

var. Biz veririk, çünki Rəbbə yox, daim öz gücümüzə güvənmək qorxusu var. İsa hər şeyi olan, salehliyə belə ehtiyacı olmayan varlıya deyir: "Sənin bir şeyin çatışmır." Onun nəyi çatışmır? Onun Tanrıya etibarı çatışmır. Ona görə də İsa deyir: "Get nəyin varsa, satıb yoxsullara payla. Onda göydə xəzinən olacaq".[143] Göydə xəzinəyə, yerdə Tanrıya güvənmək düz mütənasibdir.

Gizli kilsənin nə gücü, nə insan resursları, nə də var-dövləti var. Ona görə də gizli kilsə yalnız Tanrıya güvənməyi öyrənməlidir. Gizli kilsə məsihçiləri ona görə vermirlər ki, kilsənin dəstəyə və ya yoxsulların köməyə ehtiyacı var. Onlar özlərinə və başqalarına deyil, Tanrıya tam güvənməyin təhlükəsiz olduğunu göstərmək üçün verirlər. Vermək bizim səxavətimizin deyil, Tanrının səxavətinə olan etibarımızın göstəricisidir. Şimali Koreyada gizli kilsə məsihçisi olan Be xanımın dediyi kimi, ondabiri vermək gizli kilsə üçün bir növ Müjdə yaymaq kimidir:

> "İcazə verin sizə necə ondabiri verdiyimizi danışım. Şimali Koreyada kilsə yoxdur. Ondabirləri təqdim edə biləcəyimiz nə bir kilsə, nə də bir pastor var. Amma qayınanam mənə ondabir verməyin nə qədər vacib olduğunu daim xatırladırdı. Ona görə də ondabiri hara təqdim edəcəyimizi bilməsək də, başqalarına kömək etməklə bunu həmişə edirik.
>
> Kasıbların dərman və ya müalicə üçün pulu olmadıqda, biz onlara sadəcə kömək edirdik. Bəzən bu bizim üçün itki olsa belə, onlara dərman almaq üçün kömək edirdik. Ac olanlar üçün düyü alırdıq. Artıq paltarlarımızı başqalarına verirdik. Bazar alış-verişi edərkən, yaşlı qadınlardan və uşaqlı analardan xırda pulu almırdıq. Tərəvəzləri tərəzidə çəkəndə onlara güvənirdik, heç vaxt şübhə etmirdik.

[143] Mark 10:21

> Biz bütün bunları ondabirlər kimi hesab edirdik. Buna "müjdələmə" deyirdik, amma bu sözü ucadan deməyə belə cəsarət etmirdik. Qardaş-bacılarımızı ziyarət edərkən əlimizdə bir şey gətirəndə sevinirdilər. Özümüzdə kifayət qədər olmasa da, onlar üçün həmişə nəsə hazırlayırdıq. Ziyarətə gedəndə dərman və ya kiçik bir hədiyyə aparırdıq".[144]

Əhdi-Cədiddə Həvari Peter yazır: "İmanlı olmayanların arasında yaxşı həyat tərzi sürün ki, sizi pislik edən adamlar kimi təqsirləndirib böhtan atsalar da, yaxşı işlərinizi müşahidə edib Allahın onlara yaxınlaşdığı gündə Onu izzətləndirsinlər."[145] Bu, səxavətin müjdələmə formasıdır, öz ehtiyaclarımızı təmin etməyə diqqət yetirmək həyat tərzimiz vasitəsilə başqalarının xeyir-dua almasına səbəb olmaqdır. Allah yaxşı Atadır və bizə verdiyi hər şeyi qonşularımız, bacı-qardaşlarımız, dostlarımız və hətta düşmənlərimizlə belə bölüşsək, bunu sevinclə və əminliklə edirik, çünki bilirik ki, Rəbb bizim qayğımıza qalacaq.

Bu cür vermək oğruları da,[146] bizi məhkəməyə verən düşmənləri də[147], qanımızı tökən[148] təqibçiləri də xeyir-dua ilə əhatə etmək deməkdir. Səxavət sadəcə ehtiyacı olanlara və ya yaxşı işlər üçün pul vermək deyil. Bu, günahın yaratdığı çətin vəziyyətdən çıxmaq üçün böyük bir məqsəddir.

Ondabir vermək insan səxavətinin ən yüksək nöqtəsi deyil, səxavətli həyatın ən kiçik addımıdır. İsa da deyir ki, biz ondabir verməliyik, amma bu "Qanunun daha vacib və çətin tələbləri" arasında deyil.[149] Be xanımın dediyi kimi, ondabir üçün nə kilsə,

[144] Cənab və xanım Be, Erik Foley, *Bu İmanlı Nəsillər*, Kolorado Sprinqs: W Publishing, 2012, s. 88.

[145] 1 Peter 2:12.

[146] Luka 6:30.

[147] Matta 5:40.

[148] Matta 5:44, Romalılara 12:14, 1 Korinflilərə 4:12.

[149] Matta 23:23, Luka 11:42.

nə də bank hesabı tələb olunur. Gizli kilsəyə aid bir ailə ondabiri öz qonşularına, hətta onları təqib edənlərə belə verə bilər. Bu ondabir dərman, ərzaq və ya kiçik sovqatlar şəklində ola bilər. Ondabiri özünə deyil, qonşulara, bacı-qardaşlara və dostlara xərcləməklə, gizli kilsə *sərvətdən* daha etibarlı olan Allahı öz həyatında həm göstərir, həm də təcrübədən keçirir.

## Kilsə qurucuları üçün tətbiqi addımlar:

- Həqiqi gizli kilsə yaratmaq və onu idarə etmək heç vaxt gizli pastorun zənginləşməsinə səbəb olmayıb. Əvvəlki prinsipləri yada salaq: gizli kilsələr maaşlı, tam-ştatlı pastorlardan deyil, ailə başçıları tərəfindən idarə olunan "ailələrdən" ibarətdir. Sadəcə bölgə üzrə ailə başçılarına nəzarət edən pastorlar kiçik miqdarda yardım ala bilər. Bu, ailələrin sayı çox və ya az olsa da dəyişmir. Siz və ailəniz Allahın gündəlik təminatına güvənməyə hazırsınızmı? Təminatınız əlavə işlərdən, məsələn "çadır tikmək" kimi işlərdən gələ bilər, amma əsas məsələ öz gücünüzə deyil, Rəbbin xasiyyətinə gündəlik etibar etməkdir. Yaratdığınız gizli kilsədə bu imanı yaymağa çalışın və indi bu imanı öz həyatınızda göstərməyə başlayın.
- Yalnız pul deyil, Allahın sizə verdiyi dərmanları, ərzaqları, hədiyyələri və digər nemətləri də ondabir kimi paylaşın. İsa deyir ki, belə ondabir vermək çox vacibdir. Bu səxavət həyatımızın mərkəzində dayanmamalı və bizi daha vacib işlərdən yayındıracaq qürur mənbəyi olmamalıdır. Amma aldığımız hər şeyin ilk hissəsini İsanın adı ilə qonşularımıza, bacı-qardaşlarımıza, dostlarımıza və hətta düşmənlərimizə vermək Məsihdə yaşamağın əsas qaydası olmalıdır.

## Mövcud kilsələr üçün tətbiqi addımlar:

- Kilsə üzvlərindən ondabirlərin yalnız bir hissəsini kilsəyə vermələrini xahiş edin, qalan hissəni isə şəxsi və birbaşa xidmətlərini yerinə yetirmək üçün istifadə etsinlər. Bu yolla ondabirlər İsa adı ilə qonşulara, bacı-qardaşlara, dostlara və hətta düşmənlərə verilməlidir. Bu yardımlar başqa təşkilatlara yox, yuxarıdakı prinsipi izah edən tərzdə, şəxsi şəkildə paylanmalıdır
- Kilsə ondabirinin neçə faizinin kilsəni maliyyələşdirmək üçün istifadə edildiyini təhlil edin. Hər il bu faizi azaltmaq üçün bir plan hazırlayın. Kilsə üzvlərini həvəsləndirin ki, İsanın adı ilə ondabirlərini qonşulara, bacı-qardaşlara, dostlara və hətta düşmənlərə və Rəbbin xasiyyətini göstərmək üçün şəxsi və birbaşa yardım etməyə istifadə etsinlər.

# 12-ci Prinsip.
# Asılı olan müjdəçilik xidmətləri vasitəsilə gizli kilsənin Müjdəni yayması

Müjdəçilik xidmətləri gizli kilsənin vacib hissəsidir. Gizli kilsə gizlənib düşmənin sakitləşməsini gözləmir ki, yerindən çıxıb İsanın Böyük tapşırığını yerinə yetirməyə başlasın. Bu kitabdakı digər prinsiplərdən də göründüyü kimi, gizli kilsələr məhz İsanın verdiyi əmrlərə sədaqətlə riayət etdikləri üçün gizli olurlar. Sadiq qalmaq bəzən gizli xidmətləri icra etməyi tələb edir.

Azad kilsələrdə, müjdəçilər maliyyə dəstəyi toplayıb müjdəçilik xidmətlərinə gedirlər. Gizli kilsələrdə isə, müjdəçilər müjdəçlik səfərinə çıxır və yol boyunca rastlaşdıqları insanlardan dəstək alırlar. Onlar gizli xidmətləri üçün açıq şəkildə dəstək axtara bilməzlər. Çox hallarda, hətta planlaşdırılan müjdəçilik xidməti haqqında belə açıq danışmaq mümkün olmur.

Gizli kilsədə müjdəçilərin dəstəyi insanlardan almasının əsas səbəbi teoloji mahiyyət daşıyır. Bu yanaşma demək olar ki, tamamilə unudulub və azad kilsələrdə çox nadir hallarda rast gəlinir. Bu, Müjdənin xidmətlərlə bağlı xüsusi baxışıdır.

Müqəddəs Kitabda deyilir ki, Müjdə ilə onu yayanlar arasında əlaqə var. Kim Müjdəni bölüşən şəxsi qəbul edərsə, Müjdəni də qəbul etmiş olur. Kim Müjdəni qəbul edərsə, onu göndərən Rəbbi, yəni İsa Məsihi qəbul etmiş olur. Amma İsanın elçisini qonaqpərvərliklə qarşılamamaq, Müjdəni rədd etmək deməkdir və bu, İsanı da rədd etməkdir. Belə insanlar Axirət günündə mühakimə olunacaqlar.

İsa bunu Yəhya 13:20-ci ayədə belə qeyd edir: "Doğrusunu, doğrusunu sizə deyirəm: Mənim göndərdiyim bir nəfəri qəbul edən şəxs Məni qəbul edər, Məni qəbul edən də Məni Göndərəni qəbul edər".[150]

Matta 10:40-42-ci ayələrdə isə bu təlimi daha ətraflı izah edir:

> "Sizi qəbul edən kəs Məni qəbul edər. Məni qəbul edən də Məni Göndərəni qəbul edər. Peyğəmbəri peyğəmbər olduğu üçün qəbul edən kəs peyğəmbərə layiq bir mükafat alacaq. Salehi saleh olduğu üçün qəbul edən də salehə layiq bir mükafat alacaq. Kim bu kiçiklərdən birinə şagird olduğu üçün hətta bir kasa soyuq su içirdərsə, sizə doğrusunu deyirəm: mükafatsız qalmayacaq".[151]

Mətta 10:14-15-ci ayələrdə İsa, öz elçisinin rədd edilməsinin nəticəsi ilə bağlı xəbərdarlıq edir:

> "Kim sizi qəbul etməyib sözlərinizi dinləməzsə, o evdən və ya şəhərdən çıxarkən ayaqlarınızın tozunu çırpın. Sizə doğrusunu deyirəm: qiyamət günü Sodom və Homorra diyarının halı o şəhərin halından daha asan olacaq".[152]

İsa elçilərinə tapşırdı ki, insanları xilas etmək xəbərini onların var-dövlətinə, görünüşünə və ya sosial statusuna baxmadan paylaşsınlar. Onlar ziyarət etdikləri insanlara sadəcə Müjdəni çatdırmalı, onu qəbul edib-etməmək isə onların öz seçimi olmalıdır. Bu prinsip Luka 10:1-4-cü ayələrdə aydın görünür:

> "Bu hadisələrdən sonra Rəbb başqa yetmiş nəfəri təyin etdi və onları iki-iki Özünün gedəcəyi hər şəhərə və hər yerə

---

[150] Yəhya 13:20
[151] Matta 10:40-42
[152] Matta 10:14-15

> Özündən əvvəl göndərdi. Onlara dedi: 'Məhsul çoxdur, işçilərsə azdır. Buna görə də məhsulun Sahibinə yalvarın ki, Öz məhsulunu yığmaq üçün işçilər göndərsin. Gedin, sizi qurdların arasına quzular kimi göndərirəm. Özünüzlə nə kisə, nə torba, nə də çarıq götürün. Yolda heç kimlə salamlaşıb danışmayın.'"[153]

Başqa sözlə, İsa müjdəçilərinə əmr edir ki, xidmət sahəsinə getməzdən əvvəl dəstək toplamaqla deyil, əksinə, dəstək olmadan yola çıxsınlar. Onlar yalnız Müjdənin özü ilə yola çıxmalıdırlar. Onları qonaqpərvərliklə qəbul edənlər Rəbdən mükafatını alacaqlar, rədd edənlər isə onları göndərən Məsih tərəfindən Axirət günündə rədd olunacaqlar.

Məsih bu müjdəçilik yolunu öz həyatı ilə göstərdi. O, göydən heç nə ilə gəlmədi, bir bakirənin bətninə qonaq oldu. Həyatı boyunca, göyə qalxana qədər, hər gün yalnız Müjdəyə əsaslanaraq insanların qonaqpərvərliyini axtardı. Matta 8:20-ci ayədə İsa deyir: "Tülkülərin də yuvası, göydə uçan quşların da yuvası var. Amma Bəşər Oğlunun başını qoymağa belə, yeri yoxdur".[154]

İsa həvarilərə xidmətlərə bu şəkildə yanaşmağı yalnız kifayət qədər maliyyə vəsaiti toplandıqdan sonra deyil, əvvəldən öyrətdi. Onun məqsədi şagirdlərinə, Müjdənin öz gücünə və həqiqətinə güvənərək, asılılıq üzərində qurulan sadə xidmətlərlə yaşamağı və bunu göstərməyi öyrətmək idi. Bunni Miedema belə izah edir:

> "İsa onlara dedi: 'Yol üçün heç nə – nə əsa, nə torba, nə çörək, nə pul, nə də iki köynək götürün'" (Luka 9:3). Nəhayət anlayıram ki, İsa bunu niyə demişdi. O istəyirdi ki, şagirdləri yerli insanların qonaqpərvərliyini təcrübədən

[153] Luka 10:1-4
[154] Matta 8:20

keçirsinlər və onlardan asılı olsunlar. İsa bilirdi ki, xalqla eyniləşmək və onların evlərində qalmaq xidmət üçün yolları açacaq".[155]

Hər gün qonaqpərvərlik göstərmək, İsanın Müjdəsinin ayrılmaz bir hissəsi idi və bu xəbərin özü qədər vacib idi: "Şöhrət Padşahına və Onun müjdəçilərinə kim qapı açacaq?"

Müjdəçilikdə asılılıq prinsipini başa düşəndə, Mark 10:17-22-ci ayələrdəki varlı gəncin hekayəsi bizə tamamilə başqa cür görünür. Bu dəfə biz onun sadəcə var-dövlətindən deyil, Müjdəyə tam güvənməkdən imtina etdiyini görürük.

"İsa yola çıxarkən bir nəfər qaça-qaça Onun yanına gəldi. Onun qarşısında diz çökərək soruşdu: "Ey yaxşı Müəllim, mən nə etməliyəm ki, əbədi həyatı irs olaraq alım?" İsa ona dedi: "Mənə niyə yaxşı deyirsən? Tək Allahdan başqa yaxşısı yoxdur. Onun əmrlərini bilirsən: 'Qətl etmə. Zina etmə. Oğurluq etmə. Yalandan şahidlik etmə. Kimisə aldatma. Ata-anana hörmət et'". Bu adamsa İsaya dedi: "Müəllim, bunların hamısına gəncliyimdən bəri riayət edirəm". İsa ona məhəbbətlə baxaraq dedi: "Sənin bir şeyin çatışmır: get nəyin varsa, satıb yoxsullara payla. Onda göydə xəzinən olacaq. Sonra qayıt, Mənim ardımca gəl". Bunu eşidən adam pərt oldu. Kədərlənib getdi, çünki var-dövləti çox idi."[156]

İsa varlı gəncə, nə həvarilərindən, nə də Öz həyat tərzindən fərqli bir hazırlıq təklif etmir. Rəbb onu xidmətə hazırlığın ilk

[155] E. Tomas Brevster və Elizabet S. Brevster, "Dil Öyrənmək Ünsiyyətdir – Bu, Xidmət Olur!", Məsihçi Müjdəçilik Səfərləri: Məlumat, Təsir və İmkanlar! https://shorttermmissiontrips.wordpress.com/2011/01/18/how-to-look-at-language-learning-in-a-new-way/.

[156] Mark 10:17-22.

mərhələsinə, "dəstəkdən azad olma" mərhələsinə dəvət edir: "Get nəyin varsa satıb yoxsullara payla... Sonra qayıt, Mənim ardımca gəl".

Bu yanaşma, azad kilsələrdə xidmət üçün maddi dəstək toplayan müjdəçilərdən fərqlidir. Gizli kilsədə müjdəçi, müjdəçilik xidmətinə başlamaq üçün əvvəlcə dünyəvi var-dövlətindən əl çəkir. Bank hesabı sıfıra düşəndə, o artıq xidmətə hazır sayılır.

Təəssüf ki, varlı gənc İsanın bu hazırlıq dəvətini rədd etdi.

Əgər o, əksər azad kilsə müjdəçiləri kimi, maddi imkanla xidmətə yollansaydı, getdiyi hər yerdə isti qarşılanacaqdı. Bu, azad dünyadan gələn müjdəçilərin başına tez-tez gəlir. Onlar kasıb bölgəyə daxil olduqda, insanlar Müjdəyə deyil, sanki deyilməyən, amma aydın bir mesaja cavab verirlər: "Məsihçi olmaq sizə maddi fayda verəcək!"

Gizli kilsədə isə müjdəçilik, ziyarət etdiyimiz insanlara Müjdəni paylaşmaqla yanaşı, onların bizə yaxşılıq etməsinə – bizi yedizdirməkdən tutmuş, evlərində qonaq saxlamağa və qonşu evlərə Müjdəni çatdırmaqda kömək etməyə qədər imkan yaratmaqdır. Biz sadəcə bir şey – Müjdə və Məsihin elçiləri olaraq özümüzü gətiririk. Biz Rəbbin adı ilə yad insanlardan bizi qonaq saxlamalarını istəyirik. Onlar bizi qəbul etməklə, əslində, Rəbbi qəbul etmiş olurlar. Rəbb bunu heç vaxt unutmur.

## Kilsə qurucuları üçün tətbiqi addımlar:

- Bu silsilənin üçüncü və son cildi – Gizli Kilsədə Yaşamaq– 2017-ci ilin noyabrında nəşr olunub. Kitab, məsihçilərə gizli kilsə şəraitində Kəlamı dinləmək və həyata keçirmək üçün hazırlanmış şagirdlik vasitələri və kilsə ənənəsinə əsaslanan hermenevtika (təfsir metodu) təqdim edir. Amma bu kitabdakı son prinsipin izahı belə, sizi Luka 10-cu fəsil üslubunda

qısamüddətli bir müjdəçilik səfərinə aparacaq (ətraflı məlumat üçün aşağıda "Mövcud kilsələr üçün addımlar" bölməsinə baxın).

- Rəbb bizi əlində olan hər şeyi satıb yoxsullara paylamağa, sonra isə Məsihi izləməyə çağırır. Gizli kilsəni qurmağa hazırlaşarkən, Rəbbə və Onun sizi göndərəcəyi insanlara güvənərək "dəstəkdən azad olma" mərhələsinə daxil olun.

## Mövcud kilsələr üçün tətbiqi addımlar:

- Kilsə üzvlərinizlə birlikdə bir həftəlik Luka 10 üslubunda müjdəçi səfərini təşkil edin. Bütün qrup bu həftəni dua ilə keçirsin və Rəbbin sizi hara göndərmək istədiyini axtarsın. Luka 10-cu fəsildə İsanın verdiyi göstərişə uyğun olaraq, yalnız ən vacib əşyalarla yola çıxmağa qərar verin. İllər əvvəl Texasın Hyuston şəhərində azad kilsədə pastor olduğum vaxt, mən Dr. Foley və daha dörd nəfərlə belə bir səfərə çıxdıq. Özümüzlə əlavə paltar, pul götürmədik. Yalnız bir mobil telefon (ailə və kilsə üzvlərimizlə əlaqə saxlamaq üçün), bizi Texasın Bumont şəhərinə aparacaq bir maşın, sürücülük vəsiqəsi və baş verənləri sənədləşdirmək üçün bir video kamera götürdük. Həmin bir həftə ərzində nə yeməksiz qaldıq, nə çirkli paltarlarda gəzdik, nə də duş qəbul etmədən yaşadıq. Səfər vaxtı Rəbb bizə qalmağa iki ev verdi və sonda Hyustondakı kilsəyə qayıtmaq üçün 600 dollardan çox vəsait bəxş etdi.

3-CÜ BÖLÜM

# GİZLİ KİLSƏDƏ YAŞAMAQ

Pastor **Erik Foley**

# Giriş

Bu kitab, Koreya kimi "azad" və demokratik ölkələrdə gizli kilsənin yaranmasına dair silsilənin üçüncü və son cilddir.

Birinci kitab — *Gizli Kilsəyə Hazırlıq* — pastor Riçard Vurmbrandın 1969-cu ildə yazdığı, lakin az tanınan şəxsi düşüncə və müşahidələrini yenidən təqdim edirdi. Həmin kitabda Vurmbrand deyirdi ki, bu gün azad görünən ölkələrdəki kilsələr gələcəkdə, məsihçiliyin qadağan olunduğu ölkələrdəki imanlıların gizli tərzdə yaşadığı kilsə həyatını mənimsəməli olacaqlar. O, azad ölkələrdəki kilsələrə hələ imkan varkən gizliliyə necə keçmələri barədə praktik tövsiyələr verirdi.

Mən həmin kitabdakı giriş hissəsində izah etmişdim ki, bu gün baş verən "Cinsi inqilab" əslində Riçard Vurmbrandın təxminən 50 il əvvəl xəbərdarlıq etdiyi anti-kilsə düşüncəsinin açıq şəkildə gerçəkləşməsidir.

Avropa və Amerikadakı kilsələrin eyni-cinsli nikaha qarşı mübarizədə niyə uduzduqlarını da izah etmişdim. Onlar bütün diqqətlərini homoseksuallığa qarşı çıxmağa yönəltdilər, amma unudurlar ki, bu problemlərin əsas səbəbi daha dərin bir şey — insanın "özünü istədiyi kimi yaratmaq" düşüncəsidir. Kilsələr bu düşüncədə özlərinin də iştirak etdiyini qəbul edib tövbə etməli idilər.

Mən Koreyadakı kilsələrə Avropa və Amerikadakı kilsələrin homoseksuallığa qarşı uğursuz mübarizə yolunu təkrarlamamağı tövsiyə etdim. Bunun əvəzinə dedim ki, onlar Cinsi inqilabın artan təzyiqlərinə və qanuni məhdudiyyətlərinə cavab olaraq elə bir kilsə forması qurmalıdırlar ki, bu dünyanın maliyyə, hüquq,

siyasət və ya kommersiya sistemlərinə bağlı olmasın. Belə ki onlar heç bir rəsmi icazə və ya qeydiyyat olmadan toplaşa bilsinlər. Qeyd etdim ki, belə gizli kilsə forması yeni deyil. Əslində, bu cür kilsələr məsihçiliyin ilk günlərindən bəri mövcuddur və son iki min ilin ən çətin şəraitlərində belə yaşamağı bacarıb. Hazırda isə 50-dən çox ölkədə, o cümlədən Şimali Koreyada belə gizli kilsələr fəaliyyət göstərməkdə davam edir.

İkinci kitab – *Gizli Kilsənin Yaranması* – dünyada gizli tərzdə yaşayan məsihçilərin ağır təqiblərinə baxmayaraq imanlarını necə yaymağa davam etdiklərini izah edən on iki əsas prinsipi təqdim edirdi.

Mən göstərirdim ki, bu prinsiplərin hamısı bu gün, xüsusilə də Cinsi inqilab səbəbilə mədəni və siyasi təzyiqlər artdığı bir zamanda Koreyada olan məsihçi rəhbərlər və yeni imanlılar üçün də yararlıdır.

Mən deyirdim ki, əvvəlki dövrlərdə uğurlu hesab olunan, mərkəzində pastor duran böyük kilsələr artıq sona yaxınlaşır. Bunun əvəzinə ailədə qurulan kiçik məsihçi yığıncaqlarına üstünlük verilməlidir.

Erkən dövrdəki koreyalı məsihçilər kimi, biz də Müqəddəs Kitaba əsaslanan gündəlik ailə ibadətini bazar günü keçirilən kütləvi ibadətdən daha vacib saymalı və iman həyatımızın əsasına çevirməliyik.

Bir çox baxımdan demək olar ki, Koreyada məsihçiliyin gələcəkdə, Müjdəyə düşmən və məhdudiyyətli bir mühitdə yaşaması və inkişaf etməsi üçün ilk koreyalı məsihçilərin həyat tərzinə qayıtması vacibdir.

Burada mən 1907-ci ildə baş vermiş Böyük Pxenyan Oyanışından sonra yaranan məsihçiləri deyil, məhz həmin oyanışın baş verməsinə zəmin yaradan ilk nəsli, yəni 1873-cü ildən 1906-cı ilə qədər yaşamış məsihçiləri nəzərdə tuturam.[157]

[157] Qeyd etmək lazımdır ki, 1873-cü il – Böyük Pxenyan Oyanışından əvvəl məsihçi nəslin başlanğıcı kimi göstərilən il – müjdəçi Con Rossun Çin

Tarixçilərin ilk koreyalı məsihçilər haqqında çox məlumatı var, amma bu gün adi Koreya məsihçilərinə onların həyatı demək olar ki, öyrədilmir. Təəssüf ki, o ilk nəsildən indi nə kilsələr, nə müjdəçilər, nə də imanlılar nümunə götürmürlər. Halbuki, onların həyat tərzi və təcrübələri o qədər fərqli və qeyri-adi idi ki, Pxenyan oyanışından əvvəl belə, Amerika və Avropada bu barədə kitablar və məqalələr yazılırdı.

Bu kitab Koreyadakı qabaqcıl məsihçilərin tam tarixini izah etmir. Sadəcə, pastorlar, kilsə binaları, pul və hökumət icazəsi olmadan yaşanan orijinal məsihçiliyi göstərən bəzi hekayələri paylaşır. Bu kitabda göstərilən məsihçilərin həyatında ən əsas yeri Müqəddəs Kitab tutur.

İlk koreyalı məsihçilər Müqəddəs Kitaba o qədər diqqət yetirmişdilər ki, onların dini yeni gələn xarici müjdəçilər tərəfindən "İncil məsihçiliyi"[158] kimi təsvir edilmişdir. İlk koreyalı məsihçilər, o xarici müjdəçilər tərəfindən iman etməmişdilər. Əksinə, onlar Müqəddəs Kitab və onlara qaçaqmalçılıq yolu ilə bu kitabları gətirən koreyalılar tərəfindən iman etmişdilər. Müqəddəs Kitabı yayan koreyalılar özləri də məsihçiliyi yeni qəbul edənlər idi.

Bu ilk koreyalı məsihçilər həyatlarında bir çox məsihçi fəaliyyətlərindən biri kimi Müqəddəs Kitabı oxumamışdılar. Müqəddəs Kitabı oxumaq onların həyatı *idi.* Onlar üçün *sagyeonghoe*, yəni Müqəddəs Kitabı araşdıran görüş, pastorun və ya hörmətli qonağın rəhbərlik etdiyi xüsusi illik tədbir deyildi. Bu, koreyalı məsihçilərin hər gün içində yaşadıqları və uyğunlaşmağa çalışdıqları qəribə və yeni bir Müjdə dünyası idi. Koreyalı kilsə tarixçiləri Sebastyan Kim və Kirstin Kimin izah etdiyi kimi:

---

dilində məsihçi kitablarını Koreyanın girişində satmağa başladığı ildir. (Baxın: J. Ross, *Mission Methods in Manchuria*, London: Fleming H. Revell Co., 1903, s. 17.)

158 B FBS (Böyük Britaniya və Xarici Müqəddəs Kitab Cəmiyyəti), *Ağacın Yarpaqları: A Popular Illustrated Report of the British and Foreign Bible Society for the Year, 1906-1907*. London: Bible House, 1907, s. 70.

Koreyalı məsihçilər Müqəddəs Kitabı öz müqəddəs mətnləri kimi qəbul etdikdən sonra ona xüsusi hörmət göstərirdilər. Onlar onu digər mənbələrdən daha üstün sayırdılar. Tələbələr Müqəddəs Kitabı ucadan oxuyur, əzbərləyir və gündəlik əxlaq, davranış və ictimai qaydalarla bağlı orada yazılanları yerinə yetirməyə çalışırdılar. İnsanlar bu mətnləri tənqid etmədən, sorğulamadan doğru qəbul edirdilər.[159]

> "O günlərdə İsa dua etmək üçün dağa çıxdı. O bütün gecəni Allaha dua etməklə keçirtdi. Gün açılanda şagirdlərini yanına çağırdı və onlardan on iki nəfəri seçib həvari adlandırdı."

[215] Matta 9:35-36
[216] Matta 10:8.
[217] Saylar 27:15-17

Müqəddəs Kitabın kontekstini başa düşmək üçün yazıçının nə demədiyini də nəzərə almaq vacibdir. Məsələn, Matta bir yerin adını qeyd etmir. Buna görə də düşünməməliyik ki, Matta bu xırdalıqları unudur və ya Mark və Luka ilə razılaşmır. Əksinə, Matta burada Tanrının xasiyyəti barədə Mark və Lukada vurğulananlardan fərqli bir məqama diqqəti çəkir. Bu fərqi növbəti kontekst suallarına cavab verərkən daha yaxşı anlayacağıq:

- Nə üçün onlar Müqəddəs Kitaba əsasən danışırlar (məsələn, əsas məsələ nədir)?
- Müqəddəs ayənin bu keçidi birbaşa ondan əvvəlki ayə ilə necə əlaqələndirilir?
- Müqəddəs ayənin bu keçidi birbaşa ondan sonrakı ayə ilə necə əlaqələndirilir?

Təkcə Matta 10:1-4-cü ayələri oxuyanda İsanın şagirdlərini niyə göndərdiyi tam aydın olmur. Amma Matta 9-cu fəsildən başlayaraq oxusaq, vəziyyəti daha yaxşı başa düşə bilərik. Həmin həftə İsa sinaqoqda oxuyub insanlara təlim verirdi. Din rəhbərləri onun iflic adamı sağaltmasını, bir qızı diriltməsini, iki kor adamın gözlərini açmasını və hətta cinli bir adamı sağaltmasını gördülər. Amma yenə də öz aralarında pıçıldayıb dedilər: “O, cinlərin başçısının gücü ilə cinləri qovur”.[218]

İnsanları Allaha doğru aparmaq vəzifəsi verilmiş dini rəhbərlər, İsanı insan kimi gördüklərinə görə, Onu Allah kimi tanımadılar və Onun cinlərlə əlaqəsi olduğunu iddia etdilər.

Lakin İsa hara getdisə, Allahın xalqı da Onun ardınca getdi.

İsa insanları görəndə onlara yazığı gəldi, çünki onlar taqətsiz və çarəsiz idilər.[219] İsa sevimli quzularının yorğunluğunu görərək, onlara mərhəmət edərək ən yaxşı yetişdirdiyi on iki şagirdini göndərdi.

[218] Matta 2:6.

[219] Matta 9:36

Matta bizə göstərir ki, "on iki nəfərin göndərilməsi" xüsusi və rəsmi bir hadisə deyildi. Bu, Məsihin itmiş quzulara qarşı hiss etdiyi böyük ağrının nəticəsi idi. Bu hadisə dağın başında keçirilən mərasim kimi yox, səhrada yaşanan çətin bir an kimi baş verdi. İsa cəld göstərişlər verdi: "Xəstələrə şəfa verin, ölüləri dirildin, cüzamlıları pak edin, cinləri çıxarın"[220]. Başqa sözlə, bu quzulara qulluq etmək üçün nə lazımdırsa edin.

Son bir kontekst sualı Allahın xasiyyətinin bu cəhətini anlayışımızda tam şəkildə ön plana çıxaracaq:

- Bu Müqəddəs Kitab parçası Müqəddəs Kitabın digər hissələri ilə necə əlaqələnir?
    - o eyni və ya oxşar ifadələrdən istifadə edir?
    - o eyni insanlar, yer və ya zamanla bağlıdır?
    - bu ayəyə istinad edir, yoxsa bu ayə başqa ayəyə istinad edir?

Bu parçada getdikcə daha çox ayə oxuduqca diqqətimizi çəkəcək ifadə "çobansız qoyunlar"dır. Bu, Saylar Kitabının 27:15-17-ci ayələrində qeyd olunub:

> "Musa Rəbbə dedi: 'Rəbb – bütün bəşər ruhlarının Allahı, icma üzərinə bir adam nəsib etsin, o da onların önündə girib-çıxsın, onların önündə döyüşə gedib-gəlsin. Qoy Rəbbin icması çobansız sürü kimi olmasın'".[221]

İsa Allahın xalqına baxanda gördüyü mənzərə Musanın təsvir etdiyi və qorxduğu bir şey idi, yəni çobansız qoyunlar idi.

Matta Müjdəsinin ümumi kontekstinə baxdıqda xatırlayırıq ki, Matta 2:6-cı ayədə İsanın Allah tərəfindən xalqına lazım olan çoban kimi göndərildiyi artıq göstərilmişdi. Bu bizə göstərir ki,

[220] Matta 10:8
[221] Saylar 27:15-17

Musanın dua ilə arzuladığı həmin çoban əslində İsa idi və biz bunu indi daha yaxşı anlayırıq.

> "Ey Yəhuda torpağındakı Bet-Lexem, sən Yəhuda hökmdarları arasında ən kiçik deyilsən, çünki xalqım İsrailə çoban olan Hökmdar səndən çıxacaq."[222]

Müqəddəs Kitabın geniş mənzərəsinə nəzər saldıqda, Matta Mikeya 5:2-ci ayədən sitat gətirir və bu ayədə gələcək çobanın əslində Əbədi Allah olduğu bildirilir:

> "Rəbb deyir: 'Ey Bet-Lexem Efrata, sən Yəhuda nəsillərinin kiçiyi olsan da, Mənim üçün İsrail üzərində Hökmdar səndən çıxacaq. Onun nəsli çox qədimlərə, zamanın başlanğıcına gedir'".[223]

Müqəddəs Yazılardakı bu dərin mənalar ilk oxuyanda bizə tam aydın olmaya bilər. Amma Müqəddəs Ruh tədricən onları bizə daha çox xatırladır. Müqəddəs Kitabla nə qədər çox tanış olsaq, hər dəfə onu açıb oxuyanda və kontekstə diqqət yetirəndə, Allahın xasiyyətini daha yaxşı anlayır və Ona daha çox diqqət yetiririk.

---

[222] Matta 2:6
[223] Mikeya 5:2

# 4-cü fəsil.
# Allahın əməlləri

***“Allah bu Müqəddəs Yazıda mənə nə etməyi əmr edir?” sualını verməzdən əvvəl biz “Üçlü Allah bu Müqəddəs Yazıda nə edir?” sualı üzərində düşünməliyik.***

İnsanın bütün hərəkətləri Üçlü Allahın işinə cavabdır: bu, lütfün əsas həqiqətidir. Başqa sözlə, biz öz əməllərimizlə Allahı hərəkətə gətirmirik; əksinə, Allahın fəaliyyəti bizi hərəkətə gətirir. Biz yalnız Allahın təşəbbüsünə cavab verən varlıqlarıq, başqa heç nəyə qadir deyilik. Allahın təşəbbüsünün uzunluğunu, genişliyini, hündürlüyünü və dərinliyini düşündükdə anlayırıq ki, Allahın bizə göstərdiyi bu sonsuz lütfə insanın tam cavab verməsi hələ mümkün olmayıb.

Bu, bizim məsihçilərin teoloji baxımdan inandığı, lakin praktikada çox zaman nəzərə almadığı bir həqiqətdir. Dualarımızda və ibadətlərimizdə, ehtiyaclarımız və maraqlarımız barədə Üçlü Allahla məhdud bir söhbəti özümüz başlayırıq. Əslində isə Onun bizim xeyrimizə sonsuz, dayanmadan davam edən fəaliyyətini qəbul edib cavab verməliyik.

Eyni yanaşma Müqəddəs Kitab oxumağımıza da təsir edir. Şüurlu və ya şüursuz şəkildə, özümüzə olan doymayan marağımız hər bir Müqəddəs Yazı parçasına sirayət edir. Biz təbii olaraq, nə etməli olduğumuzu və qarşılığında nə əldə edəcəyimizi deyən ayələrə yönəlirik. Bu meyl o qədər güclüdür ki, hər dəfə Müqəddəs Kitabı açanda sanki gizli əmrlər və vədlər axtarırıq, olan əmrləri və vədləri isə olduğundan artıq şişirdirik. Beləliklə,

diqqətimizi özümüzə həddindən artıq yönəltdiyimiz üçün əslində bütün səmanı və yeri əvvəlcə susduran, sonra isə coşqun ibadətə səsləyən Üçlü Allahın böyük işlərini kiçik və ikinci dərəcəli bir şey kimi görürük.

*Gizli Kilsəyə Hazırlıq* kitabımın giriş hissəsində belə yazmışdım: "Gizli kilsə — Məsihin işinin ayrılmaz quruluşudur və bu quruluş o zaman aşkara çıxır ki, ictimai kilsə ya şiddətli hücumlar nəticəsində, ya da daxildən çökərək artıq mövcud ola bilmir."[224] Zənnimcə, məhz buna görədir ki, gizli kilsənin məsihçiləri — mənim təcrübəmə əsaslanaraq deyirəm — insan fəaliyyətinin gücünə və potensialına, istər özlərinin, istərsə də başqaların olsun, o qədər də heyran olmurlar. Bunun əvəzində, Müqəddəs Yazıları oxuyarkən daha çox Allahın işlərinə diqqət yetirirlər.

Çünki gizli kilsə məsihçiləri insan imkanlarının sərhədlərini — həm Allahın dostlarının, həm də düşmənlərinin nə edə biləcəyini — açıq şəkildə görmüşlər və insan əməlindən doğan nəticələrin nə qədər qeyri-kafi olduğunu dərk etmişlər.

Bu mövzuda tez-tez tanış olduğum ilk gizli şimali koreyalı məsihçinin sözlərini xatırlayıram. O mənə belə demişdi: "Biz şimali koreyalı məsihçilərin nə pulumuz, nə də gücümüz var. Yalnız Məsihimiz var və Onun bizə köməyinin əhəmiyyətini gördük."

Müqəddəs Yazıda Üçlü Allahın fəaliyyəti bizi xilas etmək üçün təkcə kifayət deyil; onlar dünyanı canlandırmaq üçün kifayətdir. Beləliklə, biz Müqəddəs Yazıları oxuyarkən Üçlü Allahın hərəkətlərini nəzərə alsaq, bu, kifayət deyil. Yəni Üçlü Tanrının hərəkətləri barədə diqqətimizi saxlaya bildiyi qədər düşünmək olar. Sonra diqqətimizi daha da artıra bilsək, Allahın əməlləri üzərində daha çox faydalı düşünə bilərik. Hətta ən sadə ifadə, "Allah dedi", "İsa bilirdi" və ya "Allahın Ruhu üzərində idi" – bizim heç vaxt başa düşə bilməyəcəyimiz qədər

[224] E. Foley, "Giriş". R. Vurmbrand, *Gizli Kilsəyə Hazırlıq*. Seul: Şəhidlərin səsi təşkilatı, 2017, s. 55.

dərin mənalar aləmini izah edir. Biz heç vaxt ilahi hərəkətin heç birindən təəccüblənmədən keçməməliyik.

Müqəddəs Kitab oxuyarkən edə biləcəyimiz sadə, amma çox təsirli bir addım var: ayədə Ata, Oğul və ya Müqəddəs Ruhun hər hansı bir işi görüb-görmədiyinə və ya həmin işdə iştirak edib-etmədiyinə diqqət yetirməliyik. Başqa sözlə, Üçlü Tanrının hansısa bir hərəkətin sahibi və ya icraçısı olduğu yerləri tapmağa çalışırıq (məsələn, Ata sevir, İsa gördü, Müqəddəs Ruh verildi).

Növbəti addımda, Müqəddəs Yazılarda Allahın xasiyyətinin necə təsvir edildiyini (isimlər və sifətlərlə) öyrənəcəyik. Amma bu mərhələdə diqqətimizi əsasən Üçlü Tanrının gördüyü işləri tapmağa yönəldirik. Bu hərəkətləri tapdıqdan sonra, hər birini düşünür və üzərində dayanırıq. Bu zaman gizli mənalar axtarmırıq, sadəcə ayədə açıq şəkildə yazılmış olanı başa düşməyə çalışırıq. Bu, çətin deyil, lakin bəzən Allahın hərəkətləri ayədə birbaşa yox, dolayı şəkildə ifadə olunur. Məsələn, Zəbur 85:10-11-ci ayələrdə belə deyilir:

> “Məhəbbətlə həqiqət bir-birinə qovuşacaq,
> salehliklə əmin-amanlıq bir-biri ilə öpüşəcək.
> Həqiqət yerdə bitib-göyərəcək,
> ədalət göylərdən baxacaq”.[225]

Sonuncu ayə Allahın şəxsiyyətinə aid edilir, məsələn, “ədalət” göylərdən baxacaq. Burada məzmurçu bizə həm Allahın xasiyyəti, həm də əməlləri haqqında danışır, yəni Allah göydən baxır, Allah ədalətlidir. Məzmurçu “həqiqət yerdə bitib-göyərəcək” deyən zaman biz başa düşə bilərik ki, həqiqət Allahın xasiyyətinin bir hissəsidir.

Bəs “həqiqət yerdə bitib-göyərəcək” nə deməkdir? Mənə aydın deyil. Əvvəlki fəsillərdə qeyd olunan addımlar, *Nikeya etiqadı* ayələrin kontekstini daha yaxşı başa düşməkdə bizə

[225] Məzmur 85:10-11

kömək edə bilər. Bu ayə Məsihin təcəssümünü xatırlada bilər. Belə hallarda Müqəddəs Yazıda açıq yazılanlarla, öz fikirlərimizi ayırmaq lazımdır. Aydın yazılanlar həmişə doğru sayılır. Amma fikirlərimizi düzəltməyə və yenidən düşünməyə həmişə hazır olmalıyıq.

Məsələn, məzmurçu "Məhəbbətlə həqiqət bir-birinə qovuşacaq, salehliklə əmin-amanlıq bir-biri ilə öpüşəcək" deyəndə, biz mürəkkəb teoloji nəticələrə gəlməməliyik. Hərəkət felləri (məsələn, "qovuşmaq" və "öpmək") olsa da, ən sadə nəticə budur ki, məzmurçu Allahın xasiyyətinin xüsusiyyətlərindən danışır. Allahda sevgi və həqiqət, salehlik və sülh mükəmməl şəkildə birləşir. Bu fikirlər Allahın əməlləri ilə bağlı deyil və bunları Allahın xasiyyətinə dair sonrakı addımda müzakirə edəcəyik.

Bütün Müqəddəs Kitabı oxumaqda ən dərin anlayışlar gizli olanı tapmaqla deyil, əksinə, açıq və aydın olanı diqqətlə izləməklə əldə edilir. Soyuq Müharibə zamanı Qərbi Berlindən Şərqi Berlinə hər gün velosipedlə keçən bir adam haqqında bir hekayə var idi. Şərqi Berlin sərhədçiləri hər gün onu və velosipedini axtarırdılar, çünki bilirdilər ki, sərhəddən nəsə keçirir. Amma uzun illər heç nə tapa bilmədilər. Berlin Divarı dağılan zaman mühafizəçilər həmin adamla qarşılaşdılar və ondan soruşdular: "Biz səni və velosipedini hər gün axtardıq, amma nəyi apardığını bilmədik. Sən nə oğrulayıb aparırdın?" O adam cavab verdi: "Velosipedlər."

Eyni şəkildə, Müqəddəs Yazıların məqsədi Allahın fəaliyyətini gizlətmək deyil, əksinə aşkar etməkdir. Müqəddəs Yazılarda və həyatımızda Allahın fəaliyyətini aydın görməyimiz Onu axtarmamağımızdan qaynaqlanır. Adətən biz başqa bir şey (məsələn: əmrlər və xeyir-dualar) axtararkən günbəgün, ildən-ilə velosipedə baxan o sərhədçilər kimi onun ötüb getməsinə baxırıq. Biz özümüz də İsanın Peterə verdiyi sərt məzəmmətə layiqik: biz Allahın deyil, insanların işini düşünürük.[226] Əgər biz Müqəddəs

[226] Matta 16:23.

Kitabda Allahın əmrlərinə diqqətlə baxırıqsa, amma Onun orada nə etdiyini diqqətlə düşünmürüksə, bu, düzgün deyil. Çünki bu zaman unuduruq ki, Allah lütfkardır və insanın etdikləri sadəcə Üçlü Allahın işinə bir cavabdır.

Bu nümunə fikrimizi daha da aydınlaşdıracaq və bizə öz yolumuzda bu addımı necə atacağımızı göstərəcək. Gəlin diqqətimizi Matta 28:19–20-ci ayələrə yönəldək. Bu ayə çox vaxt "Böyük tapşırıq" adlanır, çünki müasir məsihçilər onu belə tanıyırlar. Adətən bu ayəni oxuyanda diqqətimizi İsanın bizə verdiyi əmr və göstərişlərə yönəldirik:

> "Beləliklə, gedin, bütün millətləri Mənim şagirdim edin; onları Ata, Oğul və Müqəddəs Ruh adı ilə vəftiz edin; sizə əmr etdiyim hər şeyə riayət etməyi onlara öyrədin. Budur, Mən dövrün sonuna qədər hər gün sizinləyəm".[227]

Məsihin burada verdiyi əmr açıq-aşkardır və vacibdir. Məsələn, mən bu yazını Koreyadan yazıram, amma ABŞ-da doğulmuşam. Bu Müqəddəs Yazı parçasında Məsihin əmrinə diqqət yetirmək, müasir bir yanaşmadır. Kilsə tarixinin ilk 1800 ili ərzində heç kim bu Müqəddəs Yazını "Böyük tapşırıq" adlandırmamışdır.

Bu yanaşma bizim üçün daha uyğundur, çünki Müqəddəs Kitab əsasən qayda-qanun kitabı deyil. Onun əsas məqsədi Allahın kim olduğunu bizə göstərməkdir. Allah mərhəmətli bir Allahdır və bizim etdiyimiz hər şey Onun işlərinə cavabdır. Ona görə də əvvəlcə Allahın nə etdiyinə baxmalıyıq, sonra Onun bizə dediklərinə diqqət yetirməliyik. Ancaq bu cür yanaşsaq, Allahın təlimlərini düzgün başa düşə bilərik. Mattanın kitabında da göstərildiyi kimi, əvvəlcə Allahın əməlləri, sonra Onun əmrləri gəlir. Biz də bu mərhəmətdən güc alaraq yaşamağı öyrənirik.

Matta 28:16-20-ci ayələrdə Allahın fəaliyyətinə diqqət yetirdikdə, Böyük tapşırığın axdığı çayın dolğunluğunu görürük.

[227] Matta 28:19

Bu mərhəmət çayının böyüklüyü o qədər böyükdür ki, Müqəddəs Kitabın bu hissəsini düzgün anlayıb düzgün vurğuladıqda, onu "Böyük tapşırıq" yox, "Böyük tələb" və ya "Böyük iddia" adlandırmaq daha doğru olar.

Məsih iqrar edir: "Göydə və yer üzündə bütün səlahiyyət Mənə verilmişdir".[228]

İsanın "bütün" sözünü işlətməsinə diqqət yetirin. İsa deyir ki, göydə və yerdə "bütün" səlahiyyət Ona verilib. O, "bir çoxlarından daha çox səlahiyyətə" və ya "çox təsirə" malik olduğunu iddia etmir. O, "indi az, amma gələcəkdə Mən bütün səlahiyyətlərə sahib olacağam və o vaxt işlərin öhdəsindən gələnləri mükafatlandıracağam" demir. O deyir ki, hal-hazırda bütün səlahiyyətlər Onun əlindədir.

Bu o deməkdir ki, İsanın sizin sadiq kilsəniz üzərində olduğu kimi Şimali Koreya üzərində də səlahiyyəti var.

"Bu necə ola bilər?" deyə soruşuruq. "Şimali Koreyada insanlar aclıqdan ölür! Məsihçilər təqib olunur! Evsiz yetimlər gecələr soyuqdan donaraq ölür! Bütün bunları düzəltmək üçün hakimiyyəti və qüdrəti olduğu halda, hansı Allah belə dəhşətli hadisələrə yol verər?"

Bu sualı vermək bizə Allahın xasiyyətini dərk etmək üçün düzgün yolda olduğumuzu göstərir. Niyə? Çünki bu, Müqəddəs Yazılarda[229] Allahın xalqının dəfələrlə soruşduğu sualdır: "Ya Rəbb, niyə haqsızların çiçəklənməsinə yol verirsən?" Bu sualların hər biri, əgər eşitmək üçün qulaqlarımız varsa, Allahın xasiyyətini və hərəkətlərini daha dərindən dərk etmək üçün giriş nöqtəsidir.

Əhdi-Cədidin müəllifləri Məsihin tam məsuliyyət daşıdığına inanırlar. Onlar bilirdilər ki, bütün səlahiyyətlər Məsihin Atasından gəlir. Buna baxmayaraq, Rəbbin qərarları onları narahat edirdi və sual verirdilər: "Niyə bizi tərk edirsən?" və

[228] Matta 28:18

[229] Vəhy 6:10, Habaqquq 1:2, Məzmur 13:1.

"Niyə bizdən qisas almırsan?" Əgər bütün güc həqiqətən Məsihin əlindədirsə, bu sualları verməki haqlıdır.

Kilsə tarixinin böyük bir hissəsində Matta 28:16-20-ci ayələrin mərkəzində 18-ci ayədəki əmr deyil, Məsihin hal-hazırda hər şeyə sahib olduğu hakimiyyət durur. Tarix boyu məsihçilər təqib olunanda və həbsə atılanda qorxuya qapılmayıblar, əksinə fövqəltəbii bir sevinc hissi keçiriblər. Çünki onlar bilirdilər və inanırdılar ki, Məsih bu anda bütün hakimiyyətə sahibdir. Onlar anlayırdılar ki, Məsihin icazə vermədiyi heç bir şey onların həyatında baş verə bilməz.

Buna baxmayaraq, bu, ağır bir iddiadır. Bir çoxumuz "Mən Allahı sevirəm, İsanın ölülər arasından dirildiyinə inanıram və dünyanın Allahın əli ilə yaradıldığına inanıram, amma buna inana bilmirəm" deyərək Rəbdən uzaqlaşa bilər.

Amma biz Ondan uzaqlaşa bilmərik. Bu, Allahın fəaliyyətinin açıq, aydın, mühüm ifadəsidir. Bu, bir çox cəhətdən məsihçi inancının əsasını təşkil edir. Allahın dünyanı yaratdığına, İsanın Allahın Oğlu olduğuna, İsanın qanının günahlarımızı yuduğuna və İsanın ölülər arasından dirilməsinə inana bilərik. Bununla belə, əgər İsanın göydə və yerdə bütün hakimiyyətin sahibi olduğuna inanmasaq, özümüzü məsihçi adlandıra bilmərik.

Niyə?

Əgər biz İsanın bütün səlahiyyətə malik olduğuna inanmırıqsa, deməki, bizdən əvvəl gələn sadiq kilsənin tanıdığı Allahdan fərqli bir Allaha ibadət edirik. Müqəddəs Kitabda təsvir olunan Allahdan fərqli bir Allahı tanıyırıq.

Müqəddəs Yazılar və sadiq kilsənin şahidi bu məsələdə bizimlə həmfikirdir. İsa bizə deyir ki, "ölümün və ölülər diyarının açarları Məndədir".[230] Peter bizə deyir ki, Allah bizə bir az əzab çəkməyə yol verir, sonra isə bizi ayağa qaldırır.[231] Paul xatırladır ki, Allah bizi (və ətrafımızdakı dünyanı) istədiyi şəkildə mükəmməl şəkildə

[230] Vəhy 1:18

[231] 1 Peter 5:10.

formalaşdırıb və bu, bizi şikayətə deyil, ibadət etməyə təşviq etməlidir.[232] Erkən məsihçilər Sezardan daha böyük hakimiyyətə sədaqətlə şahidlik etməklə "dünyaya çaxnaşma saldılar".[233]

Diqqət edin ki, Müqəddəs Yazıların hər birində insanın necə davranacağı deyil, Allahın nə etdiyi vacibdir. İsa təkcə mərhəmət inqilabını başlatmadı. O, bizi ona kömək etməyə və ya onu təqlid etməyə çağırmır. Əksinə, Onun etdiklərini qəbul etməyə, şahid olmağa, başqalarını vəftiz etməyə və başqalarına Rəbbə itaət etməyi öyrətməyə dəvət edir. Buna görə də Matta 28:19-cu ayənin ən vacib hissəsi "bütün millətlərə gedin" deyil, "beləliklə" sözüdür. Bu söz bizə xatırladır ki, bizim etdiklərimiz sadəcə Onun işinə cavabdır. Bu mərhəmət inqilabında bütün səlahiyyət Onundur və hərəkətlərimizin nəticəsi də Onundur.

Məsih ölümdən dirildikdən sonra həvarilərə verildiyi kimi, biz də Onun Müqəddəs Ruhunu almışıq. Buna görə də dövrün sonuna qədər Onun yanında sədaqətlə qalmaq imkanımız var. Məsih bizə Müqəddəs Ruhu Onu əvəz etmək və Onun işini öz gücümüzlə davam etdirmək üçün yox, daim Onunla bir olub Onun işlərinə şahidlik etmək üçün verdi. Çünki bütün hakimiyyət Rəbbin əlindədir və O, hər zaman bizimlədir. İsa istəyir ki, diqqətimiz daim Onun etdiyi işlərdə olsun, özümüzə və öz nailiyyətlərimizə heyran olmayaq.

---

232 Romalılara 9:19-21.
233 Həvarilərin İşləri 17:6-7.

# 5-ci fəsil.
# Allahın əmrləri

***Allah Müqəddəs Yazılarda Məsihin bədəni olan kilsəyə və onun üzvü olaraq bizə necə göstəriş verir?***

Müqəddəs Kitabda Allahın əmrini müəyyənləşdirmək nə çətin, nə də çox vaxt aparan bir işdir. Sadəcə olaraq, oxuduğumuz hissədə Allahın verdiyi əmrləri bildirən fellərin altından xətt çəkirik və ya onları vurğulayırıq. Bu, yalnız bir neçə dəqiqə vaxt çəkir.

Lakin məsihçinin öz həyatı boyunca öyrəndiyi ən vacib məsələ budur: Bu əmr kimə ünvanlanır və onu kim həyata keçirir?

Məsih öz bədəni olan Kilsəyə əmr edir.

Bu mənada O, bizə bənzəyir. Biz necə ki, öz bədənimizə məsələn, ayağa qalx, otur, buraya gəl, ora get, bu əşyanı götür, onu yerə qoy, danış və ya sus deyə əmr edirik, Məsih də Öz bədəninə belə əmr verir.

Eyni zamanda biz də bəzən başqalarına əmr edirik. Komandirlər əsgərlərə, valideynlər uşaqlara, müdirlər işçilərə nə etməli olduqlarını əmr edirlər.

Lakin bu baxımdan Məsih bizdən fərqlidir. Bir neçə təəccüblü istisna halları çıxmaqla, O, yalnız Öz bədəninə – vəftiz olunmuş üzvlərinə – əmr verir. Onun əmrləri müqəddəs mirvarilər kimidir; O, bu mirvariləri yalnız Öz gəlni olan kilsəsini bəzəmək üçün verib. O, Matta 7:6-cı ayədə deyir: "Müqəddəs olanı itlərə verməyin və mirvarilərinizi donuzlara atmayın; yoxsa bunları ayaqları ilə tapdalayarlar və dönüb sizi parçalayarlar".[234] İsa

[234] Matta 7:6

insanların suallarına cavab verir, cinləri qovur və sonda bəzilərini mühakimə edirdi. Ancaq bir neçə istisna olmaqla, O yalnız Öz bədəninə, kilsəyə əmr edirdi.

Məsihin bədəninə daxil olmaq itaətimizin mükafatı və ya sədaqət andımızın nəticəsi deyil. Bu, yalnız Onun lütfü ilə mümkündür. Biz yalnız Rəbbin ölümündə[235] vəftiz olunmaqla Onun bədəninə daxil oluruq. Rəbbin əmrlərinə riayət etmək bizim Onun bədəninə üzv olmağımıza layiq deyildir. Bizim ayaqlarımız istədiyimizi etməyincə biz onları bədənimizin bir hissəsi hesab etmirik. Ayaqlarımızda gecə qıcolmaları, qocalma ilə əlaqəli yorğunluq olsa da onlar hələ də bizim bədənimizə məxsusdur. Eynilə, əmr verdiyimiz zaman ayağa qalxmağımızı təmin edən ayaqlarımız bədən üzvümüzdür. Bu ayaqların işidir. İsa deyir: "Beləcə siz də sizə əmr olunanların hamısını yerinə yetirəndən sonra deyin: 'Biz dəyərsiz qullarıq, çünki görməli olduğumuz işləri etmişik'".[236]

Ayaqlarımız öz vəzifəsini yerinə yetirmədikdə, onları bədənimizdən çıxarırıqmı? Əlbəttə yox. Həvari Paulun yazdığı kimi:

> "Əksinə, bədənin daha zəif görünən üzvləri daha çox lazımlıdır, dəyəri az saydığımız bədən üzvlərini daha çox dəyərləndiririk, görünməyən üzvlərimizə də xüsusi qayğı göstəririk. Görünən üzvlərimizin isə buna ehtiyacı yoxdur. Lakin Allah aşağı tutulan üzvü daha çox dəyərləndirərək bədəni elə düzəltdi ki, bədəndə ayrı-seçkilik olmasın, əksinə, bütün üzvlər bir-birinə eyni qayğı göstərsin. Buna görə əgər bir üzv əzab çəkirsə, başqaları da onunla birgə əzab çəkir. Üzvlərdən biri şərəfə çatırsa, başqaları da onunla birgə sevinir".[237]

[235] Mark 16:16
[236] Luka 17:10
[237] 1 Korinflilərə 12:22-26

Beləliklə, hətta Məsihin əmrlərinə əməl etməyən bədən üzvlərini belə, biz bədəndən kəsib atmırıq və onlara hörmətsizliklə yanaşmırıq. Həvari Paul soruşduğu kimi, "Sən kimsən ki, başqasının xidmətçisini mühakimə edirsən? O xidmətçini haqlı yaxud haqsız çıxarmaq ixtiyarı ağasına məxsusdur. Xidmətçi haqlı çıxacaq, çünki Rəbb onu haqlı çıxarmağa qadirdir".[238] Biz bu cür üzvləri bədəndən kəsib atmaq əvəzinə, onların qayğısına qalır, onları sağaltmağa çalışır, nifrət etmədən çatışmazlıqlarını həvəslə kompensasiya edir və onlara səbirlə dözürük. Biz də onlar kimi Məsihin bədəninin sadəcə üzvləriyik. Rəbb başdır və Onun ən zəif üzvlərimizlə bağlı bizə verdiyi Paulun mühakimə etməmək əmrini, bizdən xahiş edir: "Mən sizi sevdiyim kimi bir-birinizi sevin".[239]

Bugünkü dövrdə məsihçilər Müqəddəs Kitabın əmr və təlimlərini fərdi məsuliyyət kimi qəbul etməyə meyllidirlər, sanki Müqəddəs Kitab hər bir insanın davranışını yönəldən bir bələdçi kitabıdır. Lakin bu, müasir bir anlayışdır, Müqəddəs Kitabın anlayışı isə fərqlidir. Bu gün bəzi insanlar özlərini "dindar deyil, ruhani" olaraq təsvir etməkdən məmnundurlar. Bu ifadəni müsbət bir şəkildə istifadə edirlər. Bu ifadə ilə onlar inanclarının şəxsi bir məsələ olduğunu bildirirlər və imanlarını fərdi şəkildə, geniş bir icma ilə əlaqə qurmadan tətbiq edirlər. Buna görə də, onlar Müqəddəs Kitabı şəxsi fəaliyyətləri üçün bir təlimat və ya ən azından şəxsi ilham mənbəyi kimi oxuyurlar.

Lakin Kolosselilərə 2:19-cu ayədə Paul belə davranışı "ruhani olmayan" kimi təsvir edir. Paul deyir: "O, bədənin Başı olan Məsih ilə əlaqəni itirdi. Bütün bədən buğumlar və bağlarla üzvi surətdə Məsihə bağlanaraq təmin olunur, qurulur və Allah bəslədiyinə görə böyüyür".[240] Deməli, ruhani olmaq dindar

[238] Romalılara 14:4
[239] Yəhya 13:34.
[240] Kolesselilərə 2:18-19

*olmaqdır: Din latınca* "bağlamaq"[241] mənasını verən *religare* sözündən götürülüb. Məsihçilər yalnız Məsihin bədəninin üzvləri kimi, Onun rəhbərliyi altında bir-birinə bağlıdırlar. Rəbb məsihçilərə ayrı-ayrılıqda əmr etmir, sanki onlar həmfikir ruhani insanların birliyidir və hər biri sadiq olmağa çalışır. Paulun Efeslilərə məktubunda dediyi kimi,[242] Rəbb "hər buğumun köməyi ilə üzvi surətdə Ona bağlanmış" *bədənə* əmr *edir.*

Deməli, biz Müqəddəs Kitabı oxuyanda, canlı və təsirli olan Kəlam bizə müraciət edir, xeyir-dua və əmr verir. Bunu praktik mənada başa düşmək bizim üçün çətindir. Əgər mənim yanağıma şillə vuruldusa, bütün kilsə necə "digər yanağını çevirir"? Bəs iş yerimdəki düşmənim kilsəmdə heç kimin tanımadığı adamdırsa, bütün kilsə necə düşmənimi sevə bilər? Başqa sözlə desək, Allahın əmrləri həm fərd kimi mənimlə, həm də birgə olaraq Məsihin bədəni ilə necə əlaqəlidir?

Bu, Müqəddəs Yazıların əsas mövzusudur, lakin biz fərqinə varmırıq, çünki o, müasir fərdi anlayışımızı çaşdıran şəkildə danışır. Yuxarıda qeyd olunan 1 Korinflilərə 12:26-cı ayədə Paul yazır: "Buna görə əgər bir üzv əzab çəkirsə, başqaları da onunla birgə əzab çəkir. Üzvlərdən biri şərəfə çatırsa, başqaları da onunla birgə sevinir".[243] Biz adətən bu ayəni səhvən belə oxuyuruq, sanki Paul əmr verir və ya bəyan edir: "Əgər bir üzv əziyyət çəkirsə, bütün üzvlər onunla əzab çəkməlidir və ya bir üzvə hörmət edilirsə, bütün üzvlər bununla sevinməlidir".

Lakin bu, Paulun fikrinin tam əksidir. Paulun dediyi odur ki, boğazımız ağrıyanda biz "boğazım xəstədir" deyil, "mən xəstəyəm" deyirik. Eyni şəkildə, Məsihin bədənində bir üzvün əzabı bütün bədənin əzabı kimi qəbul edilir. Dirilmiş Məsih

---

[241] S.F. Hoyt, 1912. "Din sözünün etimologiyası." *Amerika Şərq Cəmiyyəti Jurnalı*, cild 32, № 2, s. 126.

[242] Efeslilərə 4:16

[243] 1 Korinflilərə 12:26

təqibçi Şaula görünüb soruşa bilərdi: "Şaul, Şaul, niyə Yerusəlim və indi də Dəməşq məsihçilərini təqib edirsən?" Amma O dedi: "Şaul, Şaul, niyə Məni təqib edirsən?"[244]

İbranilərə məktubunda Paul yazır: "Özünüzü həbsdə olanların yerinə qoyaraq onları yada salın. Əzab-əziyyət içində olanları da elə xatırlayın ki, sanki özünüz onlarla birgə əzab-əziyyət çəkirsiniz". O, bu əmri ilə üzv və bədən arasında eyniləşdirməni irəli sürür.[245] Yuxarıdakı 1 Korinflilərə 12-ci fəsildə olduğu kimi, "Həbsxanada olanları, zindanda olmasanız da, onlarla birlikdə olduğunuz kimi xatırlamalısınız" kimi oxusaq, *ayənin* mənası itir. Bu, yoxsul dustaqları unutmamaq üçün bir yalvarış deyil. Bu, vəftiz zamanı daxil olduğumuz bədənin bir üzvü kimi yaşamağa dəvətdir.

Hətta kilsədə fəal olan məsihçilər belə, şəxsi həyatlarında gündəlik qərar verərkən Məsihin bədənini nadir hallarda nəzərə alırlar. Xüsusilə də qapalı qapılar arxasında baş verən şəxsi məsələlərdə, çox az məsihçi belə bir sual verir: "Bu qərar Məsihin bədəni ilə necə əlaqəlidir?" Təəssüf ki, ictimai davranışlarına gəldikdə də bu cür düşünən məsihçilər azdır.

Paul üçün ən əsas və aydın əxlaqi sual budur: "Bir məsihçi kimi etdiyimiz hərəkətlər Məsihin Bədəninə — həm Onun xalqına, həm də şəxsən Ona — şərəf, yoxsa xəcalət gətirir?

Çünki biz Məsihin Bədəninin üzvləriyik. Bizim etdiklərimiz birbaşa Onunla bağlıdır. Məsələn, əgər bir məsihçi fahişə ilə cinsi ünsiyyətdə olursa, bu, sanki Məsihin Bədənini fahişə ilə birləşdirməkdir. Paul deyir: "Bilmirsiniz ki, bədənləriniz Məsihin üzvləridir? Bəs Məsihin üzvlərini götürüb fahişəyə birləşdirimmi? Əsla!"[246] Eynilə, məsihçilər bir-birini məhkəməyə çəkəndə, bu, Məsihin adını imansızlar arasında rüsvay edir.[247]

---

[244] Həvarilərin İşləri 9:4
[245] İbranilərə 13:3
[246] 1 Korinflilərə 6:15
[247] 1 Korinflilərə 6.

Biz fərdi hərəkətlərimizi öz hərəkətlərimiz kimi düşünürük. Elə düşünürük ki, davranışlarımız ətrafımızdakı insanlarda Allaha və ya kilsəyə qarşı müsbət və ya mənfi fikir formalaşdıra bilər. Lakin Məsihdə Allah Özünü bizimlə o qədər tam eyniləşdirmişdir ki, O Öz hərəkətləri və bədəninin hərəkətləri kimi bizim də fərdi hərəkətlərimizə sahibdir. Eyniləşdirmə o qədər mütləq və tam hiss olunur ki, Həvari Paul Efeslilərə 5:30-cu ayədə bunu belə təsvir edir: “Axı biz Onun bədən üzvləriyik”.[248] *Yəni biz Onun əti və sümüyüyük.*

Bu, Onun bədəni ilə tam şəkildə eyniləşməsinin və bədəninin hər bir üzvü ilə tam birliyinin nəticəsidir ki, Məsih belə deyə bilər: “Sizə doğrusunu deyirəm: yer üzündə bağlayacağınız hər şey göydə bağlanmış olacaq və yer üzündə açacağınız hər şey göydə açılmış olacaq”.[249] Bu imtiyaz yalnız seçilmiş bir neçə nəfərə verilmir, çünki Məsihin bədəni pastorlardan ibarət bir bədəndir, hər bir üzv pastordur — bütün iman edənlərin kahinlik səlahiyyəti var.[250] Əgər Məsihin Özünü, bədənini və hər bir imanlını bu dərəcədə eyniləşdirməsi bizi narahat edirsə, xatırlamalıyıq ki, yalnız bu eyniləşmə xilasın mümkün olmasına şərait yaradır. Məsih bizim üçün öldü. Biz Onun ölümünə vəftiz olunduq. Biz yalnız Onun daxilində yaşayırıq.

Məsih bizim əməllərimizdə əsaslı şəkildə mövcud olduğu və Məsihin ən kiçik qardaş və bacılarında[251] da əsaslı şəkildə mövcud olduğu üçün, ən kiçiklərə qarşı etdiyimiz əməllər əslində Məsihin Özünə qarşı etdiyimiz əməllər sayılır. Əmr verən və bizdə hərəkət edən Məsihdir. Bu, Məsihin bir bədənini təşkil edən digər imanlılara qarşı etdiyimiz əməllər üçün də doğrudur. Əmr verən, hərəkət edən və qəbul edən də Odur. Bu, düşmənlərimizlə bağlı etdiklərimizdə də belə təsir edir, yəni düşmənlərimiz bizə qarşı

[248] Efeslilərə 5:30
[249] Matta 18:18
[250] 1 Peter 2:5; İbranilərə 4:14-16
[251] Matta 25:31-46

çıxanda, əslində Məsihə qarşı çıxırlar, çünki artıq bizdə yaşayan biz deyilik, Məsihdir.[252] Məsih bizə əmr edir ki, düşmənlərimizin bizə qarşı əməllərini Ona və Onun bədəninə, yəni bizim sadəcə bir üzv olduğumuz o vahid bədənə qarşı edilmiş əməllər kimi qəbul edib cavab verək. Bir üzvə edilən hücum, bütün bədənə daha doğrusu, Məsihə edilmiş hücumdur. Bizim vasitəmizlə düşmənlərimizə Məsihin mərhəməti və Onun bütün bədəninin məhəbbəti təklif olunmalıdır. Elə buna görə də Həvari Paul yazır:

> "Ey sevimlilər, heç kəsdən qisas almayın, Allahın qəzəbinə yer verin. Çünki yazılıb ki, Rəbb belə deyir: 'Qisas Mənimdir, əvəzini Mən verəcəyəm'. Əksinə, 'düşmənin acdırsa, onu yedizdir, susuzdursa, ona su ver. Belə etməklə sanki onun başına köz tökərsən'".[253]

Bəzən elə düşünürük ki, bizim etdiyimiz yaxşı və pis əməllər sadəcə özümüzə aiddir. Amma əslində biz tək deyilik – biz Məsihin bədəninin bir üzvüyük. Ona görə də etdiyimiz hər şey Onunla və digər imanlılarla bağlıdır. Əgər biz əməllərimizi sadəcə özümüz üçün etdiyimizi düşünürüksə, bu, Müjdəyə ziddir. Biz Məsihin bu dünyadakı nümayəndələriyik və Onunla birgə hərəkət etməliyik.

Müqəddəs Kitabı oxuyanda diqqətli olmalıyıq ki, Allah demədiyi halda özümüz üçün əmr uydurmayaq. Bəzən biz "Allaha itaət et", "dua et", "xidmət et" kimi sözləri hər ayədən çıxarmağa çalışırıq və fikirləşirik ki, Allahın əsas məqsədi bunlardır. Sanki Allah həmişə belə düşünür: "Bu adam mənə itaət edir?", "Məni dinləyir?", "Dua edir?", "Sədəqə verir?" Lakin Müqəddəs Kitabdakı Allah belə danışmır. Bu cür fikirlər bizim düşüncəmizdə təsvir etdiyimiz tanrıdan – özümüz yaratdığımız, amma həqiqi olmayan bir tanrıdan gəlir. Bu əmrlər çox vaxt bizim üçün düzgün

[252] Qalatiyalılara 2:20
[253] Romalılara 12:19-20

səslənir, ona görə də yanlış olduğunu anlamırıq. Düşünürük ki, əgər fikirlər özümüzdən yaranırsa və Məsihlə əlaqəsi yoxdursa, o zaman bu Allah üçün deyil, bizim özümüz üçündür. Belə olan halda, biz əslində Allaha yox, özümüzə itaət etmiş oluruq.

Beləliklə, əməl ilə saleh olmaq anlayışının əksi sadəcə lütf deyil, həm də özümüzdən əl çəkməkdir. Bu o deməkdir ki, artıq həyatımız və əməllərimiz bizim haqqımızda deyil, bütünlüklə Məsih, yəni baş və bədən haqqında olmalıdır. Onda özümüzə olan sevgi Məsihin bədəninə və Onun başı olan Məsihə olan sevgi ilə əvəz olunur.

Əhdi-Cədid bizə öyrədir ki, artıq biz Məsihlə və Onun bədəni ilə bağlılığımızdan asılı olmayaraq müstəqil şəkildə hərəkət edə bilmərik; etdiyimiz hər şey Məsihdən qaynaqlanır və Onun bədəninə təsir edir. Siz nə edirsinizsə, Məsihin bədəninə də təsir edir. Əgər sən fahişə ilə birləşirsənsə, demək, Məsihi və Onun bədənini də fahişə ilə birləşdirirsən. Əksinə, əgər Onun adı uğrunda əzab çəkirsənsə, onda Həvari Paul ilə birlikdə sən "Məsihin Öz bədəni olan imanlılar cəmiyyəti uğrunda çəkdiyi əziyyətlərin qalanını canına cəfa verərək tamamlayırsan."[254]

Bu baxımdan, Müqəddəs Kitabda verilən bütün əmrlərdə Allah bizi Məsihin bədənində birgə Özü ilə ünsiyyət qurmağa dəvət edir. Biz Rəbbin Süfrəsində Onun bədəni və qanında birgə iştirak etdiyimiz kimi Onun xasiyyətində də ortaq oluruq.

Əslində, məhz Rəbbin Süfrəsi vasitəsilə biz bu əsas məsihçi həqiqətini görməyi və ona uyğun davranmağı öyrənirik: "Bu bədəndir, bədəndir, bədəndir…" Vəftizdə biz yalnız öz nəfsimizə deyil, həm də ayrılıq üçün ölürük. Rəbbin Süfrəsində isə biz Onun bədənində hər bir oynaq vasitəsilə birləşmiş şəkildə daimi yerimizi alırıq. Bu səbəbdən, Rəbbin Süfrəsini yalnız Allahla şəxsi bir vaxt keçirmək kimi görmək düzgün deyil. Çünki bu Süfrə həm də Onun Bədənini, yəni imanlıları tanımaq və birlikdə paylaşmaq vaxtıdır. Əgər bunu unuduruqsa, Süfrəyə hörmətsiz

[254] Kolosselilərə 1:24

yanaşmış oluruq. Bu barədə Həvari Pavel belə deyir: "Çünki kim Rəbbin bədənini dərk etməmiş yeyib-içsə, yeyib-içərək öz üzərinə mühakimə gətirir".[255]

Müqəddəs Kitabda əmrləri oxuyarkən, biz əvvəlcə "Allah məni nə etməyə çağırır?" sualı ilə yanaşmırıq. Əvəzində, əvvəlcə kim olduğumuzu, yəni biz Onun bədəninin üzvləri olduğumuzu xatırlayırıq. Məsihçi üçün təkbaşına hərəkət etmək təbii olaraq mümkün deyil. Bütün məsihçi fəaliyyəti təbii olaraq çoxşaxəlidir: Orada Məsih, kilsə, Məsih bədəninin üzvü olan məsihçilər və məsihçi ən kiçik bacı-qardaşlarımız da mövcuddur. Orada Məsih düşmənlərinə barışıq əlini uzadır. Biz hər bir əmri çoxşaxəli düşüncə ilə oxuyuruq. Bu düşüncə bizə Rəbbin Süfrəsində Onun lütfü ilə bəxş olunur. Sonra biz buna əsasən soruşuruq: "Allah Məsihin bədənini nə etməyə çağırır?" və biz buna əsasən hərəkət edirik.

Məsihin bədəni sadəcə bizim seçdiyimiz və getdiyimiz bir kilsə ilə məhdudlaşa bilməz. Yəni, təkcə bir şəhərdəki və ya bir məzhəbdəki kilsə Məsihin bədəni sayılmaz. Biz deyə bilmərik ki, bu kilsə Məsihin bədənidir, o mənim üçündür. Yalnız İsa Məsih Öz bədənini müəyyən edə bilər. O, kilsəni zaman, yer və millət fərqlərinə görə bölməyə icazə vermir. Məsələn, biz kilsəyə "Koreya kilsəsi, Çin kilsəsi və ya Amerika kilsəsi" deyə bilmərik. Biz həm də "erkən kilsə, orta əsr kilsəsi, müasir kilsə, yerli kilsə, milli kilsə, qlobal kilsə" deyə bilmərik. Biz necə ki XVII əsr çinli məsihçiləri ilə eyni bədəndəyiksə, eləcə də XXI əsr rus məsihçiləri ilə və küçənin o biri tərəfindəki başqa məzhəbə mənsub kilsə ilə də eyni bədəndəyik. Məsih yalnız bir bədəni tanıyır və biz *Nikeya etiqadı* ilə etiraf edirik: "Bir müqəddəs, kamil (katolik) və həvari kilsəsi mövcuddur." Həmin bədən barədə Həvari Paul belə yazır: "Bu təzələnmədə yunanla yəhudi, sünnətli ilə sünnətsiz, barbar, skif, qulla azad arasında fərq yoxdur:

[255] 1 Korinflilərə 11:29

Məsih hər şeydir və hamımızdadır".[256] Zaman, məkan, məzhəb və hər bir insan sərhədini keçir və kilsənin ayrılmazlığı onun həqiqiliyinin nişanəsidir. Paul deyir: "Buna görə əgər bir üzv əzab çəkirsə, başqaları da onunla birgə əzab çəkir. Üzvlərdən biri şərəfə çatırsa, başqaları da onunla birgə sevinir".[257] Əgər kilsə belə deyilsə, o zaman o kilsə deyil.

Məsihin kilsəsi Müqəddəs Yazılarda zaman, yer, millət və məzhəb fərqi etmədən bir bədəndir. Rəbbin Süfrəsində Onun sözlərini birlikdə dinləyirik və fərdi hərəkətlərimizi Onun lütfü ilə bütün kilsənin və Rəbbin işi kimi qəbul etməyə alışırıq.

Bu o demək deyil ki, Məsih və kilsə hər hərəkətimizi tam düzgün etməyimizi tələb edir. Əksinə, Məsih və kilsə, Onun düzgün hərəkətinə əsaslanır və biz də bunu qəbul edib vəftizlə ölümümüzü qəbul edirik ki, O, bizdə daha az müqavimətlə işləyə bilsin. Əsas odur ki, Məsih bədəni idarə edir və biz Onun əmrlərini bədənin bir hissəsi kimi qəbul etməliyik. Biz bədənimizi Ona verməliyik ki, O, əmrlərini bizdə həyata keçirə bilsin (Romalılara 12:1-2). Unutmayaq ki, Məsihlə birləşəndə həm çətinlikdə, həm də şərəfdə Məsih bizim hərəkətimizdədir.

Bəli, biz yerli nümayəndələr olaraq üzümüzü çevirdikdə, bütün kilsə də üzünü çevirir. Biz bunu nümayəndə kimi etməsək, bütün kilsə üzünü çevirə bilməz. Əgər iş yerində düşmənimiz varsa, biz onu həm bütün kilsənin, həm də Məsihin düşməni kimi başa düşməliyik. O düşmənin verdiyi kədər və ya şərəf bütöv bədənə aiddir, çünki biz onları Məsihin əmrinə uyğun sevirik. Məsih iş yerindəki düşmənimizə belə deyir: "Niyə Mən təqib edirsən?" Amma Rəbb demir ki, niyə Səliməni təqib edirsən?[258]

---

[256] Kolosselilərə 3:11

[257] 1 Korinflilərə 12:26

[258] E. Foley, 2012. "Sənin düşmənin əslində sənə yox, Məsihə hücum edir və Məsih sənin vasitənlə onlara hələ də yaxşılıq edir." *Doers of the Word.* http://dotheword.org/2012/01/11/your-enemy-is-actually-attacking-christ/

Buna görə də biz Allahın əmrlərini eşidəndə əvvəlcə kim olduğumuzu xatırlayırıq: Biz Başın əmr etdiyi bir bədənin təvazökar üzvləriyik. Bu bizə düzgün eşitmək və əmri yerinə yetirmək üçün vacibdir. Bu, İsanın Dağdakı vəzindəki sözləri nəzərdən keçirdikdə aydın olur:

> "Siz yer üzünün duzusunuz. Amma duz öz dadını itirərsə, nə ilə duzlanar? Artıq çölə atılıb insanlar tərəfindən tapdalanmaqdan başqa bir şeyə yaramaz. Siz dünyanın nurusunuz. Dağın zirvəsində qurulan şəhər gizli qala bilməz. Heç kim çırağı yandırıb qabın altına qoymaz. Əksinə, çıraqdana qoyar ki, evdəkilərin hamısını işıqlandırsın. Eləcə də sizin nurunuz insanların qarşısında elə parlasın ki, onlar xeyirxah işlərinizi görüb göylərdə olan Atanızı izzətləndirsinlər".[259]

Məsihin əmrlərini kimliyimizi nəzərə alaraq oxuduqda, əvvəl Matta 5:14-cü ayədəki "Siz dünyanın nurusunuz" və Yəhya 8:12-ci ayədəki "Dünyanın nuru Mənəm" ifadələrindəki çaşqınlıq aradan qalxır. Məsih başdır, kilsə isə bədəndir. Baş bədəndən ayrıla bilməz. Birlikdə onlar Avqustinin "bütöv Məsih"[260] dediyi ifadəni təşkil edirlər. Bizdə Məsihin nuru və bütün dövrlərin kilsəsi var. Bu bədən hər bir üzvünün olduğu yeri müqəddəs məkana çevirir.

Bu fəsildə yazılanlara əsaslanaraq, artıq Müqəddəs Yazılarda əmrlər tapmaqdan çəkinirik. Məsih Kəlamın bu parçasında bizə "Yer üzünün duzu olun. Dünyanın nuru olun" demir. Çünki artıq biz vəftizdə Rəbbə birləşməklə həmin şeyə çevrilmişik.

Bunun əvəzinə, bu parçada yalnız bir əmr var: "Sizin nurunuz insanların qarşısında elə parlasın ki..." Bu, Matta 5:11-12-ci ayələrdə əvvəl gələnlərin kontekstində məna kəsb edən bir əmrdir:

---

[259] Matta 5:13-16

[260] Avqustin, 1996. Müxtəlif Mövzularda 341-400-cü Vəzlər. Hayd Park, NY: Nyu Siti Nəşriyyatı, səh. 26.

“İnsanlar Mənə görə sizi təhqir edib təqib edəndə, yalan söyləyib sizə hər cür böhtan atanda siz nə bəxtiyarsınız! Sevinin və şadlanın! Çünki göylərdə mükafatınız böyükdür. Axı sizdən qabaq gələn peyğəmbərləri də belə təqib ediblər”.[261]

İnsan təqiblə üzləşəndə, dərhal gizlənmək, diqqət çəkməmək, problemlər yaradan yoldaşlarından uzaqlaşmaq istəyir. Lakin İsa deyir ki, belə etmək duz və nur olmaq məqsədini puç edir. Qeyd edək ki, duz və nur kollektiv məfhumlardır. Buna görə də Məsih əmr edir ki, təqib zamanı Onun bədəni — nə özü, nə də ayənin ona etibar edilmiş heç bir hissəsi gizlənməsin. Məsihin bir şanlı bədəni var və siz Onun bu yerdəki təzahürüsünüz. Sizin bu bədəniniz – ət və qandan ibarət olan – bütün kilsəni bir nöqtədə təmsil edir və işıqlandırır ki, Allahın xasiyyəti hər yerdə və hamı tərəfindən görünə bilsin.

Dağüstü vəz bu Müqəddəs Yazıdakı hər bir “sən” və “sizin” cəmidir və buraya “sizin” nurunuz parlasın əmri də aiddir. Bu bölmədə öyrəndiklərimiz bizə göstərdi ki, biz Məsihin əmrlərini yalnız özümüz üçün fərdi şəkildə yerinə yetirməyə çalışırıq. Amma bilirik ki, Allahın Kəlamı yalnız bizə fərdi şəkildə deyil, imanlıların bütün bədəninə, yəni zaman, məkan, millət və məzhəb fərqinə baxmadan hamıya ünvanlanıb.[262] Biz bu bədənin ayrılmaz bir hissəsiyik. Ona görə də Allahın əmrlərini dinləyərkən özümüzü sanki təkbaşına yerinə yetirməyi bacaran biri kimi bu bədəndən ayırmaq düzgün deyil. Çünki Allahın istədiyi şəkildə itaət yalnız bədənlə birlikdə mümkündür.

Bu, hər məsihçinin öz-özünə işıq saçması demək deyil. Elə bil ki, hər kəs öz yerində, Allahın ona verdiyi istiqamətdə və ənamlara görə ayrıca parlayır, amma bu fikir doğru deyil. Əslində, Məsih

---

[261] Matta 5:11-12

[262] Lerinsli Vinsent, 1894. Şaff, Filip; Veis, Henri. *Məsihçi Kilsəsinin Nikeya və post-Nikeya atalarının seçilmiş kitabxanası*, Cild 2, Bölmə 11. Tərcümə edən: Hortli, Çarlz A. Amerika nəşri). Bayfalo: Məsihçi Ədəbiyyatı.

bizə bir yerdə, bir bədən kimi Onun nurunun bizdə parlamasına icazə verməyi əmr edir. Bu, hər dövrdə, hər yerdə, hər xalq və məzhəb arasında eyni olan imanın parlamasıdır. Sadəcə olaraq Məsihi yalnız öz fikirlərinə görə qəbul etmək, yalnız öz təcrübənə uyğun iman həyatı yaşamaq və yalnız sənə vacib görünən hissələri müdafiə etməklə kilsə olmaq olmaz.

Müqəddəs Yazılarda Allahın əmrlərini başa düşmək nə çətindir, nə də çox vaxt aparır. Amma bu əmrləri Məsihin Bədəninin bir hissəsi olaraq, yəni başın dediyi və qəbul etdiyi kimi eşitməyi və yerinə yetirməyi öyrənmək isə bütün məsihçi həyatımız boyunca davam edən bir öyrənmə prosesidir.

# 6-cı fəsil.
# Nə edək?

***Allahın əmri bizə — Məsihin Bədəninin üzvlərinə yönəlib və biz də Kəlamı Onun xasiyyətinə uyğun olaraq yerinə yetiririk.***

Rəbbin anası qulluqçuya dedi: "Sizə nə desə, edin".[263]

Allahın əmri bizə birbaşa göstərişdən çox, Onun necə hərəkət etdiyini göstərir. Əmr bizə necə davranmalı olduğumuzu deyil, Allahın nə etdiyini və nə edəcəyini bildirir. Bizə deyilənlər isə sadəcə buna cavab verməkdir. Başqa sözlə, Allahın əmri Onun lütf dolu çağırışıdır. Biz Onun işinə uyğun hərəkət etdikdə yıxılmırıq, əksinə Rəbbin dünyanı düzəltmək planında iştirak edirik.

Allahın bütün əmrləri belədir. Biz səhv olaraq Allahı cənnətdə oturmuş, insanları seyr edən və onların hərəkətlərini yaxşı və ya pis olaraq mühakimə edən birisi kimi təsəvvür edirik. Düşünürük ki, insanlar buna uyğun olaraq ittiham olunur və ya bəraət qazanırlar.

Bu anlayış heç bir şəkildə Allahın xasiyyətinə uyğun deyil. Allahın xasiyyəti odur ki, fəaliyyətində birinci O başlayır və dünyanı da Özü düzəldir. O, bizim fəaliyyətimizi nəzərdə tutmur. Müqəddəs Yazılara əsasən həqiqi salehlik Allahın təşəbbüslərinə düzgün cavab verməkdir. Müqəddəs Ruh olmadan bu mümkün deyil. Lakin bu, vəftiz olunub Müqəddəs Ruhu qəbul etməklə mümkündür.

Əslində, bizi həqiqətə aparan Müqəddəs Ruhdur.[264] Müqəddəs Ruh bizə Kəlamı açır və Allahın dünyanı düzgün bir şəkildə

---

[263] Yəhya 2:5

[264] Müqayisə: Yəhya 16:13

qurması üçün bizə harada olmağımız və nə etməli olduğumuz barədə rəhbərlik edir. Müqəddəs Ruh bizə bildirir ki, əgər Allahın istədiyi kimi davranmasaq, vicdanımızda narahatlıq hiss edəcəyik. Məsələn, Müqəddəs Ruh bizə xəbər verir ki, biz yanlış yerdəyik, yanlış istiqamətə gedirik və bu da o deməkdir ki, Allah dünyanı düzgün şəkildə qurduqda, biz kənarda qalacağıq.

Əməllərlə saleh olmaq, yəni yaxşı işlər görüb Allahın razılığını qazanmaq fikri təkcə doğru deyil, həm də mənasızdır. Biz hansısa hərəkətə başladıqda bizə düzgün və ya yaxşı görünsə belə, problem yarana bilər, çünki xilas gətirən işi yalnız Allah başlaya bilər. Əgər biz başlayırıqsa, deməli, Allahın planını nəzərə almırıq. Bu da göstərir ki, biz insan fəaliyyətini düzgün başa düşmürük. Elə bilirik ki, insanın etdiyi hərəkətlər öz-özünə kifayət edir və ya Allahın işini tamamlaya bilir, amma bu belə deyil.

Həvari Paulun dediyi kimi: “İnsan əli ilə edilən xidmətə Onun ehtiyacı yoxdur, çünki hər kəsə həyat, nəfəs və hər şeyi verən Odur!”[265]

Biz hətta “yaxşı olmaq” fikri ilə fəaliyyətə başlayarkən bu, bizim və başqalarının yanlış yerdə olmağımız, yanlış istiqamətdə hərəkət etməyimiz və Allahın Öz işini yerinə yetirərkən kənarda qalmağımızla nəticələnə bilər. Digər tərəfdən, hərəkətlərimiz Allahın nəzərdə tutduğu kimi Onun təşəbbüslərinə cavab olduqda, biz xilası “qazanmırıq”, biz onu yaşayırıq. Allahla birgə hərəkət etmək xilası olmaq deməkdir. Bu, insanların Allahın istədiyi kimi və Onun xasiyyətini dünyaya əks etdirərək hərəkət etməsidir.

Allah insan əməllərinin tam və mükəmməl olmadığını göstərmək istəyir. Bizim etdiyimiz hər bir iş, əslində, Allahı — bizdən üstün olanı — göstərmək üçün yaradılıb. Ona görə də əməllərimizin mənası və gücü Allahdan gəlməlidir. Əks halda, bu əməllər boş və natamam olur. Günahın əsas mahiyyəti “ağıllı hərəkət etməkdir”, yəni yalnız özbaşına və tamamlanmış şəkildə

[265] Həvarilərin İşləri 17:25

hərəkət etmək, gücünü və məmnuniyyətini yalnız özümüzdən və ətrafımızdakı insanlardan almaqdır.

Başqa sözlə desək, Allah tərəfindən satın alınmış bir insanın həyatı elə olmalıdır ki, ona baxan onu tam başa düşmək üçün Allahı düşünməlidir. Üstəlik, xilas olmuş insanların davranışları yalnız indiki vaxtda və yaxın çevrədə deyil, dünyanın hər yerində və müxtəlif dövrlərdə bir-biri ilə uyğun gəlməlidir. Əgər bir kilsə müəyyən bir zaman və məkanda ümumbəşəri kilsə ilə birgə hərəkət edə bilmirsə, o zaman gizli qalmağı seçməlidir.[266] Keçən fəsildə qeyd etdiyimiz kimi, Məsih Öz bənzərsiz Bədəninə bir Bədən olaraq müstəqil səltənət vətəndaşları kimi yox, ayrı-ayrılıqda əmr edir.

Belə bir davranış tərzi günahkar insanlar üçün nə başa düşüləndir, nə də tətbiq edilə biləndir. Hətta xilas olmuş insanlar üçün belə, biz bu yolda yalnız İsanın nümunəsinə güvənə bilərik, çünki O, Allahın əmrlərini yer üzündə necə yerinə yetirməli olduğumuzu bizə göstərir. İsa bizə göstərir ki, O, həmişə Atası ilə birgə hərəkət edir. Yəhya 5:19-cu ayənin mənası da budur. Orada İsa deyir: "Doğrusunu, doğrusunu sizə deyirəm: Oğul Atanın nə etdiyini görməsə, Özündən bir şey etməz. Çünki Ata nə edərsə, Oğul da onu edər".[267] Eləcə də, Oğulun Atanın əmrlərinə itaəti diqqətimizi Ataya yönəltdiyi kimi, bizim hərəkətlərimiz də dünyanın diqqətini Üçlü Allaha yönəltməlidir.

Məsihin çarmıxa getməsi şagirdləri üçün tamamilə anlaşılmaz idi. Hətta Peter bu barədə danışdığına görə İsa ona irad tutdu. O, Peterə cavabında burada paylaşdığımız məqamı vurğuladı. Peter günahkar insanın düşüncəsinə uyğun, özünə məntiqli görünən hərəkətləri axtarırdı.

> "Bundan sonra İsa şagirdlərinə danışmağa başladı ki, Özü Yerusəlimə getməli, ağsaqqallar, başçı kahinlər və

[266] E. Foley, 2017. *Gizli Kilsənin Əkilməsi*. Seul: Şəhidlərin səsi təşkilatı, s. 72-77.

[267] Yəhya 5:19

> ilahiyyatçılar tərəfindən çox əzab çəkməli, öldürülməli və üçüncü gün dirilməlidir. Peter Onu bir kənara çəkib etiraz etməyə başladı: 'Ya Rəbb, Özünə yazığın gəlsin! Bu əsla Sənin başına gəlməyəcək!' Amma İsa dönüb Peterə dedi: 'Çəkil qarşımdan, Şeytan! Sən Mənə mane olursan. Sən Allahın işləri haqqında deyil, insan əməlləri barəsində fikirləşirsən'".[268]

Məsih çarmıxda ölür. Şagirdlərin Onun ölümünə münasibətindən göründüyü kimi, Rəbbin hərəkəti onlar üçün anlaşılmaz və natamam idi. Lakin Ata Müqəddəs Ruhun qüdrəti ilə Məsihi ölülər arasından diriltdi və Məsihin işi möhtəşəm şəkildə tamamlandı. Burada biz Üçlü Tanrının bizim hərəkətlərimizin Onun daxilində yerləşməsini və onlara necə cavab verməsini görürük. Onun əvvəlcədən hərəkəti olmasa, bizim hərəkətimiz yalnız günah və ölümlə nəticələnəcək. Amma biz əminik ki, Rəbb həmişə Öz sözünə əməl edəcək və Öz xasiyyətinə uyğun davranacaq. İsa hər şeydə, hətta ölümündə belə doğru idi.[269] Onun əmri ilə etdiyimiz heç bir şey boşa çıxmayacaq. Peteri məzəmmət etdikdən sonra İsanın şagirdlərinə verdiyi dərsi belə başa düşməliyik:

> "Sonra İsa şagirdlərinə dedi: 'Əgər bir kəs Mənim ardımca gəlmək istəyirsə, özündən imtina etsin və çarmıxını götürüb ardımca gəlsin. Kim canını xilas etmək istəyirsə, onu itirəcək, amma kim Mənə görə canını itirirsə, onu qoruyacaq'".[270]

İsa demək istəyir ki, əgər biz yalnız öz əməlimizə, yəni Məsih uğrunda etdiyimizə baxsaq, yalnız həyatımızı itirdiyimizi görərik. Amma əgər bu əmələ Allahın başladığı, müşayiət etdiyi və tamamladığı işi də daxil etsək, o zaman hətta həyatımızı

---

[268] Matta 16:21-23
[269] Romalılara 8:28.
[270] Matta 16:24-25

bu yolda fəda etsək belə əsl həyatı tapacağıq. Əgər insan öz əməllərinə yalnız öz baxış bucağından baxırsa və onlar ona məntiqli görünürsə, onda həyatını qorumaq ona daha doğru seçim kimi gələcək. Amma baxışını genişləndirib Allahın nə etdiyini də nəzərə alanda görəcək ki, həyatı öz gücü ilə qorumağa çalışmaq – əslində mənasız və axmaq bir davranışdır.

Allahın xalqına məxsus olan, amma bu həyatda natamam qalan əməlləri Allah Özü tamamlayacaq. Lakin Allahsız insanların tam görünən əməllərini isə Allah puç edəcək.

Bəs biz Müqəddəs Yazıda bir əmr oxuyanda və onu yerinə yetirəndə, Allahla və Onun xalqı ilə – yəni "bütün Məsihlə" – zaman və məkanda birlikdə necə hərəkət edirik?

Əvvəlcə biz dünyanı Rəbbin baxdığı kimi görməyə razı olmalıyıq. Öz baxış tərzimizdən imtina edib, tamamilə Müqəddəs Ruhu rəhbər qəbul edən kor insanlar kimi yaşamalıyıq. Həvari Paul bunu "gözlə görünənə deyil, imana görə həyat sürmək" adlandırır.[271] Biz çox vaxt Allahın əmrlərinə itaət edərkən bir səhv edirik, yəni onları həm Allahın dediklərinə, həm dünyanın qaydalarına, həm də öz həyatımıza uyğunlaşdırmağa çalışırıq. Bu isə o deməkdir ki, biz Allahın Kəlamını dəyişdirir, zəiflədir və özümüzə uyğun hala salırıq. Nəticədə, Allahın sözünü olduğu kimi qəbul etmirik, onu öz istəyimizə uyğunlaşdırırıq.

Allahın əmrlərini öz istədiyimiz kimi dəyişməmək üçün, Müqəddəs Yazılardakı hər bir əmri Allahın xasiyyətinə uyğun şəkildə yerinə yetirməyə çalışmalıyıq. Yəni, əmrləri olduğu kimi qəbul edib yerinə yetirmək lazımdır. Amma Allahın xasiyyətini indiki anlayışımıza uyğun şəkildə başa düşərək bunu etməliyik. Dağüstü vəzi oxusaq görərik ki, itaət ürəkdən başlayır və sonra zahirdən görünür, yəni yalnız zahiri əməl kifayət etmir. Əgər əmri olduğu kimi yerinə yetirmək, Kəlamda Allahın xasiyyəti ilə uyğun gəlmirsə, onda bu kitabda göstərilən başqa üsullarla Allahın bizdən nə istədiyini daha yaxşı anlamağa çalışmalıyıq.

[271] 2 Korinflilər 5:7

Məsələn, İsa demişdi: "Əgər sağ gözün səni günaha salırsa, onu çıxarıb at." Biz bilirik ki, bu əmri olduğu kimi yerinə yetirmirik. Amma bunun səbəbi əmrin praktik olmaması və ya başqalarını narahat etmək deyil. Əsas səbəb budur ki, Allah bizə bədənimizi istədiyimiz kimi kəsməyə və ya zədələməyə icazə vermir, çünki bədən bizə deyil, Ona məxsusdur. Günahlarımız üçün verilən qurban bizə deyil, Onun Oğlu İsa Məsihə aiddir, gözümüzü çıxarıb qurban kimi təqdim etmək isə İsanın qurbanını alçaltmaq deməkdir. Buna görə də bu əmri birmənalı yox, Allahın xasiyyəti, *Nikeya etiqadı* və Müqəddəs Kitabın bütöv konteksti əsasında başa düşməliyik. Məsələn, elə bu ayədən əvvəl, Matta 5:28-ci ayədə İsa deyir ki, zina yataqda yox əvvəlcə ürəkdə baş verir. Deməli, bizi günaha salan gözümüz deyil, ürəyimizdir. Sağ gözünü, hətta sol gözünü çıxarsan belə, yenə də günahın köləsi olacaqsan, çünki çıxarılmalı olan bədən üzvü ürəkdir.

Burada etdiyimiz səhv odur ki, İsa sözlərini ciddi deyirsə, bunu rəmzi qəbul edirik. Elə bilirik ki, O, nəyisə etməyi yox, sadəcə "nəyə baxırsan, diqqətli ol" demək istəyir. Amma Allahın xasiyyətinə uyğun olaraq hər əmri ciddi qəbul etsək, onda başa düşərik ki, İsa bizdən gözümüzü yox, ürəyimizi dəyişməyimizi istəyir. Bu isə yalnız vəftizlə mümkündür. İsa bizə yeni ürək və ruh vermək üçün təkcə diqqətli olmağı yox, ölüb yenidən doğulmaq üçün vəftiz olmağımızı deyir.[272]

Allahın əmrlərini hərfi mənada qəbul etmək üçün heç bir maneə olmadıqda, hətta bu bizə çətin görünsə və başqaları bizi tənqid etsə belə, bu əmrləri yerinə yetirməliyik. Matta 5:33-37-ci ayələrdə İsanın əmr etdiyi bir qədər mübahisəli nümunə var:

> "Yenə qədim zamanlarda adamlara "Yalandan and içmə, amma andlarını Rəbbin önündə yerinə yetir" deyildiyini eşitmisiniz. Mənsə sizə deyirəm ki, heç and içmə, nə göyə, çünki o, Allahın taxtıdır; nə yerə, çünki yer Onun

[272] Yezekel 36:26.

ayaqlarının altındakı kətildir; nə də Yerusəlimə, çünki ora böyük Padşahın şəhəridir. Başına da and içmə, çünki sən hətta bir dənə saçı belə, ağ və ya qara edə bilməzsən. Ancaq sözünüzdə "bəli"niz bəli, "xeyr"iniz xeyr olsun. Bundan qalanı şər olandandır".[273]

Bu mövzu bəziləri üçün mübahisəlidir, çünki sadiq məsihçilər and içmək barədə fərqli düşünür. Amma bu fəsildəki prinsipi tətbiq etsək, Allahın əmrləri Onun xasiyyətinə zidd deyilsə, onları yerinə yetirməliyik və onda bu məsələ də aydın olur. And içmək Allahın xasiyyətinə ziddir, ona görə məsihçilər and içməməlidir. Bəzən and içməmək çətin ola bilər, insanlar bizi başa düşməyə bilər. Amma bu, Allahın əmrinə itaət etməyə mane olmamalıdır. Deməli, Matta 5:33-37-ci ayələrə itaət etmək o deməkdir ki, and içməməliyik.

Bəzən bir əmrə riayət edib-etməməli olduğumuzu və ya bu əmrin bizə aid olub-olmadığını dəqiq bilmirik. Məsələn, Mark 10:21-ci ayədə İsa varlı gəncə deyir: "Sənin bir şeyin çatışmır: get nəyin varsa, satıb yoxsullara payla. Onda göydə xəzinən olacaq. Sonra qayıt, Mənim ardımca gəl".[274] Biz soruşa bilərik: "Bu əmri biz də yerinə yetirməliyik, yoxsa İsa bunu yalnız o varlı gəncə demişdi?"

Yaxşı məsihçilər bu sualın cavabı və bir çox başqa Müqəddəs Kitab əmrlərinin izahı ilə razılaşmaya bilərlər. Təsvir çətin olduqda, bu fəsildəki prinsiplər bizə hansı addımı atmalı olduğumuzu göstərir. Müqəddəs Ruhun və kilsənin köməyi ilə (adətən yerli kilsədəki məsul şəxslərlə və ya keçmişdə yaşamış sadiq məsihçilərin öyrətdikləri ilə) əmri hərfi yerinə yetirməkdən niyə narahat olduğumuzu ürəyimizdə araşdıra bilərik. Əgər bu narahatlıq şəxsi fikrimizdən və ya başqalarının nə düşünəcəyindən qaynaqlanırsa, əmrə tabe olmalıyıq. Əgər bu narahatlığın

[273] Matta 5:33-37
[274] Mark 10:21

Allahdan gəldiyini hiss ediriksə, onda Kəlama uyğun şəkildə əmri necə yerinə yetirəcəyimizi anlamaq üçün bu kitabda göstərilən üsullardan istifadə etməliyik.

Həvarilərin İşləri 10:9-16-cı ayələr bir nümunə verir.

> "Ertəsi gün təxminən altıncı saat radələrində, onlar yolda olub şəhərə yaxınlaşanda Peter dua etmək üçün dama çıxdı. O acıb yemək istəyirdi. Yemək hazırlanarkən Peterin fikrini bir görüntü apardı. O gördü ki, göy yarıldı, böyük mələfəyə bənzər bir şey dörd küncündən asılaraq yerə endi. Onun üstündə hər cür dördayaqlılar, sürünənlər və göydə uçan quşlar var idi. Ona bir səda gəldi: 'Qalx, Peter, kəs və ye!' Peter Ona dedi: 'Əsla, ya Rəbb! Mən heç vaxt nə haram, nə də murdar bir şey yeməmişəm'. Səda ikinci dəfə yenə gəldi və Peterə dedi: 'Allahın halal dediyi şeylərə sən haram demə'. Bu, üç dəfə təkrarlanandan sonra o şey dərhal göyə çəkildi."[275]

Müqəddəs Ruh Peterə kömək etdikcə, o, Allahın daha böyük planını düşünür və Kornelinin şəhadətini eşidir. Beləliklə, Peter Allahın əmrini daha yaxşı və dərindən anlayır.

> "Peter sözə başlayıb dedi: 'İndi bildim ki, həqiqətən, Allah tərəfkeşlik etmir. Milliyətindən asılı olmayaraq kim ki Ondan qorxub əməlisaleh olarsa, Ona məqbuldur.'"[276]

Peterin hərəkətləri Müqəddəs Kitabda tez-tez rast gəlinən bir mövzunu göstərir: Biz səhv edəcəyimizdən qorxub Allahın Kəlamını yerinə yetirməkdən çəkinməməliyik. Müqəddəs Kitab bildirir ki, Allah bizi "hərəkət edərkən," yəni Onun iradəsinə uyğun, səmimi niyyətlə Onun xasiyyətini göstərməyə çalışanda –

[275] Həvarilərin İşləri 10:9-16
[276] Həvarilərin İşləri 10:34-35

tərbiyə edir. Məsələn, Rəbb məsihçiləri təqib edən Şaula Dəməşqə gedərkən, yəni "hərəkətdə" olarkən tərbiyə verdi.

> "Şaul Rəbbin şagirdlərinə qarşı hələ də ölüm hədələri yağdırırdı. Baş kahinin yanına gedib ondan Dəməşq sinaqoqlarına yazılan məktublar istədi ki, orada İsa yolunu tutan kişi və qadınlardan kimi tapsa, əl-qolunu bağlayıb Yerusəlimə gətirmək üçün səlahiyyəti olsun. Dəməşqə yollanıb oraya yaxınlaşanda birdən göydən gələn bir işıq onun ətrafında parladı. Şaul yerə yıxıldı və bir səs eşitdi, ona deyirdi: 'Şaul, Şaul, niyə Məni təqib edirsən?' Şaul ona dedi: 'Ey Ağam, Sən kimsən?' O cavab verdi: 'Mən sənin təqib etdiyin İsayam. Qalx ayağa, şəhərə get və nə etmək lazımdırsa, sənə deyiləcək'".[277]

Allah məğrurlara qarşıdır, itaətkarlara isə lütf göstərər.[278] İndi ki nə isti, nə də soyuq olub ılıqsan, səni ağzımdan qaytaracağam.[279] Hərəkətdə olduğumuz zaman Rəbb bizi şagird kimi öyrədir. Aramızda ümidsiz olanlar isə yalnız hərəkətsiz qalanlardır. Səhv etmək qorxusuna görə yerindən tərpənməyəndə, O bizi ehtiyatlı deyil, "pis və tənbəl" hesab edəcək.[280] "Çünki Rəbbin gözləri yer üzünü seyr edir ki, ürəyi bütünlüklə Onunla olanları qüvvətləndirsin" deyir.[281] Ürəklərimiz Ona tam bağlı olduqda və təvazökarlıqla hərəkətlərimizi Onun hərəkətləri ilə uyğunlaşdırdıqda, isti və ya soyuq olmamızdan asılı olmayaraq, Kəlamı Allahın xasiyyətinin icazə verdiyi kimi yerinə yetirdikdə əmin ola bilərik ki, O bizi lütfkarlıqla bütün həqiqətə doğru yönəldəcək.[282]

---

277 Həvarilərin İşləri 9:1-6
278 Yaqub 4:6.
279 Vəhy 3:16.
280 Matta 25:26
281 2 Salnamələr 16:9
282 Yəhya 16:13

# 7-ci fəsil. Allahın xasiyyəti

***Müqəddəs Yazıları dinləmək və əməl etməklə biz Allahın xasiyyəti haqqında nə öyrəndik?***

Getsemani bağından əvvəl İsa yuxarı mərtəbədə hazırlanmış otaqda Ataya dua edirdi. Onun duasının əsas məqsədi şagirdlərinin öz vəzifələrini tapması, Allahın istəyini tam anlayıb yerinə yetirməsi, xilas olmaları və nəfsə qalib gəlmələri deyildi. Əksinə, İsa dua edirdi ki, onlar Atanın kim olduğunu tanısınlar. İsa bunu "əbədi həyat" adlandırır.

> "İsa bunları söylədikdən sonra başını göyə qaldırıb dedi: 'Ey Ata, vaxt gəldi; Öz Oğlunu izzətləndir ki, Oğul da Səni izzətləndirsin. Sən Ona bütün bəşər üzərində səlahiyyət verdin ki, Ona verdiyin şəxslərin hamısına əbədi həyat versin.'"[283]

İsa, Yeremya 31:34-cü ayənin yerinə yetməsi üçün belə dua edirdi:

> "Bundan sonra bir kəs öz qonşusunu yaxud qardaşını "Rəbbi tanıyın" deyib öyrətməyəcək. Ona görə ki böyükdən kiçiyə qədər hamı Məni tanıyacaq. Çünki təqsirlərini bağışlayacağam, günahlarını daha yada salmayacağam" Rəbb belə bəyan edir".[284]

[283] Yəhya 17:1-3
[284] Yeremya 31:34

“Çünki sular dənizi bürüdüyü kimi dünya Rəbbin izzətinin biliyi ilə doldurulacaq.”[285]

Biz Müqəddəs Yazını ona görə öyrənmirik ki, öz çağırışımızı müəyyən edib yerinə yetirək, ya da Allahın bizdən nə istədiyini tam anlayıb həyata keçirək, yaxud da nəfsimizi inkar edək. Belə məqsədlər bizə çox müqəddəs görünə bilər, amma bu, insan qəlbinin günahla qaralmasına görədir. Bu fikir bizi çaşdırır və elə düşündürür ki, guya Allahın əsas istəyi bizim daha “müqəddəs” və “dindar” xudbinlərə çevrilməyimizdir.

Əksinə, Allah bizdən özümüzü öldürməyimizi deyil, özümüzə aludəçiliyin ölməsini istəyir. Allahın əsas istəyi Onu tanımağımızdır. Buna görə də İsa Getsemani bağında dua etmədi ki, “İradəmi məhv et” və ya “İradəmi Sənin iradənə tabe et” və yaxud “Mənə iradəni göstər və tabe olmaq üçün güc ver”. O sadəcə dedi: “Mənim yox, Sənin iradən olsun”.[286] Allahın məqsədi insan iradəsini qırmaq deyil. O istəyir ki, İsa kimi insanlar da Allaha sevə-sevə, könüllü şəkildə itaət etsinlər.

İbranilərə kitabın müəllifi deyir ki, Məsih “çəkdiyi əzablarla itaətli olmağı öyrəndi”.`[287] Bu, o demək deyil ki, Məsih əzablara qarşı çıxıb sonda inadkar Tanrıya təslim oldu. Elə bil ki, İncildə “müqavimət” boş və mənasızdır. Əksinə, tarixdəki ən qaranlıq və anlaşılmaz məqamda Məsih Öz iradəsi ilə Atasının qucağına sığındı, çünki O bilirdi ki, Atası hər şeydə etibarlıdır və Ona tam güvənmək olar. Şamuel peyğəmbər deyir ki, itaət etmək qurbandan yəni, özünü fəda etməkdən daha yaxşdır.[288] Tanrı istəmir ki, biz ölək. Bu səbəbdən İsa Məsihin şagirdi Tomas “Biz də gedək ki, Onunla ölək”[289] deməsi yanlışdır. İsa Məsihin həvarisi Peter doğru deyir ki, Tanrı heç kəsin həlak olmasını

---

[285] Habaqquq 2:14
[286] Luka 22:42
[287] İbranilərə 5:8
[288] 1 Şamuel 15:22.
[289] Yəhya 11:16

istəmir, amma hər kəsin tövbə etməsini istəyir.[290] Əgər məqsəd sadəcə öz varlığımızı yox etmək olsaydı, onda tövbə özünü nifrətlə, utanc hissi ilə əzab verməklə və nəticədə özünü məhv etməklə, yəni intiharla nəticələnərdi. Amma bu tövbə deyil. Bu, sadəcə insanın özünə aludə olmasının, yəni eqosentrik düşüncənin gətirdiyi ölümcül nəticədir.

Yeşaya peyğəmbər fəryad edir: “Vay halıma, həlak oldum! Çünki ağzı murdar bir adamam, həm də murdar ağızlı adamlar arasında yaşayıram. Buna baxmayaraq, qarşımda Padşahı – Ordular Rəbbini gözlərimlə gördüm”.[291] Rəbbi görən hər kəs belə danışır. Əgər Rəbbin istədiyi yalnız bu idisə, onda O bunu Yeşayaya göstərdiyi kimi hər kəsə göstərib həyata keçirə bilərdi. Nəticədə, məsihçi həyatı həmişə özünə nifrət etməkdən ibarət ola bilərdi.

Bunun əvəzinə, Tanrının axtardığı tövbə, İsanın ağlında olan tövbədir. O deyir: “Səmavi Padşahlıq tarlada gizlədilən bir dəfinəyə bənzəyir. Tapan adam onu gizlətdi, sevinclə gedib bütün varını satdı və o tarlanı satın aldı”.[292] Həqiqi tövbə hər zaman sevincə əsaslanır. Bəli, günahımızın dərinliyini anlamaq müvəqqəti kədərlənməyə səbəb ola bilər və olmalıdır, amma heç vaxt ümidsizlik, məyusluq və ya məhvə aparmamalıdır. Həqiqi tövbə yalnız günahkar obrazımıza nifrət etməklə, onu basdırmaqla və ya ondan qorxub onun sərt və qəddar bir şəxsiyyət olduğuna inanmaqla mümkün deyil.[293] Həqiqi tövbə yalnız bu günahkar obrazı, günaha batmış olsa da, dəyərli hesab edərək və onu sevinc, ümid və inamla hər şeyi yeniləyən Rəbbə təslim etməklə mümkündür.[294]

Bütün Müqəddəs Yazıları oxumağımızın məqsədi əbədi həyata çatmaq və Allahın xasiyyətini tanımaqdır. Bu səbəbdən, bu

---

[290] 2 Peter 3:9
[291] Yeşaya 6:5
[292] Matta 13:44
[293] Matta 25:24
[294] Vəhy 21:5

kitabda itaət sadəcə nəticə və ya məqsəd deyil, oxumağın ayrılmaz bir hissəsi kimi göstərilir. Yəni biz Kəlamı sadəcə Allahı tanımaq və Onun bizdən nə istədiyini öyrənmək üçün oxumuruq. Əksinə, Onun bizdən nə istədiyini yerinə yetirmək üçün bunu edirik, yəni Kəlamı oxumaq Allahı tanıma yolumuzun bir hissəsidir.

Şagirdlər sual verdilər: "Bu necə adamdır ki, küləklər də, göl də Ona itaət edir!"[295] Allahın xasiyyətinin elə tərəfləri var ki, biz onları yalnız Onun Kəlamını eşitməyə və yerinə yetirməyə çalışarkən, yəni axtarış və sınaq içində olarkən anlaya bilərik. Hətta bu axtarışın özü – yəni çətinlik, düşüncə və səbir prosesi Allahın xasiyyətini bizə açan bir cəhətdir. Bir çox ilahiyyat kitabları Tanrının xasiyyətini sistemləşdirib onu fəlsəfi xüsusiyyətlərlə, yəni hər şeyə qadir, müstəqil və ali kimi tanıtdırmağa çalışır, amma Tanrı bununla razılaşmır. R. L. Brauli belə demişdi: "Tanrı, oxucunun məlumat, fəaliyyət, xüsusiyyətlər və qiymətləndirmələrdən yaratdığı bir xasiyyətdir".[296]

Allah Yeşayanın dediyi kimidir: "Həqiqətən, Sən Özünü gizlədən Allahsan, ey İsrailin Allahı, Xilaskar".[297] Tanrı Özünü Məsihdə tam şəkildə göstərdi. Lakin O, "mirvarilərinizi donuzlara atmayın"[298] kimi məsəllər söyləyən Allahdır. Hətta illərlə onu müşayiət edən şagirdlərindən belə soruşur: "Sizcə Mən kiməm?"[299] Hətta O, ölülər arasından dirildikdən sonra, hətta Onu Yəhya səmada görsə belə, Onun kim olduğunu və nəyə bənzədiyini başa düşmək çox çətindir. O, nəhayət, adını "Var Olan Mənəm" deyə elan edən Allahdır.[300]

---

295 Matta 8:27

296 R.L. Brauli, 1990. Allaha Mərkəzlənmək: Luka-Həvarilərdə Metod və Mesaj (Müqəddəs Kitab Təfsirində Ədəbiyyat Axınları). Luisvill, KY: Vestminister Con Noks Nəşriyyatı , s. 111.

297 Yeşaya 45:15

298 Matta 7:6

299 Matta 16:15.

300 Çıxış 3:14

Buna baxmayaraq, biz Onu bizə əmr edənin Atası kimi tanıyırıq: "Ey bütün yorğunlar və yükləri ağır olanlar. Mənim yanıma gəlin, Mən sizə rahatlıq verərəm".[301] Allah heç vaxt səhv etmir və yorulmur. Amma bizdə olan qürur və günah bəzən Onun bizə etdiyi kiçik bir düzəlişə belə mane olur. Bu isə Onu daha yaxşı tanımağımıza imkan vermir. Əgər biz doğrudan da Rəbbi və Onun kim olduğunu tanımaq istəyiriksə, Onun verdiyi vədlərə güvəniriksə və bu tanıma yolunda az da olsa nəyisə qurban verməyə hazırıqsa, Rəbb də bu istəyimizi yerinə yetirməkdən sevinclə razı qalacaq. Bu onun xasiyyətidir.[302]

Beləliklə, hər gün Müqəddəs Kitabı oxumağa başlamazdan əvvəl "Ya Rəbb, xasiyyətini mənə göstər" deyə dua etməliyik. Müqəddəs Kitabı oxuyub yerə qoymazdan əvvəl, "Ya Rəbb, xasiyyətini mənə aç" deyə dua etməliyik. Kəlamı oxuyarkən eşitdiyimiz sözü yerinə yetirərkən "Ya Rəbb, xasiyyətini mənə göstər" deyə dua etməliyik.

Bu proses boyunca O bizə nəyi açıqlayırsa, onu diqqətlə qeyd etməliyik. Bunu yaddaşımıza güvənərək saxlamamalıyıq, çünki bu nə təvazökarlıq, nə də sağlam düşüncə əlamətidir. Bunun əvəzinə, öyrəndiklərimizi biz bir yerə yazmalıyıq. Yazdıqlarımız, Müqəddəs Kitabdan oxuduğumuz sadəcə bu kimi sözlər ola bilər, məsələn: Rəbb Allah, mərhəmətli və lütfkardır, qəzəbi ani, məhəbbət və həqiqəti isə əbədidir; insana məhəbbət göstərən, günahı, üsyanı və cinayəti bağışlayan, lakin təqsirkarı cəzasız buraxmayan, ataların günahını övladlarına və nəvələrinə, üçüncü və dördüncü nəsillərə qədər ötürəndir.[303] Bu kitabda təsvir olunan mərhələlərə əsaslanaraq, Allahın Özünü bizə necə tanıtdığını müşahidə edib, Onun kim olduğu barədə daha dərin düşüncələrimizi yazmaq üçün geniş bir gündəlik də tutmaq olar.

---

[301] Matta 11:28.

[302] Matta 18:19; Matta 21:22; Mark 11:24; Yəhya 14:13; Yəhya 15:7

[303] Çıxış 34:6-7

Yaxud, bu, Əyyubun başına gəldiyi kimi ola bilər, yəni əvvəllər yalnız qismən başa düşdüyümüz bir şeyi indi daha yaxşı anlamağımız ola bilər.[304] Bu, bizim öz təsəvvürümüzlə yaratdığımız yalan Tanrını rədd etmək ola bilər. Yaxud da, Allahı tanımağın bizə gətirdiyi ibadət və sevinc dolu, əbədi həyatın sükutunda rahatlıq tapmaq ola bilər.

> "Qulaqlarıma sorağın çatmışdı, indisə Səni gözlərimlə görürəm. Ona görə özümdən zəhləm gedir, torpağın, külün içində tövbə edirəm."[305]

[304] 1 Korinflilərə 13:12.
[305] Əyyub 42:5-6.

# Nəticə

Artıq Müqəddəs Kitabı gizli kilsənin həyatına uyğun şəkildə mənimsəmək üçün təklif etdiyimiz üsulun sonuna çatmışıq. Bu təklif olunan ruhani həyat tərzinə əsaslanaraq hansı nəticəyə gəlirik?

Bu nəticəyə gəlirik ki, biz lütf və iman vasitəsilə xilas oluruq.

Bu ifadə adətən məsihçi həyatının başlanğıcı kimi işlədilir. Lakin bizim təklif etdiyimiz üsul bizə göstərir ki, bu, məsihçi həyatının yalnız başlanğıcı deyil, həm də sonu, ortası, uzunluğu, genişliyi və hər an davam edən reallığıdır. ***Xilas***, Üçlü Allahın yalnız hüquqi bir hökmü deyil. Bu, kilsəni formalaşdıran, müəyyən edən və gündəlik yaşanılan bir təcrübədir. Başqa sözlə desək, kilsə — lütf və iman vasitəsilə xilas olanların toplaşdığı bir yığıncaqdır.

***Lütf***, Allahın məhəbbəti, bağışlaması və ya Onun bizi istiqamətləndirməsi deyil. Karl Rahnerin sözləri ilə desək, lütf Allahın "Özü ilə ünsiyyəti"dir və Tanrının tamlığı bizə verilmişdir. Corc Vandervelde, Rahnerin tərifini izah edərək yazır:

> Lütf vasitəsilə Allah Öz ilahi varlığından kənarda nəyisə həyata keçirməklə kifayətlənmir. Əksinə, Allah Özünü – bəli, məhz Özünü – insanlara təqdim edir. Tanrı Özünü Allah olaraq, yəni sonsuz varlıq kimi təqdim edir. Bu, Onun daxilindəki, ilahi, Üçlü həyatın reallığını təqdim etməsidir. Allah Özünün daxili, ilahi mahiyyətini insanlarla bölüşür. Bu fikrə görə, lütf – yəni Allahın Öz varlığını insanla

paylaşması – sadəcə bir bənzətmə və ya rəmz deyil. Rahner deyir ki, bu, həqiqətən də Allahın insanla dərin və real bir şəkildə ünsiyyət yaratmasıdır.[306]

Bu, varlıqla bağlı bir prosesdir, yəni bu o deməkdir ki, Allahın varlığı bizim daxilimizə həqiqətən təsir edir və işləyir. Bu, sadəcə bizim haqqımızda deyil, bizim qəlbimizdə baş verən gerçək bir anlayışdır. İsanın Vəhy 3:20-ci ayədə dediyi kimi, O, Öz məskənini bizim qəlbimizdə qurmaq üçün gəlir.

Yaxud İsanın Yəhya 15:4-cü ayədə dediyi kimi: "Məndə qalın, Mən də sizdə qalım".[307]

Onun bizdəki məskəni, bizdə qalması bizi bütün zamanların və yaşadığı hər yerin hamısı ilə birləşdirir. Müqəddəslərin birliyi onun canlı məbədidir.[308] Məhz buna görə də Müqəddəs Yazılar deyir ki, hər şeyin sonunda Allah *hər kəsdə deyil,* əksinə, *hamıda olacaq*.[309] Bununla biz fərdiliyimizi itirmirik, sanki hansısa ümumi kollektivə daxil olmuşuq. Bunun əvəzinə, Rahnerin qeyd etdiyi kimi, O, yalnız bizimlə ünsiyyət qurduqda, yəni bizdə qaldıqda biz tam insan və tam özümüz oluruq. Yalnız bu halda biz özümüzü Rəbbə və bir-birimizə tam şəkildə verə bilərik.[310]

***İman***, Allahın hər zaman və hər yerdə olduğu kimi, bizdə də eyni şəkildə olacağına inamdır. Bu, Allahın hər zaman etdiyi işləri bizdə də edəcəyinə etibarımızdır. İman o demək deyil ki, biz Allaha güvənmədən yaşayırıq, amma O bizi yenə də bağışlayacaq. Əgər sən Allahı sərt və tələbkar bir sahib kimi görürsənsə, İsanın verdiyi misalda olduğu kimi, onda buna uyğun yaşamalı və cəzanı

[306] G. Vandervelde, 1998, "Lütfün Qrammatikası: Karl Rahner Müasir İlahiyyatda Bir Döngə Nöqtəsi Kimi," Teoloji Araşdırmalar, 49(8):445-459, s. 446.

[307] Yəhya 15:4

[308] 1 Korinflilərə 6:19; Efeslilərə 2:21-22; 1 Timoteyə 3:15; İbranilərə 3:6.

[309] 1 Korinflilərə 15:28

[310] G. Vandervelde, 1998, s. 447.

yüngülləşdirməyə çalışmalısan. Belə olan halda, bağışlanma deyil, cəza gözləyə bilərsən.[311]

İsanın sayəsində lütf və imanla xilas olmaq o demək deyil ki, Allah və insanlara qarşı necə davransan da, sonda hər şey yaxşı olacaq. Əslində, bu xilas, 6-cı fəsildə təsvir olunan bir həyat tərzidir və tam başa düşülməsi çətin olsa da, Allahın verdiyi vədlərə görə davam edən və əbədi olan bir həyatdır. Lütf və imanla xilas olmaq, həyatımızın hər tərəfinin Üçlü Allahla bağlı olduğunu qəbul etmək deməkdir. Bu həm də o deməkdir ki, bizim sonumuz, hər zaman və hər yerdə, yalnız Allaha güvənən insanlarla eyni taleyi paylaşmaqla müəyyən olunur.

1 Korinflilərə 11:1-ci ayədə Həvari Paul deyir: “Mən Məsihdən nümunə götürdüyüm kimi siz də məndən nümunə götürün”.[312] Bu bəzən bizi narahat edir, çünki lütflə xilas olmaqdan başqa hər şeyə bənzəyir. Ancaq bu, yalnız ona görədir ki, biz Müqəddəs Yazıları diqqətlə öyrənmirik. Məsihin xarakterik xüsusiyyəti Onun atasından tam asılı olmasıdır. Yəhya 5:19-cu ayədə İsa deyir: “Oğul Atanın nə etdiyini görməsə, Özündən bir şey etməz. Çünki Ata nə edərsə, Oğul da onu edər”.

İsa mükəmməl olmağa və ya hər cəhətdən kamil bir insan kimi görünməyə çalışmırdı. O, sadəcə Atasına güvənirdi. O, Allahın dediklərinə inanaraq hərəkət edirdi, yəni Allah necə danışırsa, elə də davranacağına inanırdı. Buna görə biz “lütf vasitəsilə imanla xilas olduq” deyəndə, əslində İsanın yolu ilə getdiyimizi deyirik. Bu yol həm də Paulun və İbranilərə məktubun 11-ci fəslində adı çəkilən “imanlı şahidlər buludu”nun yoludur. Onların ortaq cəhəti budur: onların həyat yolu insan gözü ilə baxanda tam başa düşülmür və yarımçıq görünə bilər. Amma İbranilərə 11-ci fəsildə yazılmışdı:

> “Bunların hamısı imanlı olaraq öldü. Vəd edilən şeylərə nail olmadılar, amma bunları uzaqdan görüb salamladılar və

[311] Matta 25:24-30.

[312] 1 Korinflilərə 11:1

özlərinin yer üzündə yad və qərib olduqlarını iqrar etdilər. Axı belə sözləri deyənlər bir vətən axtardıqlarını göstərirlər. Əgər onlar çıxdıqları ölkə barəsində düşünsəydilər, qayıtmağa imkanları olardı. Amma əslində onlar daha yaxşı bir ölkəni, yəni səmavi vətəni arzu edirdilər. Buna görə Allah Özünü onların Allahı adlandırmaqdan utanmır, çünki O onlar üçün şəhər hazırlamışdır”.[313]

Məsihin yolu ilə getdikcə və Məsihin ardınca gedən Paulu izlədikcə – biz də o böyük “şahidlər buludu” ilə birlikdə yer üzündə yadlar və qəriblərə çevrilirik. Bu, Məsihin bizi yaşadığımız yerlərdən uzaqlaşdırması səbəbilə deyil, baxmayaraq ki, bəzən bunu da edə bilər. Əksinə, bu, Onun bizi elə bir həyat tərzinə yönəltməsi səbəbindəndir ki, bu həyat bizi öz evimizdə belə yad edir. Zəbur 69:8-ci ayədə deyildiyi kimi: “Qardaşlarıma yad oldum, anamın oğullarına özgə sayıldım”.[314]

Lakin İsa Matta 12:50-ci ayədə əlavə edir ki, hər dövrdə və hər məkanda Ata Allahdan tam asılı şəkildə yaşayanlar Onun anası və qardaşlarıdır. Bu, gizli məsihçi həyatının nə olduğunu göstərir. Biz Müqəddəs Kitabı əlimizə alıb bu gizli yola başladıqda, məqsədimiz sadəcə gizlənmək deyil. Əksinə, bu yol – bu üç cilddə izah etdiyimiz kimi – Məsihin köməyi ilə, artıq yad olduğumuz bu dünyanın sistemlərinə və qaydalarına arxalanmadan yaşamaq deməkdir.

Biz bu kitabın birinci fəslində vəftiz ayininin bizi bu dünyaya yad olan bir səfərə başlatdığını etiraf etməklə başladıq. İndi isə bu kitabı, Rəbbin Süfrəsi ayininin həmin gizli kilsə olarkən bizi qidalandırması ilə tamamlayırıq. Rəbbin Süfrəsi haqqında bu mövzunun çərçivəsindən kənara çıxan daha çox şey demək olar, lakin heç olmasa bunu qeyd etmək lazımdır: İsrail Misirdən[315]

[313] İbranilərə 11:13-16

[314] Zəbur 69:8.

[315] Qanunun Təkrarı 16:3

çıxarkən tələsik bişmiş çörək yediyi kimi, bizə də Məsihin bədəni olan çörək verilir ki, bu çıxış yolunda bizi gücləndirsin. Sadiq məsihçilər Rəbbin Süfrəsində Məsihin bədəninin bizə necə verildiyini müxtəlif cür anlaya bilərlər. Amma Müqəddəs Kitabdan aydın olur ki, biz xilas yolunda – yəni lütf və imanla yaşadığımız bu həyatda – təkcə Allahın hökmünə, sevgisinə, bağışlamasına və ya Onun bizdən kənarda etdiklərinə arxalanaraq yaşaya bilmərik. İsa Yəhya 6:53-cü ayədə belə deyir: "Bəşər Oğlunun ətindən yeyib qanından içməsəniz, daxilinizdə həyat olmayacaq".

Başqa sözlə, siz sadəcə Allahın sevgisini, bağışlamasını və ya sizi haqlı çıxaran hökmünü qəbul edib dayana bilməzsiniz. Siz Onun bütün varlığını qəbul etməlisiniz. Siz Rəbbi qəbul etdiyiniz zaman O həmişə necə hərəkət edibsə, eləcə də hərəkət etməyə davam edəcək. Sadəcə bu dəfə O, sizin daxilinizdə hərəkət edəcək və siz, Müqəddəs Kitaba uyğun olaraq, əsrlər boyu bu neməti arzulamış hər dövrdən və hər məkandan olan imanlılarla birləşəcəksiniz.

# MÜNDƏRİCAT

1-ci bölüm: Gizli kilsəyə hazırlıq . . . . . . . . . . . . . . . . . . . . . . .3
"Gizli kilsəyə hazırlıq" kitabına giriş . . . . . . . . . . . . . . .4
Gizli kilsəyə hazırlıq, giriş - Koreya nəşri . . . . . . . . . . . . . . .7
I. Azad dünyada məsihçiliyi müdafiə edə bilən yeganə inqilab . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .8
II. Kilsənin sadəcə mövcudluğu zülmkar kimi necə qələmə verilir . . . . . . . . . . . . . . . . . . . . . . . . . .11
III. Kilsə, Rəbbə bənzəməkdənsə, daha çox onu təqib edənlərə oxşayır . . . . . . . . . . . . . . . . . . . . . . . . . .15
IV. Tövbə: gizli kilsəyə ilkin hazırlıq . . . . . . . . . . . . . . .19
V. Gizli kilsə nədir? . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .24
VI. Hazırlıq zamanı yaxındır . . . . . . . . . . . . . . . . . . . . . .28
VII. Silsilənin 2-ci və 3-cü cildi haqqında . . . . . . . . . . .34
Gizli kilsəyə hazırlaşın . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .36
Gizli kilsəyə hazırlaşın – indi . . . . . . . . . . . . . . . . . . . . .37
Əzablara hazırlıq . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .39
Həqiqət haqqında həqiqət . . . . . . . . . . . . . . . . . . . . . . . .42
Ruhani təlimlər . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .44
İmanda tərəddüd etmək insanı xəyanətkar edir . . . . . .47

İşgəncə sınağı . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .48
Böhran anı. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .50
Məhəbbət hər şeydən ucadır . . . . . . . . . . . . . . . . . . . .53
Susmağı öyrənin . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .55
İcazə verilən strategiyalar . . . . . . . . . . . . . . . . . . . . .58
Xəyanətkar mübahisə. . . . . . . . . . . . . . . . . . . . . . . . . .61
Beyin yuyulmasına qarşı müqavimət . . . . . . . . . . . . . .63
Tənhalığa qalib gəlmək . . . . . . . . . . . . . . . . . . . . . . . 67
Həqiqi Kimlik . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .71
2-ci bölüm: Gizli kilsənin qurulması . . . . . . . . . . . . . . . . . . . .74
Giriş. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .75
1-ci Prinsip. Hüquqi qeydiyyat kilsəni əsarətə salır; əvəzində yad və müvəqqəti sakinlər olun . . . . . . . . . . .82
2-ci Prinsip. Qaçmayın, müqavimət göstərməyin və ya təqibə uyğunlaşmayın; əksinə, bu vəziyyətdə imanınıza sadiq məsihçi kimi yaşayın . . . . . . . . . . . . .95
3-cü Prinsip. Təqiblərə cavab olaraq gizli kilsəyə keçmək əvəzinə, əsas məsələni qorumaq üçün gizli kilsəyə keçin . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .100
4-cü Prinsip. Binalarda deyil, insanların çox olduğu yerlərdə görüşlər keçirin. . . . . . . . . . . . . . . . . . . . . . . .106
5-ci Prinsip. Kilsə ailələrin ailəsi olaraq. . . . . . . . . . . .111
6-cı Prinsip. Kilsəni bazar günü ibadətindən gündəlik ailə həyatına keçirmək . . . . . . . . . . . . . . . . . .115

7-ci Prinsip. Peşəkar rəhbərlərin əvəzinə həvəskarları istifadə edin . . . . . . . . . . . . . . . . . . . . . . . . .119

8-ci Prinsip. Məcbur etməyin; əvəzində Məsihin ardınca getmək barədə ailələri xəbərdar edin . . . . . . .125

9-cu Prinsip. Kilsə üzvlərinizi yalnız bir sahəyə yönəltməkdənsə, hərtərəfli xidmətə hazırlayın. . . . . . .129

10-cu Prinsip. Kim olduğunuzu xatırlayın. . . . . . . . . . .133

11-ci Prinsip. Ondabir vermək – kilsəni dəstəkləmək üçün yox, Allahın xasiyyətini aşkar etmək üçün . . . . .139

12-ci Prinsip. Asılı olan müjdəçilik xidmətləri vasitəsilə gizli kilsənin Müjdəni yayması . . . . . . . . . . .144

3-CÜ BÖLÜM: GİZLİ KİLSƏDƏ YAŞAMAQ . . . . . . . . . . . . . . . . . .150

Giriş. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .151

1-ci fəsil. Müqəddəs Kitabı əlinizə götürməyə hazırlaşın . . . . . . . . . . . . . . . . . . . . . . . . . .156

2-ci fəsil. Nikeya etiqadına uşaq gözü ilə baxmaq . . . 171

3-cü fəsil. Kontekst . . . . . . . . . . . . . . . . . . . . . . . . . 176

4-cü fəsil. Allahın əməlləri . . . . . . . . . . . . . . . . . . . .184

5-ci fəsil. Allahın əmrləri. . . . . . . . . . . . . . . . . . . . . .192

6-cı fəsil. Nə edək?. . . . . . . . . . . . . . . . . . . . . . . . . .205

7-ci fəsil. Allahın xasiyyəti. . . . . . . . . . . . . . . . . . . . .214

Nəticə . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .220

# GİZLİ KİLSƏ

İndi dünyada kilsələr üçün mümkün qədər böyük, mərkəzləşdirilmiş və peşəkar şəkildə böyüməyin bir çox üstünlükləri var. Bu sistem onilliklərdir kilsənin böyüməsinə təkan vermişdir.

Lakin həyat dünyanın hər yerində məsihçilər üçün sürətlə dəyişir. Hökumətlər kilsənin mesajını getdikcə məhdudlaşdırırlar. Geniş ictimaiyyət kilsəni getdikcə nifrət yayan və azadlığı məhdudlaşdıran təhlükəli bir zülmkar kimi təsvir edir. Bu proses məsihçiləri kilsənin əsas inanclarını yenidən nəzərdən keçirməyə məcbur edir. Müqavimət göstərən kilsələr istehza, məhdudiyyət, cəza və təcridlə üzləşirlər.

Əvvəlki dövrdə böyük, mərkəzləşdirilmiş və peşəkar kilsələrin çiçəklənməsi üçün çox imkanlar var idi, lakin indiki dövrdə onlar çətinliklə inkişaf edirlər. Bu kitabın məqsədi pastorlara, kilsə rəhbərlərinə və adi məsihçilərə gizli kilsələr qurmağa və mövcud kilsələri gizli kilsələrə keçirməyə kömək etməkdir.

Azad dünyada kilsəyə qarşı düşmənçilik 40 ildən çox əvvəl "Şəhidlərin səsi" təşkilatının qurucusu möhtərəm Riçard Vurmbrand tərəfindən proqnozlaşdırılmışdır. O, kilsənin gələcək çətinliklərə hazırlaşmasına kömək etmək üçün bu kitabın bir hissəsini yazmışdır.

ERİK FOLEY: Pastor Erik Foley (həyat yoldaşı Dr. Hyun Suk Foley ilə birlikdə) "Şəhidlərin səsi Koreya"nın həmtəsisçisi və baş direktorudur. "Şəhidlərin səsi Koreya"da o, Şimali Koreyada, Çində və dünyanın müxtəlif yerlərində təqib olunan məsihçilərin şagirdlik təcrübələrini dünya miqyasında yaymaqla onların xidmətini dəstəkləyir.

RİÇARD VURMBRAND: Pastor Riçard Vurmbrand (1909-2001) vətəni Rumıniyada 14 il kommunist həbsinə və işgəncələrinə dözmüş müjdəçi və pastor idi. Həbsdən azad edildikdən sonra o, həyat yoldaşı Sabina Vurmbrand ilə birlikdə "Şəhidlərin səsi" təşkilatının həmtəsisçisi oldu və dünya miqyasında 30-dan çox ofisdən ibarət bir şəbəkə qurdu.